MİR MEHDİ SEYİDZADƏ

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"AVRASİYA PRESS"
BAKI-2006

*Bu kitab "Mir Mehdi Seyidzadə. Seçilmiş əsərləri"*
*(Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1966) nəşri əsasında*
*təkrar nəşrə hazırlanmışdır*

**894.3611-dc22**
**AZE**
**Mir Mehdi Seyidzadə. Seçilmiş əsərləri.** Bakı, "Avrasiya press", 2006, 320 səh.

Kitabda tanınmış Azərbaycan şairi Mir Mehdi Seyidzadənin şeirləri, rübailəri, qəzəlləri, pyesləri və təmsilləri toplanmışdır. Şairin tərənnüm etdiyi gözəlliklər, obrazını yaratdığı lirik qəhrəmanlar ustalıqla qələmə alınmışdır. Qəzəl janrında mükəmməl yaradıcılıq yolu keçmiş şair lirik şeirlərlə yanaşı, dram əsərləri və uşaq şeirləri də yazmışdır.

**ISBN10 9952-421-68-9**
**ISBN13 978-9952-421-68-2**

© "AVRASİYA PRESS", 2006

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

## NƏŞRİYYATDAN

Görkəmli şair və dramaturq, respublikanın əməkdar incəsənət xadimi Mir Mehdi Həsən oğlu Seyidzadə 11 noyabr 1907-ci ildə doğulmuşdur. Oxucularla ilk görüşə "Keçəl Səməd" (1929) mənzum nağılı ilə gələn şair, qırx ildən artıq uşaq ədəbiyyatı sahəsində fəaliyyət göstərmişdir. M.M.Seyidzadənin uşaqlar üçün yazdığı şeirlər, mənzum nağıllar, kiçik pyeslər və təmsilləri bu gün də maraqla qarşılanır, sevilir və oxunur. Onun "Nərgiz", "Qızıl quş", "Büllur qəsr", "Ayaz", "Qartal qüruru", "Əsmə külək", "Nənə və nəvə", "Su pərisi", "Göyərçin", "Ata məhəbbəti" və sairə əsərlərində Vətənimizin gözəllikləri, əmək adamlarının yaratmaq eşqi, balalarımızın saf duyğuları tərənnüm edilmişdir.

Şairin "Tikan və qızılgül", "Kəpənək və bal arısı", "Yarasa və pərvanə", "Dağ və duman" və s. təmsillərində lovğalıq, təkəbbürlülük, yalançılıq, ikiüzlülük kimi mənfi xüsusiyyətlər ifşa edilir. Bu təmsillərində şair xalq idrakına, xalq həyat və mənəviyyatına əsaslanır və sadə, aydın, konkret dil bu təmsillərin əsas məziyyətinə çevrilir. M.M.Seyidzadənin "Günəş baba", "Ağıllı çoban", "Sirli çeşmə", "Sazın sirri" və s. mənzum nağıllarında, "Ata məhəbbəti", "Qorxmaz", "Qızıl xoruz" adlı dram əsərlərində igidlik, qorxmazlıq, qəhrəmanlıq, qayğıkeşlik, vətənə hədsiz məhəbbət hissləri öz poetik əksini tapmışdır.

Onun "Fırtınalar içində", "Xatırlarsan məni", "Həyat yoldaşım", "Bu səs" kimi lirik şeirlərində, "Ürək", "Salar yada səni", "Sevdi könül", "Qara gözlər" və s. qəzəllərində şair qəlbinin çırpıntılarına qida verən motivlər doğma torpağın, Ana yurdun, təbiətin və gözəlliyin vəsfidir. Xalqının tarixinə, adət-ənənəsinə, məişətinə, psixologiyasına yaxşı bələd olan Mir Mehdi Seyidzadə, öz qəhrəmanlarının simasında mərdliyi, məhəbbət və sədaqəti inandırıcı boyalarla poetik dildə verə bilmişdir.

M.M.Seyidzadə eyni zamanda nəğməkar şair idi. Onun sözlərinə bir neçə yaddaqalan mahnılar bəstələnmişdir.

M.M.Seyidzadə həm də rus və Şərq ədəbiyyatından da tərcümələr etmişdir. O, A.S.Puşkinin "Çar Saltan", "Qızıl xoruz", P.Yerşovun "Qozbel at" mənzum nağıllarını, İ.Krılov, M.Lermontov və N.Nekrasovun şeirlərindən nümunələr, Sədi Şirazinin "Bustan"ını, Hafizin qəzəllərini, Ömər Xəyyamın rübailərini Azərbayacn dilinə çevirmişdir.

Çoxplanlı, zəngin və rəngarəng, yaddaqalan xarakter yaradan Mir Mehdi Seyidzadə 31 avqust 1976-cı ildə Bakı şəhərində vəfat etmişdir.



# Şeirlər

## XATIRLAYARSAN MƏNİ

Yasəmənlər açanda,
Bülbül bağa uçanda,
Oxuyanda nəğməni –
Xatırlayarsan məni!

Aşanda uca dağdan,
İçəndə gur bulaqdan,
Gəzəndə göy çəməni –
Xatırlayarsan məni!

Dəniz pıçıldaşanda,
Mavi sular daşanda,
Seyr edib ağ yelkəni –
Xatırlayarsan məni!

Düşəndə bir məclisə
Şairlər şeir desə,
Təsvir etsə sevəni –
Xatırlayarsan məni!

Arzular çox, ömür az.
Mən olmayanda hər yaz
Dolananda gülşəni –
Xatırlayarsan məni!

Bir gün səfalı bağda,
Gül olaram budaqda.
Görəndə gül dərəni –
Xatırlayarsan məni!

Göyləri yara-yara,
Uçanda ulduzlara
Gəzib Marsı, Zöhrəni
Xatırlayarsan məni,
Xatırlayarsan məni!

*1963*

## ÜRƏK SÖZLƏRİ

Deyirlər ki, bir incə telə bağlıdır ürək,
Deyirəm: bu vətənə, elə bağlıdır ürək.
Deyirlər: çox çalışsan, ürəyin tez qocalar,
Deyirəm: əmək sevən el gözündə ucalar.
Deyirlər ki, sənin də az-çox dərd-qəmin olmuş,
Deyirəm: şadlıq dostum, sevinc həmdəmim olmuş.
Deyirlər ki, ömürlər kiçik bir anə bənzər,
Deyirəm: mənalı gün geniş cahanə bənzər.
Deyirlər: qocalırsan, artıq əlli yaşın var,
Deyirəm: bu dövranda qocalarmı sənətkar?!

*1958*

## QORUQDA

Ana yurdun torpağında,
Meşələrin qucağında,
Səhər-səhər gəzirdim mən
Yazın gözəl bir çağında.

Qanadlanıb uçdu xəyal,
Öz-özümə verib sual
Soruşdum ki, bəs hardadır
Bu yerlərin gözü maral?

Elə bu an qaça-qaça,
Buynuzları haça-haça,
Maral gəldi, onu görcək
Az qaldı ki, könlüm uça.

Ovçu kimi pusquda mən
Seyr elədim onu gendən.
Elə bil ki, camalından
Gözəlləşdi çayır, çəmən.



Min rəng aldı hər gül, çiçək...
Bulaq üstə dayandı tək.
Su içəndə baxdı maral
Ətrafına ürkək-ürkək.

Bir az getdim mən qabağa, –
Yaxınlaşdım daş bulağa.
Xışıldadı şehli otlar,
Maral baxdı sola, sağa.

Bu an ürküb o, hənirdən,
Dönüb gördü məni birdən,
Göz açınca – bir ox kimi
Sıçrayaraq qopdu yerdən.

*1958*

## QIZ BƏNÖVŞƏ*

Bir sərin bulaqsan, ay Qız bənövşə!
Səni öz qoynuna alıbdır meşə.
Suyun zümrüd kimi olur həmişə,
Yayılıb ellərə sorağın sənin.

Üstündən əsəndə sərin küləklər,
Dövrəndə bitəndə güllər, çiçəklər,
Çırpınıb eşqinlə bütün ürəklər,
Yayda tez-tez olur qonağın sənin.

Bir zaman həmdəmdin yalnız dağlara,
Çəkmişdin özünü sən uzaqlara,
Yolunu salandan bizim bağlara –
Var kənddə, obada yığnağın sənin.

---

*Quba rayonunda məşhur bulaqdır.

Necə vəsf eyləyim səni kağızda?
Suyun şərbət dadır dildə, ağızda.
Sənə könül verir oğlan da, qız da,
Artır gündən-günə növrağın sənin.

*1958*

## GÖZƏLSƏN

Bir yanın Şah dağı, bir yanın Xəzər.
Meyvəli bağların ormana bənzər.
Səhər şəfəqləri hüsnünü bəzər,
Nə qədər gözəlsən, gözəl, ay Quba!

Əyir budaqları bağların barı,
Rəngbərəng almalar ağ, qızıl, sarı…
Keçir bahar kimi payız ayları,
Yoxdur bağlarında gözəl, ay Quba!

Çaylardan axır büllur şəlalə,
Dağlarında bitir bənövşə, lalə,
Bənzəyirsən incə şerə, xəyalə,
Nə qədər gözəlsən, gözəl, ay Quba!

Dillər əzbərisən, ellər şöhrəti,
Qoynunda görürəm min bir neməti.
Səni dəyişdirib elin zəhməti,
Sən belə deyildin əzəl, ay Quba!

Qəlbaçan Nügədi, Abisər, Alpan,
Axşamlar işıqla olur çıraqban.
Sənin cəlalına olmuşam heyran,
Nə qədər gözəlsən, gözəl, ay Quba!

*1958*



## RƏSSAM DOSTUMA

*Səttar Bəhlulzadəyə həsr edirəm*

Dönüb coşqun ilhamın dalğalanan Xəzərə,
Hər lövhəndə canlanır yurdumuzdan mənzərə.
Əsərində Göy gölü, Şah dağını görürük,
Söyüdlərin titrəyən yarpağını görürük.
Qartal qanad açanda, qaranquşlar uçanda,
Tapır gözəl əksini sənin mahir fırçanda.
Sənətində canlanır yaşıl dilbər meşələr,
Gözəllərin gözünə bənzəyən bənövşələr.
Arzum budur ilhamla, sevinclə yüz il yaşa,
Hər lövhən bu ellərçin, olsun gözəl tamaşa.

*1959*

## SƏN ÖMÜR BAĞINDA AÇAN ÇİÇƏKSƏN

Sən ömür bağımda açan çiçəksən,
Sənsiz həyatımın baharı olmaz.
Bütün gözəllərdən daha göyçəksən,
Hüsnün, təravətin heç zaman solmaz.

Bəzən incitsən də dəli könlümü,
Sənindir yenə də bütün varlığım.
Eşqinlə başlanıb bəxtiyarlığım,
Üzmərəm heç zaman səndən əlimi.

Əmin ol, çəkərdim sənin rəsmini
Min rəssam olsaydım, ey gül dodaqlım!
Özüm yaratdığım incə lövhədən
Heyrətlər içində donardı ağlım.

Sən ömür bağımda açan çiçəksən,
Sənsiz həyatımın baharı olmaz.
Bütün gözəllərdən daha göyçəksən,
Hüsnün, təravətin heç zaman solmaz!

*1930*

## BƏNZƏTMƏ

Sən yaqut dodaqlı incə bir qızsan,
Saçların bənövşə, yanağın güldür!
Sevda aləmində parlaq ulduzsan,
Eşqinlə coşmayan hansı könüldür?

Məcnunun Leylası gözəl olsa da
İncəlikdə sənə yetişməz, inan.
İnsanın ömrünü verirsən bada
Xumar gözlərini süzdüyün zaman.

O gözlər nazlı bir göyərçin kimi,
Tərlan könülləri havalandırır.
Kəsilir duyğunun, hissin hakimi,
İnsanın qəlbini dalğalandırır.

*1931*

## MARAL ƏFSANƏSİ

Bir yay günü körpə maral
Gəzişirdi yaşıl dağda.
Dolaşırdı çəmənlərdə,
Gül-çiçəkli bir ovlaqda.

Mahir ovçu onu görüb
Çəmənlikdə izləyirdi.
Nişan alıb ox atmaqçın
Fürsət dəmi gözləyirdi.



Maral çatdı bir təpəyə,
Ovçu birdən aldı nişan.
Ox marala dəyən kimi
Zərif qəlbi oldu şan-şan.

Yazıq maral can hayından
Üz döndərdi səhralara…
Hava isti, özü susuz
Sinəsində ağır yara.

Qaçdı… qaçdı düzənlərdən
Gəldi çatdı bir yaylağa.
Su içməkçin yaxınlaşdı
Durna gözlü bir bulağa.

Qəmli-qəmli su içəndə
Gözlərindən axırdı yaş.
Bir qurbağa gördü onu,
Soruşdu ki, maral qardaş!

Söylə neçin ürəyini
Sıxır belə qüssə-kədər?
Maral dedi: – Dərdim çoxdur:
Çəmənlikdə bu gün səhər

Bir insafsız ovçu vurdu
Oxla mənim kürəyimdən,
Gün qaraldı gözlərimdə
Yaralandım ürəyimdən.

Qurbağa çox lovğalandı
Qürur ilə dedi: – Aman,
Bu ovçular nə istəyir
Sən maraldan, mən maraldan?!

Maral bunu eşidəndə
Sanki qəlbi alovlandı.
Gözlərində şimşək çaxdı,
Od götürdü yandı-yandı.

Dönüb dedi qurbağaya:
Bu söz mənə əsər etdi –
Zalım ovçu atan oxdan
Daha artıq kəsər etdi.

## VÜQARLI DAĞLAR

Sizi vəsf eyləyən min aşıq oldu,
Sıldırım qayalı, vüqarlı dağlar!
Hüsnünüz yurduma yaraşıq oldu,
Ey bizim axarlı-baxarlı dağlar!

Bəziniz moruqlu, bəziniz tutlu,
Bəziniz çiçəkli, bəziniz otlu,
Başınız çox zaman olur buludlu,
Ağ örpək bürünən, ey qarlı dağlar!

Axır döşünüzdən gur şəlalələr,
Yanır köksünüzdə qızıl lalələr,
Maral sinənizdə çəkir nalələr,
Zirvəsi şahinli-şonqarlı dağlar!

Buzlu çeşmənizdən mən də içmişəm,
Cığırsız yerlərdən gəlib keçmişəm,
Sizi öz könlümə həmdəm seçmişəm,
Ey ilqarlı dağlar, ilqarlı dağlar!



# UŞAQLAR ÜÇÜN

## EYNƏK

Eynəyini silləndə
Qocanın əli əsdi.
Eynəyi yerə düşdü,
Ürəyini dərd kəsdi.
O yazığın, elə bil,
Gözlərində bir anlıq
Hər yan zülmətə döndü,
Aləm oldu qaranlıq.
Kitabları əlində
Dərsdən gəlirdi Elşən.
Qocanın eynəyini
O tez götürdü yerdən
Silib dedi: – Al, baba!
Alıb eynəyi taxdı,
İşıq gəldi gözünə,
Qoca ətrafa baxdı.
Dedi: sağ ol, ay bala!
Sən verdin eynəyimi.
Elə bil ki, qaytardın
Mənə göz bəbəyimi.

*1963*

## ÖVLAD MƏHƏBBƏTİ

Çox mehriban qızdır Şadan.
Duran kimi yatağından
Anasını öpsün gərək.
Bu gün yenə yüyürərək

Yanaşanda anasına.
Ülkər xala dedi ona:
– Yaxınlaşma mənə, qızım,
Mən xəstəyəm, körpə quzum.
Şadan dedi: – Saçlarından
Öpüm səni, gəl, anacan!
Kövrəklənib dedi Ülkər:
– Olmasaydım xəstə əgər
Üzümdən də öpərdin sən.
Qız dərk etdi bu sözlərdən
Öpmək olmaz xəstələri.
Təəssüflə döndü geri.

*1963*

## TƏR ÇİÇƏKLƏR

Bir dəstə təzə çiçək
Qoyulmuşdu güldana.
Evdə ətir saçırdı
Tər çiçəklər hər yana.
Maraqla yaxınlaşdı
Güldana kiçik Gülər.
Qızın xoşuna gəldi
Rəngbərəng incə güllər.
Yalvardı anasına
Qızcığaz dönə-dönə:
– Ana, götür güldandan
O gülləri ver mənə.
Ana dedi: Güldanın
Qabağında dayan bax!
Qızım, evdə nə görsə
Əl atmaz ona uşaq.
Öz sözünün üstündə
Gülər inadla durdu,



Dirənib, ayağını
O tez-tez yerə vurdu.
Ana gülü vermədi,
Dedi: – Sus, Gülər, bəsdir
Özünü nahaq yorma,
Bu inadın əbəsdir.
Qızı kövrəkləndirdi
Anasının sözləri,
Həycanından yaşardı
Onun qara gözləri.
– Beş günlükdür bu güllər!
Gəl qızın ürəyini
Sındırma, ay Münəvvər.
Ana dedi: – Bilirəm.
Solub gedər gül-çiçək...
Gülü versəm, bir anlıq
Qızım olar sevincək;
Lakin bu şıltaqlığı
Çıxmaz onun yadından.
Gülər ömrü boyunca
Dönməz öz inadından.

*1959*

## YOLDAŞLIQ KÖMƏYİ

Hər zaman şən görünən
Gülərüzlü Ənvərin
Gözlərində bir dərin
Kədər duydu uşaqlar,
Sual verib yer-yerdən
Soruşdular Ənvərdən:
– Nə var?
– Sənə nə olub?
– Nədəndir rəngin solub?

– Anam xəstədir bir az.
– Qorxma heç bir şey olmaz.
– Qorxmuram, ancaq mənim
Vaxtım yox dərs öyrənim.
– Qorxma, anan sağalar,
Dərsinçün də vaxt qalar,
Ev işlərini burax,
Gecə yatma, dərsə bax, –
Təsəlli verib Sərvər
Söylədi belə sözlər.
Lakin dinmədi Elman,
Başqa səmtə yönəldi,
Düz Ənvərgilə gəldi.
Kömək etdi Ənvərə,
Danışmadı boş yerə.

*1950*

## SAHİLDƏ İKİ UŞAQ

Bir dəfə iki uşaq
Sahildə oynayırdı.
Biri bu uşaqların
Dəniztək qaynayırdı.

Bir daş görüb yüyürdü
O daşa sarı qoçaq.
Fikrə dalıb bir anlıq,
Nəsə düşündü uşaq.

Yoldaşına söylədi:
– Bu daşı qaldıraq gəl!
Oynayan uşaqlara
Olmasın burda əngəl.



Yoldaşı baxdı daşa,
Bir də baxdı özünə.
Bir dağ kimi göründü
Yerdəki daş gözünə.

Dedi: – Gücümüz çatmaz
Bu yekə daşa, Elman!
Elman dedi: – Daşı mən
Tək qaldıraram bu an.

Doğrudan da əzmindən
Dönmədi Elman geri,
Çalışdı, çox çalışdı
Axdı alnının təri.

Axırda ağır daşı
Tək qaldırdı yerindən.
Ürəyim fərəhləndi
Uşağın hünərindən.

*1962*

## İKİ DƏFƏ İKİ

Yoldaşından bir səhər
Sual etdi Gülümsər:
– Hesabdan neçə qiymət
Almısan, ay Məlahət?
Gündəliyi göstərdi,
Məlahət cavab verdi:
– Dörd qiymət almışam bax!
Belə olar çalışmaq.
– İki qiyməti nədən
Dörd edib öyünürsən?
– İkiynən iki məgər
Dörd etməz, ay Gülümsər.

*1963*

## NƏNƏ VƏ NƏVƏ

Məktəbli kiçik Dilşad
Çox sevir nənəsini.
Nənə paltar tikəndə
Saplayır iynəsini,
Kömək eləyir ona
Ev işləri görəndə,
Tez yetirir yerinə
Bir tapşırıq verəndə.
Çıxmır bu sevimli qız
Nənəsinin sözündən.
Məktəbdən gələn kimi
Öpür onun üzündən.
Yatağına girəndə,
Dilşadçün nənə hərdən
Maraqlı nağıl deyir
Axşamlar keçmişlərdən.
Bəzən də qarı nənə
Ona corab toxuyur,
Dilşad da öyrəndiyi
Nəğmələri oxuyur.

Gözəl bahar çağıdır.
Dilşad yenə bir səhər,
Gəzir çiçəkli bağda
Nənəsilə bərabər.
Soruşur nənəsindən:
– Nənə, bu nə çiçəkdir?
– Qızım, bu qərənfildir!
Görürsən nə göyçəkdir?
– Bu salxım-salxım nədir?
– Nə qədər xoş ətri var!
Çox sevirəm onu mən.
Nənəcan, bağçamızda
Əkəcəyəm qərənfil,
Xoş ətirli yasəmən,



Bir də incə qızılgül.
Odur ki, öyrənirəm
Çiçəklərin adını.
Qızın bu söhbətləri
Sevindirir qadını.
Sonra isə Dilşadçün
Kəpənəkdən danışır.
Lalədən, bənövşədən
Hər çiçəkdən danışır.
Qızcığaz çox həvəslə
Dinləyir bu sözləri,
Gülür sevincdən onun
Gözəl ala gözləri.
Evlərinə dönürlər,
Nənəylə nəvə erkən.
Yol gedəndə qız tutur
Nənəsinin əlindən.
Hər şeylə maraqlanır
Zirək, sevimli Dilşad,
Nənəsi baxıb ona
Fərəhlənib olar şad.

*1948*

## ÖZÜNDƏN RAZI

Bir uşaq tanıyıram
Özündən yaman razı,
Nə evdə dərs öyrənir,
Nə də ki, yazır yazı.
Soruşanda: – Hesabdan
Neçin "iki" almısan?
Deyir: – Hesab öyrənmək
Deyildir çox da asan.
Rəqəmlər ilan kimi

Göz qabağında durur.
Beşi dördə vuranda
Elə bil məni vurur.
Deyəndə: – Bəs tarixdən
Niyə "pis"dir qiymətin?
Deyir: – Tarix dərsimiz
Hər dəfə olur çətin.
O qədər hadisələr
İşlər olub dünyada,
Mən ha fikirləşirəm
Biri də düşmür yada.
– Coğrafiyadan neçin
Cavab vermədin dünən?
– Yüzlərlə şəhərləri
Necə xatırlayım mən?
Nə mahir üzgüçüyəm –
Üzüm çaydan, dənizdən,
Nə də ki, bir səyyaham –
Dağ aşım, keçim düzdən.
– Ana dilindən neçin
Hazır deyildin bu gün?
– Elə bil ki, dilimə
Vurulmuşdu bir düyün:
Çox çalışdım, sinifdə
Göstərim böyük hünər,
Şeir yadımdan çıxdı,
Deyə bilmədim əzbər.
Heyrətlə baxıb ona
Dedim: – Fikrin nədir, sən
Gələn il də sinifdə
Qalmaqmı istəyirsən?
Dedi: – Hər sinifdə mən
İkicə il qalıram.
Bu il "iki" alanda
Gələn il "üç" alıram.

*1962*



## BELƏ UŞAQLAR DA VAR

Dərslərini öyrənməyib
Oynamışdı tənbəl oğlan.
Yorulmuşdu bütün günü
Küçələrdə oynamaqdan.

Xəlvət girib yatağına
İstəyirdi erkən yata.
O tənbəlin məqsədini
Dərk eləyib dedi ata:

– Gündəliyi gətir baxım
Bir həftəlik qiymətinə;
Fikirləşib oğlan gördü
İşi düşüb çox çətinə.

Bu həftə də "iki" alıb
Dərslərindən dönə-dönə.
"İki"ləri görsə ata
Danlayacaq onu yenə.

Gündəlikdən bir səhifə
Cırıb atdı utanmadan.
İstədi ki, gözgörəti
Atasına desin yalan.

Koridorda qoyulmuşdu
Yaraşıqlı böyük ayna.
Oğlanın bu hərəkəti
Əks olunub düşdü ona.

Ata alıb gündəliyi
Baxıb dedi: – Ay oğul, sən
Nahaq yerə yalan satıb
Belə çirkin iş görürsən.

Oğlan bilib nöqsanını
Başa düşdü çox dərindən.
Kövrəkləndi, yanağına
Yaş süzüldü gözlərindən.

*1961*

## BAHAR NƏĞMƏSİ

Bir quş uçdu bizim bağa,
Səhər-səhər oxumağa.
Qondu yaşıl bir budağa,
Dedi: gözəl bahar gəlir.

Günəş güldü, əridi qar,
Yerdən göyə qalxdı buxar…
Coşan sellər, daşan çaylar
Dedi: gözəl bahar gəlir.

Çiçəkləndi hər dağ, meşə,
Qızıl lalə qondu döşə.
Pıçıldayıb göy bənövşə
Dedi: gözəl bahar gəlir.

Çoban qalxdı bir yaylağa,
Sürüsünü yaydı dağa,
Baxdı sola, baxdı sağa,
Dedi: gözəl bahar gəlir.

Tütəklərin incə səsi,
Kəkliklərin şən nəğməsi,
Bulaqların zümzüməsi
Dedi: gözəl bahar gəlir.

Uçan bulud, çaxan şimşək,
Yağan yağış, əsən külək,
Təbiəti duyan ürək
Dedi: gözəl bahar gəlir.

*1958*



## FƏRHADIN ETİRAFI

Fərhadı yatağında
Yuxu tutmur bu gecə.
O, yuxuya gedərdi
Yatağına girincə.
Bu axşam könlündə var
Nədənsə bir iztirab.
Hesabdan "üç" alıbdır,
Sıxır qəlbini əzab.
Daima dərslərindən
Almışdır əla qiymət,
Müəllimlər bəsləyib
Ona dərin məhəbbət.
Bütün sinif əlaçı,
Tanımışdır Fərhadı.
Divar qəzetlərində
Yazılır daim adı.
Bu gün ilk dəfədir ki,
Buraxıbdır bir nöqsan, –
Düşündükcə Fərhadın
Başından çıxır duman.
Gecə keçir… parlayır
Yaqut rəngli şəfəqlər,
Fərhad öz atasilə
Görüşə gəlir səhər.
Çıxarıb atasına
Göstərəndə cədvəli,
Bir üşütmə hiss edir,
Əsir Fərhadın əli.
Söyləyir ki: – Atacan!
Bağışla məni… Dünən
Yaxşı cavab verməyib,
Hesabdan "üç" aldım mən.
Oğlunu həyəcanlı
Görüb mehriban ata,

Deyir ki: – Doğrudan da
Buraxmısan bir xata.
Oğlum, əla qiymət al!
Qoy olmasın bu nöqsan.
Bil ki, gerilik sevməz,
Heç vaxt qabaqcıl insan.
Günlərlə çalışaraq,
Göstərir böyük inad.
Axırda məqsədinə
Çatır yenə də Fərhad.
Dərslərindən bu rübdə
Əla olur qiyməti.
Verir gözəl nəticə
Onun böyuk zəhməti.

*1948*

## DAĞIN QƏLBİ

Qarlı dağlar baş çəkir
Göylərə, qəlbi olur.
Daşdan yaransa belə,
Dağın da qəlbi olur.

Dağın qəlbi bulaqdır,
Su verir sərin-sərin.
Qar kimi saf qəlbi var
Bulaqdan içənlərin.

*1960*



## ÜRƏK

Qartal qanad açanda
Sərçələr qanad salır
Tərlan göydə şığısa
Qorxudan sar alçalır.
İgiddə qartal kimi
Cəsarət olsun gərək,
Qəhrəmanlıq olarmı
Möhkəm olmasa ürək?!

*1960*

## İYNƏ, SAP

Bizimçin yaraşıqlı
Paltarı tikən nədir?
Hamı yaxşı bilir ki,
Paltartikən iynədir.

İynənin yoldaşı var,
Fikirləş, onu da tap.
Paltarı tikən olur –
İki yoldaş: iynə, sap.

*1960*

## ZƏHMƏTİN BARI

Bağban ağac əkəndə,
Olur meyvəsi, bar.,
Zəhmət çəkib çiçəkdən
Bal hazırlayır arı.

Kolxozçu yer şumlayıb
Tarlaya dən səpirsə,
Bircə ovuc buğdadan
Məhsul alır bir kisə.

*1960*

## YERSİZ SƏXAVƏT

Səxavət göstərəndə
Sən meydana elə çıx;
Əlin açıq olanda,
Alnın da olsun açıq.

Yersiz olan səxavət
Layiq deyil alqışa.
Bənzəyir vaxtsız yağan
Faydasız bir yağışa.

*1962*

## EL GÜCÜ

Aşır sarp qayalardan,
Sıldırımlı dağlardan.
Nərildəyib kükrəyir,
Gəlir çox uzaqlardan.

Qarşısına çıxanı
Vurub yıxır sel gücü,
Lakin onu sarsıdır
El qüdrəti, el gücü.

*1962*



## TƏNBƏL OLMA

Tənbəl gündə yatırdı,
Dedilər: get kölgəyə!
Dedi: kölgə gələcək,
Mən zəhmət çəkim niyə?
Qızmar günəş altında
Saatlarla uzandı.
Tərpənmədi yerindən
Üz-gözü qarsalandı.

*1962*

## YARASA VƏ PƏRVANƏ

Yarasa pərvanəyə
Sual verdi ki: niyə
Cəzb edir səni işıq,
Olmusan oda aşiq?
Başına dolanırsan,
Bircə anda yanırsan.
Zülmət olsa da yerim,
Uzundur mənim ömrüm.
Pərvanə dedi: əgər
Qaranlıq içində sən
Yüz il ömür eləsən
Gedər həyatın hədər.

*1962*

## TÜLKÜ VƏ CÜCƏ

Tülkü görüb bir cücə
Düşündü ki, indicə
Bitirərəm işini,
İtilədi dişini.

Dedi: – Durma uzaqda!
Belə qarda, sazaqda
Ələ keçsə qanadlı,
Əti olur çox dadlı.
Cücə dedi: – Ay lələ,
Məni gəl yemə hələ,
Nə ətim var, mən nəyəm,
Bapbalaca cücəyəm.
Gedib çağıraram mən
Ata, anamı hindən –
Sənə yaxşı pay olar,
Qaz vursan, qazan dolar!
Tülkü dedi: – Get çağır,
Ağzından lap dürr yağır.
Cücə çevrildi sağa,
Atıldı bir budağa.
Dedi: – A tülkü lələ,
Bir də düşmərəm ələ.
Yaxşı qurtardım tordan.
Dünən inkubatordan
Mən meydana çıxmışam,
Valideynsiz bir quşam.

*1961*

## QARANQUŞ VƏ BAYQUŞ

Yetişdi bahar çağı,
Bəzədi güllər bağı.
Qaranquş bir budaqda
Oxuyan zaman bağda,
Bayquş dedi: – Qaranquş!
Bu gün qurtarıbdır qış.
Xəbər tutub bahardan
Gəlib çıxmısan hardan?



Mən bağdayam hər səhər,
Tutmuram yazdan xəbər.
Qaranquş dedi: – Bayquş,
Birdir sənə bahar, qış,
Ulamaqdır sənətin,
Yazı duyarsan çətin.
Vurulmuşam mən yaza
Xoş nəğməyə, şən saza.

## ASLAN VƏ CEYRAN

Aslanın qarnı toxdu,
Şikara meyli yoxdu.
Düzdə gördü bir ceyran,
Hüsnünə oldu heyran.
Söylədi: – Ceyran qardaş,
Yaxın gəl, olaq sirdaş.
Vuruldum kamalına,
Hüsnünə, camalına,
Gəl gecəni, gündüzü,
Gəzək səninlə düzü.
Sən zövq al bu çəməndən,
Mən də zövq alım səndən.
Ceyranın qəlbi safdı,
Düşündü heç insafdı
İnanmayım aslana,
Bu qüvvətli heyvana.
Aslan istəsə bu an
Salar məni ayaqdan.
Yoldaş oldu aslana,
Dostlar çıxdı cövlana.
Az gedib, üz getdilər,
Dağ aşıb, düz getdilər.
Aslan yaman acıdı,
Dişlərini qıcadı.

Dedi: – Ceyran, mənə bax,
Dostuq, qardaşıq, ancaq
Belə həqiqət də var:
Ələ keçməyir şikar,
Qala bilmərik biz ac.
Əzizim, budur əlac.
Bu meydanda döyüşək,
Birimiz məğlub düşək,
Güclü gücsüzü yesin.
Yazıq ceyran nə desin,
Gücü çatmaz aslana,
Qaça bilməz heç yana.

*1961*

## ƏDABAZ MEYMUN

Ədabaz olar meymun,
Çıxarar hər cür oyun.
Adət edib nədənsə
Yamsılar kimi görsə.
Bir gün səhər meşədə,
Xəlvətcə bir guşədə
Pələng uzanan zaman,
Meymun enib ağacdan
Pələngi yamsıladı,
Quyruğunu buladı.
Pələng kimi gözünü
Qıyıb, meymun özünü
Pələngə bənzədəndə,
Oyunbazlıq edəndə
Pələng yerindən qalxdı,
Vüqarla ona baxdı.
Getmək istədi, ancaq
Qaçıb ədabaz qoçaq



Onun yolunu kəsdi.
Pələng söylədi: – Bəsdi
Oldum sənə əyləncə!
Qəzəblə atdı pəncə
Elə vurdu meymunu,
Bitdi bütün oyunu.

*1963*

## KİRPİ VƏ İLAN

Kirpiyə dedi ilan:
– Gəl dost olaq yaxından!
Xəncər kimi bizini
At, mən görüm üzünü.
Artsın sənə hörmətim,
Çoxalsın məhəbbətim.
Kirpi dedi: – Çox gözəl,
Mən bizimi atım, gəl
Zəhərini at sən də.
İnam oyansın məndə.
İlan dedi: – Dişimdən,
Mən sancmaq vərdişimdən
Əl götürmərəm əsla,
Dağılsa bütün dünya.
Sancmaq olub vərdişim,
Zəhərsiz keçməz İşim.

*1961*

## TAMAHKAR QARĞA

Düzləri tutmuşdu qar,
Qarğa deyirdi: "qar-qar".
Sərçə axtarırdı dən,
Qarğanı görüb birdən,

Dedi: – Üç aydan bəri
Qar örtübdür hər yeri.
Qarıldayıb elə sən
Yenə "qar-qar" deyirsən.
Qarğa söylədi: – Qarsız
Ağaclar qalar barsız,
Meyvə görməzsən bağda,
Məhsul olmaz torpaqda.
"Cik-cik" eləyib sərçə
Qarğaya dedi: – Bircə
Ətəyindən tök daşı,
Məni sanma çox naşı.
Düzdür, qarda var fayda,
Ancaq sən qışda, yayda
Elə deyirsən "qar-qar".
Doymursan, ay tamahkar!

*1961*

## CANAVAR VƏ TÜLKÜ

Bərk çovğundu, düzəndə
Ac qurd ovçun gəzəndə
Bir tülküyə rast gəldi,
Kefi yaman kökəldi.
Dedi: – Tülkü ləlstartə, gəl!
Gətirib səni əcəl,
Rast gəlmisən ac qurda.
İşin bitəcək burda.
Tülkü dedi: – Canavar,
Bu yaxında bir at var,
Başınçın, on gün yesən
Bəsindir, gəl gedək sən,
Köhlən atı yerə sər,
Meydanda hünər göstər,



Ye, ağzın gəlsin dada.
Gör, nələr var dünyada!
Atı ovlasın deyə
Qurd qoşuldu tülküyə,
Gəldi at gəzən yerə,
Hücum etdi kəhərə.
Kəhər bir təpik vurdu,
Şil-küt elədi qurdu.
Tülkü qaçmaq istədi.
Kişnəyib kəhər dedi:
– Al, bu da sənin payın!
Tək qalmasın qurd dayın.
Elə vurdu Tülkünü,
Yel sovurdu tükünü –
Hiyləgərin dörd yana.
Qurdla düşdü yan-yana.

*1963*

## ƏQRƏB VƏ ÇANAQLI BAĞA

Girmişdi əqrəb bağa,
Gəlib sancaqlı bağa
Əqrəblə sirdaş oldu,
Dost oldu, qardaş oldu.
İki əziz, mehriban
Yoldaş bağda bir zaman
Birlikdə yedi, içdi.
Günləri çox şən keçdi.
Bir gün qopdu bərk tufan,
Külək dostları bağdan
Götürüb çox şiddətlə
Atdı geniş sahilə.
Əqrəb dedi: – Dostum, sən,
Üzüb çaydan keçərsən,

Mən burda qalaram tək.
Səndən ayrılmır ürək,
Olmuşuq yaxın, həmdəm,
Qəlbimi sıxar dərd, qəm.
Bağa dedi: – Dostum gəl,
Min arxama əlbəəl
Çaydan keçirim səni,
Burax yersiz qüssəni.
Gedək başqa bir bağa.
Aldı mehriban bağa
Arxasına əqrəbi.
Bir az yol gedən kimi
Əqrəb sancdı dostunu.
Duyaraq bağa bunu
Dedi: – Ay üzü qara
Dost-dosta vurar yara?
Əqrəb dedi: – Əzizim,
Qara olsa da üzüm,
Sancmaq məndə adətdir,
Sanma bu ədavətdir.
Baş vurdu suya bağa.
Söylədi: – Əqrəb qağa,
Mənim də adətim bax,
Olub suya baş vurmaq.
Əqrəbi atdı suya,
Bağa çıxdı quruya.

*1963*

## BÜLBÜL VƏ ÇALAĞAN

Çalağan gəlib dilə,
Bir gün dedi bülbülə:
– Öyrət mənə də nəğmə,
Şövq ilə gəlim dəmə,



Oxuyum, vurum cəh-cəh,
Dinləyən desin bəh-bəh…
Həmdəm olum güllərə,
Adım düşsün dillərə.

Bülbül dedi: – Çalağan!
Pəncəndə görünür qan.
Yırtıcılıqdır peşən,
Sənə yaddır bu gülşən.
Səndən nəğməkar olmaz,
Qızılgülə yar olmaz!

*1961*

## QIŞ BABA

Keçdi dəniz, aşdı dağ
Gəldi bizə bir qonaq.
Saçları qardan dümağ.
Söylədik: alqış, baba,
Şaxta baba, qış baba!

Çöldə çıxıb qar dizə,
Yolka qonaqdır bizə.
Nəğmə deyib üz-üzə
Söylədik: alqış, baba,
Şaxta baba, qış baba!

Burda verib əl-ələ,
Oynayırıq bax, belə
Səs yayılır hər elə:
Ay sənə alqış, baba,
Şaxta baba, qış baba!

*1956*

## QUZUM

Yaz gəlib, coşur sular,
Çiçəklənib arzular.
Yayılıb çölə, düzə,
Körpə-körpə quzular.
Quzum, gəl, ay quzum, gəl,
Ay mənim yalqızım, gəl.
Sənin zərif boynuna
Zınqırovlar düzüm, gəl.

Mən gəzirəm çəməndə,
Yoldaş ol mənə sən də.
Duyaq yazın ətrini
Nərgizdə, yasəməndə.

Quzum, gəl, ay quzum, gəl,
Ay mənim yalqızım, gəl.
Sənin zərif boynuna
Zınqırovlar düzüm, gəl.

*1956*



# Rübailər

* * *

Mənə həyat verən yurdum, elimdir,
Vətən candan şirin bir sevgilimdir.
Ölməz Füzulini, böyük Sabiri
Yetirən vətənim, ana dilimdir!

* * *

Aşiqin sevgisi, sevdası xoşdur,
Ömür bir kitabdır, mənası xoşdur!
Bir bayraq altında səadət quran
Bizim bu qardaşlıq dünyası xoşdur!

* * *

Döşünə gül taxıb gözəl yaz gəlir,
Günlər bir-birindən daha saz gəlir.
Bizim bu sevimli vətənimizdə
A dostlar, bir ömür mənə az gəlir!

* * *

Gənclik tək gözəlsən, bahar, ay bahar!
Sirdaşın olmuşdur, çiçəklər, quşlar…
Çağlayan bulaqlar, əsən küləklər
Füsunkar hüsnünə olub nəğməkar.

* * *

Bir dilbər gözəlin nazlı baxışı
Bahara döndərir yüz qarlı qışı,
Sevənlər çox zaman küsülü qalmaz,
Tez keçib gedəndir bahar yağışı.

* * *

Bənövşə, şairlər çox yazıb səndən,
Əskik olma bizim bağdan, çəməndən!
Yaxaya qonanda az olur ömrün,
Səni öz kolundan ayırmaram mən!

* * *

Zaman gecə-gündüz axan bir sudur,
İnsanı yaşadan böyük arzudur.
Zəhmətsiz bir dilək yetişməz başa,
Sözün həqiqəti, düzü, bax, budur!

* * *

Min təbiət sirri bir hünərdədir,
Min daşın dəyəri bir gövhərdədir.
Torpaqdan alınır bütün nemətlər,
Ən böyük ağacın kökü yerdədir!

* * *

Qönçədən zərifdir dodağın sənin,
Şəfəqdən rəng alır yanağın sənin;
Sevgilim, lütf elə, gözüm üstə göz,
Qorxma, yaralanmaz ayağın sənin!

* * *

Keçdi sevgisilə aylarım, ilim,
Duymadı qəlbimi nazlı sevgilim;
Eşqimi gizlətsəm qövr edər ürək,
Açsam alovlanar, od tutar dilim.

* * *

Dostluqdur dünyanın şirin neməti,
Ürək dostlarının yoxdur qiyməti.
Arxanda yaxşı dost durar dağ kimi,
Sarsıtmaz dostluğu ara söhbəti.



* * *

İtirdiyin günlər ömürdən gedər,
Çalış zəhmətindən bir görsün ellər!
Dünyaya ikinci dəfə gəlməzsən,
Çalış, bircə anın getməsin hədər!

* * *

Şairə ilham tək həmdəm tapılmaz,
İlham bir pəridir, hər dəm tapılmaz.
Təbim dalğalanıb ilham gələndə
İşin tərsliyindən qələm tapılmaz!

* * *

Bir sümük azarı tutur tənbəli,
İş-güc zamanında titrəyir əli;
Bir təhər başını saxlayır, ancaq
Hər kəs nə əmr etsə söyləyir: "bəli!"

* * *

Hər sərçə özünü bir tərlan sanır,
Hər pişik özünü bir aslan sanır.
Hər söz quraşdıran deyir şairəm.
Bir damla təbini bir ümman sanır!

* * *

Ey yaqut dodaqlı məhbarə dilbər,
Düşmənin zülmündən avarə dilbər,
Qoymaz yad əlində səni sevgilin,
Yenə qovuşarsan dildarə, dilbər.

* * *

Bu il çəmənlərdə bitən hər lalə,
Tökülən qanları salır xəyalə...
Ey vətən övladı, mərdliklə çarpış –
Batmasın vətənin dərdə, məlalə!

* * *

Ucadır Qafqazın əyilməz başı,
Sarsılmaz qaladır torpağı, daşı.
O, tarix boyunca amansız olmuş
Mənəm-mənəm deyən düşmənə qarşı.

* * *

Milyon könüllərdə bircə dilək var:
Qaniçən düşmənlər olsun tari-mar.
Vətən göylərində olmasın bulud,
Gülsün ölkəmizdə daima bahar.

* * *

Səndən ayrı olsam belə mən, ey yar,
Könlümdə, gözümdə xəyalın yaşar!
Sinəmi vətənçin edərəm sipər,
Düşmənin əlində olmayasan xar.

* * *

Övlad məhəbbəti şirin olsa da
Namusdan yüksək şey yoxdur dünyada.
Vətən yağıların olsa tapdağı
Övlad da, namus da sovrular bada.

* * *

Polad ürəyində kin, qəzəb dolu,
Qalxdı at belinə Qafqazın oğlu,
Etdi sinəsini vətənçin sipər,
Kəsildi qaniçən düşmənin yolu.

* * *

Köhnədir, qədimdir gördüyün cahan,
Çox cahangirləri məh edib zaman.
Bu gün torpaqları qana döndərən
Sabah yer altında olacaq pünhan.



* * *

Mən şeyda bülbüləm, məftunam gülə,
Gülşən məskən olar şeyda bülbülə.
Vətən torpağında qalacaq daim
Vücudum dönsə də bir ovuc külə.

* * *

Dünən söyləyirdi məğrur bir qoca:
Dünyada şöhrət var, şərəf var bunca,
Vətənin yolunda çarpışıb ölmək
Məncə, hər şöhrətdən, şərəfdən uca!

* * *

Nəsibin olsa da ayrılıq, ana!
Dönməsin qəlbində dərdin ümmana.
Oğlun azadlıqçın çarpışdı, öldü,
Qoymadı xor baxsın yağılar sana.

* * *

Həqiqət bizdədir, ədalət bizdə,
Yadlar hakim olmaz vətənimizdə.
Mərdliklə çarpışıb qəsbkarları
Qırarıq havada, yerdə, dənizdə!

* * *

Ey Vətən, hər dalğan bir atəşzardır,
Hər dərən düşmənə dərin məzardır.
Dünyada azadlıq timsalısan sən,
Odur yenilməyən qüdrətin vardır.

* * *

Ey Vətən, sənindir şerim, sənətim,
Sənindir varlığım, bütün qüdrətim,
Sənin torpağından yaranmışam mən,
Yolunda ölsəm də qalar şöhrətim!

* * *

Həyatın sirrini anlayan insan,
Sanar azadlıqçın ölümü asan.
Varlıq aləmindən silinər adın
Əgər bu dünyada yada qul olsan!

* * *

Çoxdur yer üzünün dənizi, dağı,
Bərəkətli düzü, meyvəli bağı.
Lakin sən hər yerdən mənə əzizsən,
Ey Vətən torpağı, Vətən torpağı.

* * *

Əsrlərcə uçdu xəyalın atı,
Aşdı fəzaları fikrin qanadı.
Elmin qüdrətilə zamanımızda
İnsan fəth eləyir bu kainatı.

* * *

İnsan yer üzünün olub ziynəti,
Bəşərsiz dünyanın olmaz qiyməti.
Nə qədər gözəllik varsa dünyada,
Yaradıb insanın böyük zəhməti.

* * *

Nə qədər göstərsən, sevgilim, qürur,
Vüsal həsrətilə ürəyin vurur.
Dilin söyləsə də mənə, çəkil get.
Mehriban baxışın deyir getmə, dur.

* * *

Çoxdur bu dünyanın zövqü, nəşəsi,
Hərənin başqadır eşqi, həvəsi.
Mənim xoşladığım bulaq səsidir;
Bülbül zümzüməsi, qadın nəğməsi.



* * *

Ürəyim andırır susuz qumsalı,
Eşqin bir sahilsiz dərya misalı.
Sərinlik duyaram sənə qovuşsam,
Ey yar, əsirgəmə məndən vüsalı.

* * *

Oldu gül üzündə saçın pərişan,
Döndü könlüm oldu şanətək şan-şan,
Qumral saçlarının içində itdi,
Könlümü axtardım, vermədin nişan.

* * *

Olmasa lalənin əgər bağrı qan,
İncə gözəllərə olmaz ərməğan.
Şadam ki, qəlbimi qana döndərib.
Alıb ərmağantək sevimli canan.

* * *

Çalış ürəyində sözün qalmasın,
Qəlbində ən kiçik arzun qalmasın.
Bütün arzulara çat bu dünyada
Həyatda heç şeydə gözün qalmasın.

* * *

Aydın həqiqətə biz fikir verək,
Şair sözü qısa söyləsin gərək.
Baldan şirin olsa, güldən ətirli
Həddən çox olanda söz vurar ürək.

* * *

Bir gülün eşqilə hər gülüstanı
Dolanıb oxudum sevgi dastanı.
Səsimə səs verib bülbüllər dedi:
Hər gözəl, gül olmaz, dostunu tanı.

* * *

Hər elmə dünyada marağım oldu,
Döyüşdə qələmim yarağım oldu.
Gündüz günəş kimi, gecə ay kimi
Qəlbim işıq saçan mayağım oldu.

* * *

Açdı qapısını bizə kəhkəşan,
Verdik hər aləmdən, ulduzdan nişan.
Nəsillər fəxr edər qüdrətimizlə,
Əbədi yaşayar bu şöhrət, bu şan.

* * *

Çalış ki, həyatın keçsin çox sadə,
Dünyanın qeydindən dolan azadə.
Dərd çəkib özünü vaxtsız qocaltma,
Bizə xoş gün qalır qoca dünyadə.

* * *

Yurdumun payızı, yazı gözəldir,
Aşığın söhbəti, sazı gözəldir.
Küsdürüb qəlbini alandan sonra
Dilbər sevgilimin nazı gözəldir.

*1942-1965*



# Qəzəllər

## ELİNDİR

Bir bülbüləm, eşqin çəmənində gülə bəndəm,
Yar, qəlbimi incitmə, yanıqlı dilə bəndəm.

Pərvanə kimi qol-qanad açsam da çəməndə,
Bir incə ipəkdir qanadım, mən tülə bəndəm.

Eşq atəşi sinəmdə yanır, sevgili canan,
Sanma gözü sönmüş, soyumuş bir külə bəndəm.

Bağlandı könül tellərinə, getdi qərarım,
Tükdən asılıbdır ürəyim, bir telə bəndəm.

Mir Mehdi deyir: varlığım, ilhamım elindir;
Bülbül kimi yüz nəğməm ola, mən elə, bəndəm!

## ACI OLMAZ

Hər söz desə aşiqlərə canan, acı olmaz,
Yar vədə verə vəslini, hicran acı olmaz.

Mənalı həyat sürsə bu dünyada hər insan,
Yüzillik ömür də ona bir an acı olmaz.

Bir xəstəliyə yaxşı əlac eyləsə şəksiz,
Ağu kimi olsa yenə dərman, acı olmaz.

Dövranı bizik hərlədən öz qüdrətimizlə,
Zəhmət sevən insana bu dövran acı olmaz.

Cananını Mir Mehdi şirin can kimi sevmiş,
Canan özü də can kimidir, can acı olmaz.

## BƏNZƏDİRƏM

Məhəbbət aləmini laləzarə bənzədirəm,
Çəmən çiçəklərini nazlı yarə bənzədirəm.

Gedir gözüm qarası, köksünü görəndə açıq,
Sənin o ağ sinəni tazə qarə bənzədirəm.

Xumar baxışlarını seyr edəndə məst oluram,
Mey içmədən özümü mən xumarə bənzədirəm.

Rəqib ilə səni gülşəndə seyr edən görsəm,
Səni qızılgülə, əğyarı xarə bənzədirəm.

Baxıb gözəllərə, Mir Mehdi, mən gözəl Vətəni,
Həmişə gül yetirən novbaharə bənzədirəm.

## YADƏ GƏLDİ

Canan ilə bir məclisimə badə gələydi,
Mən sevməyirəm təntənəni, sadə gələydi.

Dəydikcə qədəh bir-birinə yarın əlində
Mey camı da qəlbim kimi fəryadə gələydi.

Çiynində pərişan saçı, canan yenə dalğın,
İlk eşqimizin xatirəsi yadə gələydi.

Yarımla görüş müşkül olursa, barı hərdən
Sevdalı pərilər kimi röyadə gələydi.

Ey kaş, min il sonra bitib ot kimi yerdən
Bu aləmə Mir Mehdi Seyidzadə gələydi.



## NAZ EYLƏYİR

Təbimiz canan kimi hərdən bizə naz eyləyir,
Gəlmir ilhamın pərisi, lütfünü az eyləyir.

An gəlir ki, yağdırır ilhamımız misraları,
Min səxavət göstərir, sənətdə ecaz eyləyir.

Nazlı bir canan, göyərçintək süzüb rəqs eyləsə,
Təbimiz şahin kimi bir anda pərvaz eyləyir.

Şeir zövqi oxşayır, cəzb eyləyir yüz min könül,
Nəğməmiz də musiqi tək nəşəni saz eyləyir.

Yaz, yarat, Mir Mehdi, ellər eşqinə hər nəğməni,
Şerimiz şairləri eldə sərəfraz eyləyir.

## UÇDU BÜLBÜL

Uçdu bülbül yenə bağda güli-rənaya tərəf,
Baxdı, bir naz ilə gül, bülbüli-şeydaya tərəf.

Bağlanıb qaldı, könül saçlarına, nazlı gözəl,
Baxdı bir dəfə gözüm nərgizi-şəhlayə tərəf.

Sən bir aslan kimi məğrur idin, ey vəhşi könül,
Çəkdi bir ceyranın eşqi səni səhrayə tərəf.

Yoxdu daş qəlbinə dərya kimi eşqin əsəri,
Sel çəkər güclü gələndə daşı dəryaya tərəf.

Yüz dəfə döndərib üz, sevgidən əl çəksən əgər,
Çəkəcək yar səni, Mir Mehdi, bu sevdaya tərəf.

## DODAĞINDAN

Bir busə alıb şövq ilə canan dodağından,
Sandım ki, gəlir canıma min can dodağından.

Yüz arif ola, ağzının əsrarını bilməz,
Gövhər saçılır hər yana mərcan dodağından.

Gül qönçəsinin ətri gəlir hər açılanda,
Al rəngli şəfəqlər kimi əlvan dodağından.

Hicran gününün xəstəsiyəm, vəslə yetəndə
Könlüm tapacaq dərdinə dərman dodağından.

Yüz şövq ilə Mir Mehdi verər canını qurban,
Yar versə əgər lütf ilə fərman dodağından.

## GÜLLƏR İÇİNDƏ

Gördüm o gözəl çöhrəni al tüllər içində,
Sandım ki, qızılgül görürəm güllər içində.

Sünbüllərin ətri xoş olur bağda, çəməndə,
Yox saçlarının bənzəri sünbüllər içində,

İllər dolanır, hüsnünə təsir edə bilmir,
Sən qəlbə yatan ay kimisən illər içində.

Dünyada gözəl çoxsa da, lakin sənə bənzər
Bir nazlı gözəl görməmişəm ellər içində.

Mir Mehdi vüsal həsrətini qəlbinə salmış,
Yar, qoyma onun qəlbini nisgillər içində.



## VƏTƏNDƏ

Hər neməti ellər yaradıbdır bu vətəndə,
Var xilqətin hər qüdrəti, hər sərvəti məndə.

Dəryadə dolan, dağları aş, gəz meşələrdə,
Bax çeşmələrə, çaylara, gəz bağda, çəməndə.

Vermiş bu gözəl ölkəmə hər hüsnü təbiət,
Yurdumdakı şeriyyəti seyr eylə gəzəndə.

Hər yerdə gülür gül, şehə batmış yaşıl otlar,
Gör dalğalanan lalələri dağda, düzəndə.

Dilbər günəşin al şəfəqi bayrağım olmuş,
Mir Mehdi, yaranmış yeni aləm bu vətəndə!

## SİRDAŞI OLSAM

Ey kaş, bu eyvanlı evin bir daşı olsam,
Tənha gecələr sevgilimin sirdaşı olsam!

Canan otağında görünür bir kaşı güldan,
Ey kaş, dönüb, mən də elə bir kaşı olsam!

Yar barmağına taxdığı almaz bir üzük var,
Arzum budur: almaz üzüyün mən qaşı olsam!

Yar şəklini təsvir eləməkçin nə olardı,
Behzad kimi öz yurdumuzun naqqaşı olsam!

Cananıma Mir Mehdi verəndə canı qurban,
Yarın yanağından süzülən göz yaşı olsam!

## SEVDİ KÖNÜL

Gözəl çox olsa da, nazəndə yarı sevdi könül,
Görüb vəfasını, dilbər nigarı sevdi könül.

Mənə gözəlliyi xatırladır çəməndə bahar,
Təbiətim belədir ki, baharı sevdi könül.

Baxıb bulaqlara, seyr elədikcə dağları mən,
Ürəkdə saflığı, bir də vüqarı sevdi könül.

Salır xəyalıma fəcrin qızıl şəfəqlərini,
Odur ki, vəcdə gəlib laləzarı sevdi könül.

Bu qardaş elləri, Mir Mehdi, mən gəzib deyirəm:
Səadət eşqinə xoş ruzigarı sevdi könül.

## SÖZ

Fikr aləminə söz kimi yetkin bəhər olmaz,
Dəryaları axtar, sözə bənzər göhər olmaz.

Söz əqlə məhək olduğuna söz ola bilməz,
Hər xəznəni gəz, söz kimi qiymətli zər olmaz.

Daşdan da keçər sözdə əgər olsa həqiqət,
Fikr olmasa, almaz kimi sözdə kəsər olmaz!

Mənalı sözü sadə gərək söyləyə, yoxsa –
Şairdə könül cəzb eləyən bir əsər olmaz.

Mir Mehdi, sözün qədrini bil, söz ələ düşməz,
Söz düşməsə dildən-dilə, sözdə əsər olmaz.



## SƏNSİZ

Saldı məni bu hicran fikrə, xəyalə sənsiz,
Qan doldu, bağrım oldu bir qanlı lalə sənsiz,

Sandım bulaq başında qəlbim duyar sərinlik,
Vulkan kimi göründü dağda şəlalə sənsiz.

Mey doldurub içəndə eşqin hərarətindən
Döndü yanar od oldu büllur piyalə sənsiz.

Gəl, nazlı sevgilim, gəl, baş qoy dizimdə dincəl,
Dözmək çətindir artıq çünki bu halə sənsiz.

Bülbül tək etdi nalə, bir yetmədi vüsalə,
Mir Mehdi verdi ömrü bir gün zəvalə sənsiz.

## ƏMR ETSƏ VƏTƏN

Şair olanın sinəsi ümman gərək olsun,
Hər söylədiyi ləl ilə mərcan gərək olsun.

Bir yerdə donub qalsa əgər, zirvələr aşmaz,
Uçmaqda xəyal bir iti tərlan gərək olsun.

Rütbənlə, vəzifənlə, calalınla öyünmə,
Həmdəm sənə ən sadə bir insan gərək olsun.

El dərdini duymaz elə biganə olanlar,
Hər arifə el zəhməti asan gərək olsun.

Mir Mehdi deyir: yurdumuzun aşiqiyəm mən,
Əmr etsə Vətən, can ona qurban gərək olsun.

## ƏHDİ OLMAZ

Xəzan dövrü baharın əhdi olmaz,
Gülün peymanı olmaz, əhdi olmaz.

Gülü görsə vəfasız dərdli bülbül,
Yetişməkçin vüsalə cəhdi olmaz.

Zəhərtək söz çıxanda gül dodaqdan,
Ona şan bal da qatsan, şəhdi olmaz.

Gözəllər yurdudur ölkəm, öyünmə!
Sənin tək dilbərin də qəhti olmaz.

Sənə aşiq olanlar çoxdur, amma –
Vəfadə hər yetən Mir Mehdi olmaz.

## DİLDƏN-DİLƏ DÜŞDÜ

Eşqin çəmənində nəzərim bir gülə düşdü,
Aşiqliyim ildən-ilə, dildən-dilə düşdü.

Güldükcə mənə nazlı gülüm, yandı həsəddən,
Döndü külə, əğyarın işi müşkülə düşdü.

Dəydikcə könül tellərinə mizrabı eşqin,
Nəğməm ucalıb pərdədə bəmdən zilə düşdü.

Eşqin dolanıb qafiləsi aşdı zamanı,
Axır gəlib hicran kimi bir mənzilə düşdü.

Mir Mehdi, gözümdə günəşin nuru qaraldı,
Yar getdi, gözümdən elə bildim gilə düşdü.



## ÜRƏYİMSƏN

Ey şanlı Bakı, varlığım, eşqim, ürəyimsən,
Səndən alıram mən işığı, göz bəbəyimsən.

Əs, oxşa gümüş saçlarımı, ey dəli xəzri,
Sən yurdumun üstündən əsən şən küləyimsən.

Coş, dalğalan, ey mavi Xəzər, arzularım tək,
Verdin qanad ilhamıma sən, xoş diləyimsən.

Ey yurdumuzun yaz günəşi, qəlbi isindir,
Sən köksümün üstündəki munis çiçəyimsən.

Mir Mehdi verər torpağına canını qurban,
Ey şanlı Bakı, varlığım, eşqim, ürəyimsən.

## SƏNDƏN

Yanıb eşq atəşində, görmədim bir an vəfa səndən,
Vəfalı aşiqə, canan, rəvamı bu cəfa səndən?

Məlahət mülkünün gülzarı sandım hüsnünü, amma –
Tikan gördüm o gülşəndən umub zövqi-səfa səndən.

O gündən ki, vuruldum, hüsnünə, göz açmadım bir an,
Nə afətsən ki, əskik olmayır cano bəla səndən.

Mənim bu qan olan könlüm əlac istərdi vəslindən,
Təbibim, nazəninim, görmədim lakin şəfa səndən.

Vəfasız yarə bənd olmaqda, Mir Mehdi, xəta etdin,
Xətadandır ki, əl çəkmir bəla səndən, xəta səndən.

## YAXŞI OLUR

Səhər-səhər gülün üstündə jalə yaxşı olur,
Qızıl şəfəq kimi dağlarda lalə yaxşı olur.

Bulaq da qəlbi açır, ruhu oxşayır, ancaq.
Məhəbbətim kimi coşqun şəlalə yaxşı olur.

Baharın eşqinə gəl badə qaldıraq bağda,
Əlində mey dolu gülgün piyalə yaxşı olur.

Sevimli yar boyunu sərvə bənzədim, olmaz:
O, məncə bənzəsə barlı nahalə, yaxşı olur.

Keçib axar su kimi yar gedəndə, Mir Mehdi
Deyir ki, getməsə ömrüm zəvalə, yaxşı olur.

## BÖYÜDÜB AŞİYAN MƏNİ

Eşqin yolunda sanma, gülüm, natəvan məni,
Yetdim vüsalə, gördü hamı kamran məni.

Yurdumda bir çinar kimi möhkəm dayanmışam,
Tufan qopanda da vura bilməz xəzan məni.

Bülbül kimi vurulmuşam öz aşiyanıma,
Qoynunda bəsləyib, böyüdüb aşiyan məni.

Keçmiş uşaqlığım nə qədər iztirab ilə,
Dövran verib qanad, yetiribdir zaman məni.

Yazdım gözəllər eşqinə, Mir Mehdi, mən qəzəl,
Sandı hamı iyirmi yaşında cavan məni.



## QARA GÖZLƏR

Yanlışdı səni bənzədim ulduzlara, gözlər,
Var hər baxışında yeni aləm, qara gözlər!

Gen dünyada saldın məni bir gün dara gözlər,
Yetməzdimi bu, sonra da çəkdin dara, gözlər!

Bir qəmzə ilə baxmağı öyrənməyə səndən
Ceyran dayanıb gündə gərək yalvara, gözlər!

Min dastana sığmaz o baxışlardakı məna,
Ceyran hara, bir söylə görüm, sən hara, gözlər!

Mir Mehdi deyir: neyləmişəm mən yara, gözlər?
Müjganı ilə qəlbimi etmiş yara gözlər.

## GÖZƏLİM YAR

Qurbanın olum, yanıma dur gəl, gözəlim yar,
Nazın kimi, ey söhbəti şirin məzəlim yar.

Güllər açılıb, bülbül ötür bağda, çəməndə,
Doldur qədəhi, mən də içim, bir düzəlim, yar,

Yüz min payız olsa, saralıb solsa çəmənlər,
Bir təzə baharam, mənim olmaz xəzəlim yar.

Tar telləri tək saçların olmuşsa pərişan,
Qəlb atəşi ilə onu oxşar öz əlim, yar.

Mir Mehdi deyir: xoşdur uçub gül dodağından,
Eldən-elə, dildən-dilə düşsün qəzəlim, yar.

## HƏR GÜNÜN HÖKMÜ VAR

İşrətə çox alışma dünyadə,
Sovurub verme ömrünü badə.

Gündə mey içmək eyləmə adət,
Çox içəndə zəhər olar badə.

Ayıq ol, hər zaman hünər göstər,
Ömrünü çox keçirmə röyadə.

Yaxşılıq eyləsən əgər, ellər –
Yaxşılıqla salar səni yadə.

Uyma, Mir Mehdi, şöhrətə əsla,
Ömrün olduqca gəz, dolan sadə.

## SEVDA DƏMİDİR

– Yatma, gülzarə ətir saç, bu nə röya dəmidir? –
Bülbül ahəstə gülə söylədi: – Sevda dəmidir.

Gül dedi: Eşqə düşənlər belə dalğın görünər,
Aşiqəm, indi mənimçin də bu xülya dəmidir.

Bülbülün qəlbi coşub söylədi: – Ey qönçə gülüm,
Dinlə xoş nəğməmi, bu bülbüli-şeyda dəmidir.

Meh əsib söylədi: – Bülbül necə sevməz gülünü,
Yaz gəlib, indi gülün bağçada rəna dəmidir.

Bir gözəl eşqinə, Mir Mehdi, yarat gündə qəzəl,
Gülür ilham pərisi, təbinin ola dəmidir.



## YARIM

Mey məclisi olsa, oturub üz-üzə yarım,
Ceyran kimi ətrafını hərdən süzə yarım.

Səf-səf düzülən kirpiyi pis gözləri yırtar,
Yüz bədnəzər olsa, yenə gəlməz gözə yarım.

Tar səsləri ətrafı sarıb ruhum uçanda,
Bir nazlı göyərçin kimi qalxıb süzə yarım.

Var qibtə ilə yarını yardan ayıranlar,
Uymaz, bilirəm, hər deyilən boş sözə yarım.

Mir Mehdi deyir: şad olaram nazlı baxışla,
Sevdaya düşən qəlbimi bir gün üzə yarım.

## GƏNCLİK ÖMRÜN YAZIDIR

Ömrünün dastanını hər gün hünərlə təzələ,
Qoyma sovrulsun həyatın yelə, dönsün xəzələ.

Gənclik ömrün yazıdır, gəncliyinin qədrini bil,
Gəldi ömrün qışı, axtarma, bahar düşməz ələ.

Kükrəyən dalğa kimi dönməz ömür bir də geri,
Çalış hər arzuna çat, hər işini sən düz elə.

Sevdiyin olsun ömür yoldaşı dünyada sənə,
Bədəsildən uzaq ol, uyma vəfasız gözələ.

Yazdığım hər qəzəlin fikrinə, mənasına bax,
Ey rəqibim, demə Mir Mehdi uyubdur qəzələ.

## MƏHƏBBƏT

Könül, bir dilbərin ol mübtəlası,
Səadətdi sənə eşqin bəlası.

Məhəbbətsiz həyatın zövqi olmaz,
Məhəbbətdən gəlir ömrün səfası.

Yanında olsa bir hal-əhli canan,
Sevincin, zövqün olmaz intəhası.

Səni incitsə bir nazəndə dilbər,
Yatar qəlbə onun cövrü-cəfası.

Əgər, Mir Mehdi aşiq olmasaydın,
Bilməzdi sənə ömrün bəqası.

## XOŞDUR

Hal əhli olsa canan, eşqin cəfası xoşdur,
Yarın gözəlliyindən, məncə, vəfası xoşdur.

Eşqin yanar odundan göz qalsa da ürəkdə,
Bir ney kimi yanıqlı şuri, nəvası xoşdur.

Bu doğru bir məsəldir, düz söyləyib ərənlər:
Sevda ilə həyatın zövqi, səfası xoşdur.

Nadanların həyatı röya kimi bir andır,
Ariflərə cahanda ömrün bəlası xoşdur.

Qolsuz, qanadsız olsa şair xəyalı uçmaz,
Mir Mehdi, sənətin də əngin fəzası xoşdur.



## ŞAİRANƏDİR

Mən sevdiyim gözəl o qədər şairanədir,
Hər söhbəti, sözü elə bil ki, təranədir.

Naz ilə baxsa bircə dəfə, yüz könül yıxar,
Bir ovçudur ki, vurduğu ov mahiranədir.

Amma nədənsə aşiqanə salmayır nəzər,
Bilmir ki, qəlbim eşq oxuna bir nişanədir.

Yarın görüşmək olsa əgər məqsədi, inan,
Könlüm yetər vüsalına, hicran bəhanədir.

Aşiq həmişə gördüyünü söyləyir bizə,
Mir Mehdi, düşdün eşqə, sözün aşiqanədir.

## ADƏT BELƏDİR

Adət belədir ki, gül edir bülbülə nazı,
Bülbül də edir bağda, çəməndə gülə nazı.

Canan o deyil yarə cəfa çəkdirə hər an,
Naz onda yatır qəlbə ki, canan bilə nazı.

Yar aldı mənim canımı bir nazlı baxışla,
Hər yerdə gəzir söhbəti, düşmüş dilə nazı.

Çəkdirdi mənə cövrü-cəfa sevgili dilbər,
Döndərdi mənim hər günümü bir ilə nazı.

Mir Mehdi, gileylənmə, döz hər cövrü-cəfayə,
Xoşdur mənə dərya ola yarın gilə nazı.

## GƏLİN KİMİDİR

Bahar gəlir, bəzənən bağçalar gəlin kimidir,
Çəməndə cilvələnən yasəmən, telin kimidir.

Səhər nəsimi əsib oxşadıqca saçlarımı,
Hərarəti sanıram mehriban əlin kimidir.

Qızılgülün budağında heyif tikan görürəm,
Deyərdim incəliyi, nazənin, belin kimidir.

Mənimlə nəğmədə gəl bəhsə girmə, ey bülbül,
Vəfadə sanma mənim sevgilim gülün kimidir.

Şirinsə, yar, sənə Mir Mehdinin əgər qəzəli,
Səbəb özünsən, o, qənddən şirin dilin kimidir.

## XƏZƏRİM VAR

Qəlbimdə məhəbbətlə dolu bir Xəzərim var.
Hal əhli olan dostlarıma xoş nəzərim var.

Mən olmamışam badə əsiri, meyə düşkün,
Arif kimi meyxanəyə hərdən güzərim var.

Sərxoşluq edib zəhlətökən eyləsə dəvət,
Yüz təntənəli məclisi olsa, həzərim var.

Hər hikməti öyrənmişəm arif atalardan,
Sözdür Göhərim, söz kimi min simu-zərim var.

Nadanlara, Mir Mehdi, bir an həmdəm olanda,
Günlərcə əziyyət çəkirəm, dərdü-sərim var.



## ETMƏ ŞİKAYƏT

Ey könlümü əyləncə edib oynadan afət,
Bir gün mənə rəhm eyləyəcəksənmi nəhayət?

Düşmən bizə cövr etsə, təəccüblü sayılmaz,
Dəhşətli olar dost eləsə dosta xəyanət.

Düz söyləyib ellər ki, vəfa umma gözəldən,
Daş qəlbli canan nə bilir mehrü-məhəbbət.

Gülzarı dolan, gülşəni gəz, gülləri seyr et,
Bir gül yaradıbdırmı tikansız bu təbiət?

Dostlar sənə, Mir Mehdi, sədaqətli deyirlər,
Canan nə qədər cövr eləsə, etmə şikayət.

## KAMALINDAN DANIŞ

Lalədən söhbət açanda incə xalından danış,
Gül qonaq gəlmiş bağa, dilbər camalından danış.

Bülbülün bir gül fəraqında görüb əhvalını,
Aşiqin hicran günü pəjmürdə halından danış.

Sevginin ancaq vüsalı xoş olur aşiqlərə,
Açma hicran dərdini, eşqin vüsalından danış.

Düşsə də min bir xəyalə vəsl üçün şeyda könül,
Yarın öyrən fikrini, sonra xəyalından danış.

Çox sənəmlər var, könül cəzb eyləyir, Mir Mehdi, gəl
Hər gözəl vəsf eyləsən, əvvəl kamalından danış.

## NAZI GÖZƏLDİR

Naz etməyi yar bilsə əgər, nazı gözəldir,
Aşıqlarımın söhbəti xoş, sazı gözəldir.

Hər nəğmə olur qəlbimizin əksi-sədası,
Canan oxusa nəğməni, avazı gözəldir.

Dilləndirə zövq əhli əgər tarı, kamanı,
Çargahı gözəl, seygahı, şahnazı gözəldir.

Var başqa məlahət bu gecə məclisimizdə,
Saqilik edən dilbəri-tənnazı gözəldir.

Mir Mehdi deyir: seyrə çıxaq bağda, çəməndə,
Güllər açılıb, yurdumuzun yazı gözəldir.

## HANSI BAHARIN GÜLÜSƏN?

Hansı yaz mövsümünün, hansı baharın gülüsən?
Nə lətafətli gözəlsən, nə qədər sevgilisən!

Dilinin altına qənd qoymuş uşaqlıqda anan,
Yoxsa öyrənməz idin, yar, belə şirin dili sən.

Günəş axşam batır, ay gündüz işıqsız görünür,
Şəfəqinlə bəzəyirsən gecə-gündüz eli sən.

Bir deyil, on deyil aşiqlərin, aç gur saçını,
Etmisən gör necə zəncir kimi nazik teli sən.

Bülbülün nəğməsi tək şən görünür hər qəzəlin,
Sən də, Mir Mehdi, bu Azər elinin bülbülüsən.



## CANANƏ DEDİ

Sevdi dildarı könül, eşqini cananə dedi,
Duymadı qəlbimi canan, mənə biganə dedi.

Yandı pərvanə oda bir dəfə, könlümsə mənim
Şam kimi gündə yanır, kim ona pərvanə dedi.

Var bizim eldə yüz hikmət dolu mənalı əsər,
Kim baxıb xalqımızın şerinə dürdanə dedi.

"Şairəm" söylədi hər qafiyəpərdazlıq edən,
Duymadı sənəti, xalqı, necə əfsanə dedi.

Xoşuna gəlmədi namərdlərin amma bu sözü,
Çünki Mir Mehdi sözü hər kəsə mərdanə dedi.

## CANAN

Ey vəsli könül dərdlərimin çarəsi canan,
Oldum o xumar gözlərin avarəsi, canan.

Göz üstə qaşın var deməyə cürətim olmaz,
Var sinədə xəncər qaşının yarəsi, canan.

Hüsnün günəş olmuşdur onun cazibəsindən,
Vəsl aşiqi bu qəlb evi, səyyarəsi canan.

Sən vədə verib vəslini, peymanı unutdun,
Baxdım yola, getdi gözümün qarəsi, canan.

Gəl vəslin ilə aşiqinin könlünü şad et,
Mir Mehdinin, ey qəlbi, ciyərparəsi, canan!

## MUĞAN

Muğanın göyləri atlaz, yeri yüz rəngli çiçək,
Gəl məhəbbət qədəhindən bu çəmənlərdə içək.

Mən bu ceyran kimi cananlara yüz nəğmə qoşum,
Sən də, rəssam, götür öz fırçanı ceyranları çək.

Kürdə öz əksini gördükcə söyüdlər sevinir,
Söyləyir: güldü Muğan, burda bizimdir gələcək.

İndi quşlar da, küləklər də gəlib vəcdə, deyir:
Ovçular yox, bu düzənlərdə gözəllər gəzəcək.

Düşdü sevdaya könül, gördü gül açmış Muğanı,
Burda, Mir Mehdi, dolan, hər çiçəyin ətrini çək.

## BİR GÖZƏL SEVDİM

Bir gözəl sevdim bu gün, düşdüm dilaram eşqinə,
Oldu ahu tək könül cananımın ram eşqinə.

Göz görüb könlüm sevəndən qalmadı məndə qərar,
Aşiqin canan gərək versin sərəncam eşqinə.

Saçları oldu pərişan ay üzündə yarımın,
Gündüzü tərk eyləyib, düşdü könül şam eşqinə.

Badədən bir nəşə almazdım əgər yar olmasa,
Yar olan yerdə gərək mən qaldırım cam eşqinə.

İndi şadlıq dövrüdür, hər yan olubdur laləzar,
Qaldıraq gəl badəni, Mir Mehdi, əyyam eşqinə.



## EŞQİMİ İSBATƏ NƏ HACƏT!

Öz inci tərimdən yetər olsun bar əlimdə,
Sanmam ki, böyük dağ kimi qüdrət var əlimdə.

Şahin kimi eşqin ucalan zirvələrində
Pərvaz elədim, oldu rəqibim sar əlimdə.

Bir yaz səhəri seyrə çıxaq bağçaya birgə,
Yar zümzümə etsin, mənim olsun tar əlimdə.

Dəysin dodağım gül dodağa, qibtədən əğyar –
Eşqim gül açanda dönüb olsun xar əlimdə.

Mir Mehdi deyir: eşqimi isbatə nə hacət!
Könlüm kimi yüz parə vəsiqəm var əlimdə.

## CANAN ƏLİNDƏN

Nələr çəkdim, nələr, canan əlindən,
Sitəmlə könlüm oldu qan əlindən.

Yüz hikmət sahibi, arif cahanda
Düşər yüz dərdə bir nadan əlindən.

Təbibin duymasa dərdi dərindən,
Alıb içmə onun dərman əlindən.

Qənimət bil vüsalı, xoş ömür sür,
Buraxma fürsəti bir an əlindən.

Vüsalə yetmisən, Mir Mehdi, bəsdir,
Şikayət eyləmə hicran əlindən.

## DEYİRLƏR

Eşq əhli mətanətli bir insandı deyirlər,
Aşiqdə vəfa olmasa, nöqsandı deyirlər.

Bir dilbəri sevdim, onu məclisdə görənlər
Çox qibtə ilə: gör necə cavandı deyirlər.

Tök saçlarını çiyninə, ey gözləri şəhla!
Tel onda gözəldir ki, pərişandı deyirlər.

Yar, saçlarının məskəni olmuşsa əzəldən,
Bir şanə kimi qəlb evi şan-şandı deyirlər.

Yar getdi, daha vəslinə yoxdur bir ümidin,
Mir Mehdi, sənin qismətin hicrandı deyirlər.

## DEDİM DEDİ

Dedim: şirindi şəkərdən dodaqların, ey yar.
Dedi: şəkər nədi, mən qəndi etmişəm inkar.

Dedim ki, hər nə qədər cövrün olsa, xoşdu mənə.
Dedi: qalıbmı məyər səndə cövrə səbrü-qərar?

Dedim ki, ovlayaram qəlbini göyərçin tək,
Dedi ki, qartalam, oldun mənim əlimdə şikar.

Dedim: görən niyə heyran olur gözəlliyinə?
Dedi: təbiət edib hüsnümü çox əfsunkar.

Dedim ki, eşqinə Mir Mehdi düşdü, yandı oda,
Dedi: danışma, bilər halını, gülər əğyar.



## GÜL FƏSLİ OLA

Gül fəsli ola, bağçada bir sevgili canan,
Bir ney çalan olsun, mən olum, bir də qəzəlxan.

Ney səsləri ətrafa uçub qəlb ovudanda,
Canane deyim: badə ver, ey gözlərə qurban!

Əllərdə şəfəq dalğalı gülgün mey olanda,
Bir şur oxuna, vəcdə gəlim şur ilə bir an.

Qəm qafiləsi qəlbimə yol tapmasın əsla,
Kam almalıyam zövq ilə, gülmüş mənə dövran.

Şənlikdə keçir ömrünü, Mir Mehdi, cahanda,
Bir dəfə gəlir, dönməyəcək aləmə insan.

## OLMUR MƏNİM QƏRARIM

Hicran günü əlimdə olmur mənim qərarım,
Dildə sənin adındır, qəlbimdə ahü-zarım.

Sənsiz gözümdə solğun bağlarda yasəmənlər,
Ey gül yanaqlı dilbər, sənsən gülüm, baharım.

Hicran xumarı salmış artıq məni ayaqdan,
Yetsəm vüsalə, canan, qalmaz mənim xumarım.

Gəl qaldıraq piyalə, çatsın könül vüsalə,
Daşsın ürək sevincim, ey nazənin nigarım!

Mir Mehdini görəndə qaçsan da çox uzaqdan,
Bir gün olar, nəhayət, qəlbin mənim şikarım.

## NƏZƏR ETMİR

Yarım nə üçün halıma bir an nəzər etmir,
Daşdan yaranıb qəlbi ki, naləm əsər etmir?

Şimşək kimidir, şölə verib daş dələr ahım,
Yar qəlbi poladdanmı ki, ahim kəsər etmir?

Canan ilə bir yerdə keçirdi günümüz şən,
İndi niyə viranəmə bir an güzar etmir?

El tənə vurur yarə ki, biganəyə uymuş,
El tənəsi ağırdı, neçün yar həzər etmir?

Hicran günü, Mir Mehdi, edirsən elə tüğyan –
Yüz xəzri əsib dalğalananda Xəzər etmir.

## GÖZƏL

Nə batmısan yenə sən qüssəyə, məlalə, gözəl?
Bəzə bu məclisi, gəzdir büllur piyalə, gözəl.

Çəməndə gül açılıb, yasəmən gülür bağda,
Dolubdu şehlə səhər, dağ döşündə lalə gözəl.

Unut keçib gedəni, gəl bu gün bərabər olaq,
Nə tutmusan məni bu sorğuya, sualə gözəl?

Təbiətin belədir adəti: nə versə, alır,
Öyünmə hüsnünə, bir gün gedər zəvalə, gözəl.

Gözəldə qəlb ara, Mir Mehdi, uyma hər sənəmə,
Gözəllik azdı, yetişsin gərək kəmalə gözəl.



## KAMANIMLA TARIM VAR

Qəlb oxşamağa incə kamanımla tarım var,
Yüzlərlə könül cəzb eləyən nəğməkarım var.

Könlüm açılır gül kimi el nəğmələrindən,
"Mahur" yaradıb, "Şur" yaradıb el, "Qatar"ım var.

Zabul oxunanda deyirəm: xalqıma əhsən,
Bir sən elə bax, gör nə böyük bəstəkarım var!

Sənət yaşayır olsa həyat aləmi fani,
Sənətlə həyat aləmində etibarım var.

Şənlikdə, təravətdə bahar ilə ekizdir,
Mir Mehdi, ömür şən keçəcək, şən baharım var.

## RƏNA PƏRİ

Al dodaqlı, gül yanaqlı, gözləri şəhla pəri,
Aşiqə cövr eyləyib göstərmə istiğna, pəri.

Al geyəndə bənzəyirsən dağda açmış laləyə,
Hansı güldür sən kimi qəlb oxşayan, rəna pəri.

Çıx çəmənlər seyrinə, saç ətrini gülşənlərə,
Hüsnünü vəsf eyləsin bülbülü-şeyda, pəri.

Bir gülüşlə, bir baxışla aldın əldən səbrimi,
Gəldi hicran, vəslin oldu sonra bir xülya, pəri.

Göz vurub, sevdi könül, Mir Mehdi oldu aşiqin,
Qoyma yüz sevdaya salsın qəlbini sevda, pəri.

## QARDAŞ KİMİ ELLƏRDƏ

Qardaş kimi ellərdə bir ülfət görürəm mən,
Hər millətə xalqımda məhəbbət görürəm mən.

Yerdən qoparır dağları gənclik hünəriylə,
Gənclərdə böyük dağ kimi qüdrət görürəm mən.

Aydan ləkəsiz qəlbi təmiz qızlarımızda
Gül yarpağına bənzəyən ismət görürəm mən.

Yüz il yaşayan fikri açıq, şən qocalarla
Hər söhbət edəndə yeni hikmət görürəm mən.

Mir Mehdi, Vətən torpağını seyr elədikcə,
Könlüm açılır, gül kimi nemət görürəm mən.

## HƏR KÖNÜL

Hər könül bir gözəlin eşqinin avarəsidir,
Məni sevdaya salan gözlərinin qarəsidir.

Gəlsə yüz loğman əgər dərdimə etməz bir əlac,
Nazlı canan dodağı dərdlərimin çarəsidir.

Qəlbinə söz əsər etmir nə qədər olsa gözəl,
O, dəmirdən yaranıb, yoxsa ki, daş parəsidir?

Boyuna sərvü sənubər deməyim, yanlış olar,
Sərvdən xoşdur, o bağın uca fəvvarəsidir.

Səni Mir Mehdi sevib eşqə düşəndən, gözəlim,
Hüsnünün bir əbədi sabiti-səyyarəsidir.



## HİKMƏTƏ BAX!

Ey könül, dərk elə, bu aləmi-ülviyyətə bax,
Gör təbiətdə gözəllikləri bir, zinətə bax!

Hər qızılgül açılır, ətri verir ruhə qanad,
Gəl çəmənliklərdəki mənə dolu şeriyyətə bax!

İncə dilbər dodağından yaranan qönçəni gör,
Qara torpaqdakı əsrarı düşün, hikmətə bax!

Bu qızıl lalə sevən bir gözəlin qəlbi olub,
Gör zərif yarpağını, qəlbdə olan riqqətə bax!

Vermə, Mir Mehdi, vəfasızlara aləmdə könül,
Sən gözəllərdə gözəl qəlb ara, ünsiyyətə bax!

## ZƏHMƏTİMİZLƏ

Gündən günə dünya dəyişir zəhmətimizlə,
Hər gün yeni aləm yaranır sənətimizlə.

Səhraları dərya eləyib, düzləri gülşən,
Yüzlərlə şəhər salmışıq öz qüvvətimizlə.

Ulduzları fəth eyləyirik, biz aya getdik,
Öz əlimiz, öz əzmimiz, öz qüdrətimizlə.

Xalqlarla yaxın dostluq olub arzumuz ancaq,
İnsanlığa xidmət edirik niyyətimizlə.

Mir Mehdi deyir: keçsə yüz illər, bizi aləm –
Yad eyləyəcəkdir əbədi şöhrətimizlə.

## DÜŞMƏ SEVDAYƏ

Könül, bu bivəfalardan götür əl, düşmə sevdayə,
Vəfa umma gözəllərdən, qapılma hisso, xülyayə.

Gözəllər bivəfalıq dərsi almışdır təbiətdən,
Salır aşiqləri canan həmişə güclü qovğayo.

Sənəmlər, nazəninlər zövq alır aşiq cəfa çəksə,
Bizə cövr eyləməkçin gəldi cananlar bu dünyayə.

Məhəbbət qorxulu səhrayə bənzər, hər yetən aşiq –
Keçib candan, uyub cananə gəlməz ki, o səhrayə.

Şikayət etmə, Mir Mehdi, coşur dərya kimi eşqin,
Cəfa yağsa yağışlar tək, əsər eylərmi dəryayə?

## BİR GÖZƏLƏ YÜZ QƏZƏL

Dostlar, deməyin: bir gözələ yüz qəzəl olmaz,
Mən sevdiyim afət kimi dilbər gözəl olmaz.

Səpsəm onun ətrafına öz şerimi gül tək,
Qış mövsümü tufan qopa, şerim xəzəl olmaz.

Eşq aləmi bir öylə fəza ki, sonu yoxdur,
Göylər kimi sevdadə əbədlə əzəl olmaz.

Könlündə ola qəm buludu seyrə çıxanda,
Gül fəsli çəmənlərdə gözündə gözəl olmaz.

Mir Mehdi, qəzəl yazmağa ustad gərək olsun,
Hər qafiyəsi, vəzni olan söz qəzəl olmaz.



## SƏNİNLƏ

Səninlə bağçada güllər gülür mənim üzümə,
Sən olmasan, görünər gül xəzan kimi gözümə.

Gedəndə sən, gözəlim, qəlbimin təvanı gedir,
Səninlə dağ kimi qüvvət gəlir mənim dizimə.

Vüsalə yetmək üçün dağları aşıb gələrəm,
Əgər min afət ola, min bəla düşə izimə.

Məhəbbətin ürəyimdə, adın dilimdə gəzir,
Yar, odlu qəlbimi yar, bax, inanmasan sözümə.

Vüsalə yetməyə, Mir Mehdi, çox ümidim var,
Ümid ilə verirəm mən təsəlli öz-özümə.

## ZƏHMƏT BÖYÜK ŞƏRƏFDİR

Arif olan keçirməz ömrü, günü hünərsiz,
Yüzillik ömrü olsa, nadan gedər xəbərsiz.

Bədbinlərin həyatı bir an da qəmsiz olmaz,
Xoşbəxt odur cahanda ömrü keçir kədərsiz.

Nacinsə həmdəm olsan, sancar səni həmişə,
Aydındı bu həqiqət: olmaz ilan zəhərsiz.

Qorxmaz cəsur xətadan, lakin xətayə düşməz,
Uysan xətayə, keçməz ömrün, günün xətərsiz.

Mir Mehdi, dövrümüzdə zəhmət böyük şərəfdir,
Qalmaz bizim zamanda bir zəhmətin səmərsiz.

## YAR SINDI

El vəfasız dedi, yarı qınadı,
Atmadı körpə kimi yar inadı.

Dedi canan mənə çox iynəli söz,
Oldu şan-şan yenə bağrım, qanadı.

Məni incitsə də dilbər gözəlim,
Sınmaz ilhamımın əsla qanadı.

Min pəri gəlsə, mənə versə könül,
Hamısı bir yana, yar bir yanadı.

Yenə öz könlünü qaytardı mənə,
Çünki, Mir Mehdi, məni yar sınadı.

## PƏRİZADƏ DEYİN

Məni sevdayə salan nazlı pərizadə deyin,
O keçən dəmləri salsın nə olar yadə, deyin.

Bir zamanlar o mənim könlümü almışdı ələ,
Vermiş öz könlünü indi nə üçün yadə, deyin.

Sanmasın qəlbimi sındırmağı canan bir hünər,
Yaxşılıq yaxşıdır ancaq qoca dünyadə, deyin.

Soldurur hər çiçəyi, hər gülü bağlarda xəzan,
Biz də bir gün solarıq, sovrularıq badə, deyin.

Ayrılıb getsə də canan, o vəfasız gözəli –
Heç unutmaz yenə Mir Mehdi Seydizadə, deyin.



## NAZLI YARIMIZ

Olsa əgər uzaq gözümüzdən nigarımız,
Bir an könüldə qalmayır əsla qərarımız.

Güllər baharda cilvələnir, xoş ətir saçır,
Lakin həmişə xoş görünür nazlı yarımız.

Uydu rəqibə yar, bizə dağ çəkdi, bilmədi –
Var qəlbimizdə dağ kimi möhkəm vüqarımız.

Gah mehriban olur bizə yar, gah küsür gedir,
Canana də ömür kimi yox etibarımız.

Yarsız keçən zamanı ömürdən sayarmıdıq, –
Mir Mehdi, olsa əldə əgər ixtiyarımız?

## ÖYRƏN

Sərxoşların əhvalını meyxanədən öyrən,
Mey cilvəsini mey dolu peymanədən öyrən.

Aqilsən əgər qəlbinə qəm-qüssə buraxma,
Azadə ömür sürməyi fərzanədən öyrən.

Pərvanə yanıb şam oduna, döndü kül oldu,
Eşq atəşinə yanmağı pərvanədən öyrən.

Bülbülləri gör bağda, çiçəklikdə, çəməndə,
Bayquşdakı miskinliyi viranədən öyrən.

Namərdlərə, Mir Mehdi, boyun əymə cahanda,
Mərdanəliyi, dostluğu mərdanədən öyrən!

## VƏTƏNİMDƏ

Gəzib mənim vətənimdə, dolan, hər adətə bax,
Bu qardaş elləri gör, dostluğa, səadətə bax.

Girəndə hər evə bir Hatəmi gətir nəzərə,
Açıq ürəklərə, dərya qədər səxavətə bax.

Dolan şəhərləri, gəz kəndləri məhəbbət ilə,
Çalışqan elləri gör, sənətə, məharətə bax.

Gözəllər ölkəsidir, sevgi yurdudur vətənim,
Gözəllərimdəki saf qəlbi gör, lətafətə bax.

Gir odlu qəlbinə Mir Mehdinin, sən ay gözəlim,
Məhəbbətinlə yanan gün kimi hərarətə bax.

## QƏLBİM SƏNİ İZLƏR

Tufan kimi eşqindən əgər coşsa dənizlər,
Qərq olsa da yelkən kimi qəlbim, səni izlər.

Afət yaranıb qəlb evini yıxmağa eşqin,
Ən qorxulu afət, ona qəlb eşqini gizlər.

Gəz sinəmin üstündə, sən ey afəti-dövran,
Qəlbimdə uzun xatirə qalsın dərin izlər.

Eşq öylə günəşdir ki, onun zərrələrindən
Bir anda olur lalə kimi incə bənizlər.

Eşqin – o böyük qüdrətin əfsununa qarşı,
Mir Mehdi, bükülmüş nə qədər dağ kimi dizlər.



## HİCRİNDƏ DÖNÜB

Hicrində dönüb qan dolu peymanəyə könlüm,
Sənsiz həvəs etməz meyə, meyxanəyə könlüm.

Yaz mövsümünün gülşəni tək şən görünərdi,
Döndü niyə indi belə qəmxanəyə könlüm?

Abad şəhərlər kimi hər qəlbi açardı,
Yar getdi, dönüb gör necə viranəyə könlüm!

Bir dilbərin eşqilə yanar, yüz gülə qonmaz,
Dönməz dolanan bağdakı pərvanəyə könlüm.

Əğyarə uyub yar, məni tərk etdi, deyirlər,
Mir Mehdi, uyarmı belə əfsanəyə könlüm?

## ƏSRARINI DUYSAN

Göylər nə qədər olsa dərin, yol tapır insan,
Boşluqda gəzir, hər yanı seyr eyləyir asan.

Mavi göyə bənzər o gözəl gözlərə, amma –
Könlündə qərar qalmaz əgər bir dəfə baxsan.

Ulduzlar axıb boşluğa hərdən süzüləndə,
Gəlmir bu geniş aləmə bir zərrəcə nöqsan.

Bir an süzülüb naz ilə ətrafa baxanda,
Min qəlb evini gözlər edir torpağa yeksan.

Mir Mehdi, olardın bütün hikmətlərə vaqif,
Mənalı, gözəl gözlərin əsrarını duysan.

## ŞAİRANƏ OLA

Könül dilər ki, o gur saçlarında şanə ola,
Vüsalə yetmək üçün bəlkə bir bəhanə ola.

Süzüb baxanda göyərçin kimi baxışlarını,
Könül hədəf kimi kirpiklərə nişanə ola.

Bulaq başında sənə qəlbimi açanda səhər,
Coşan sular nə olur eşqimə tərانə ola!

Min il keçincə bitib torpağımda bir lalə,
Yanıqlı qəlbimə aləmdə bir nişanə ola.

Gözəl çox olsa da, Mir Mehdi, varmı öylə gözəl,
Duyub məhəbbətini, qəlbi şairanə ola?

## ŞÖHRƏTİ VARDIR

Dünyada gözəl yurdumuzun şöhrəti vardır.
Qardaş kimi ellərçin onun xidməti vardır.

Sülhün dayağı olmalıdır hər nəcib insan,
İnsanın hər insanla gözəl ülfəti vardır.

Ariflərin hər yerdə olur qiyməti, qədri,
Məclisdə könül cəzb eləyən söhbəti vardır.

Xoş gün də, səadət də olur zəhmətə bağlı,
Zəhmət sevən insana elin hörməti vardır.

Mir Mehdi, sevir, sənəti şeri bizim ellər,
Sənətdə həyatın nəfəsi, hikməti vardır.



## VƏSL İSTƏDİ

Vəsl istədi könlüm, dedi: canan gecə gəlsin,
Döz dərdinə gündüz, dərman gecə gəlsin.

Çökmüşdü gecə, gizlincə gəldi bizə canan,
Adət belədir: yar bizə mehman gecə gəlsin.

Yarın yetişib vəslinə, şövq ilə düşündüm;
Çıxsın bədənimdən bu şirin can, gecə gəlsin.

Gördüm qızarır göydə şəfəqlər, dedim, ey gün,
Sən çıxma üfüqdən, məhi taban gecə gəlsin.

Gündüz yenə həmdəm tapılar hər necə olsa,
Vay halına, Mir Mehdi ki, hicran gecə gəlsin.

## SEVGİLİ DİLDAR

Çıxdıq çəmənə seyrə o gün, sevgili dildar,
Gördük bəzənib nazlı bir afət kimi gülzar.

Quşlar oxuyur nəğmə, sular rəqsə gəlibdir,
Ney səsləri tək qəlbi açır vəcd ilə ruzgar.

Güldən zərif ağ əllərini ovcuma aldım,
Qəlbimdə qanadlandı şirin arzular, ey yar!

Biz bir söyüdün kölgəsi altında dayandıq,
Etdim sənə könlümdəki saf eşqimi izhar.

Mir Mehdiyə sevda günəşi güldüyü anda,
Od tutdu həsəddən, bizi seyr eylədi əğyar.

## EŞQ ATƏŞİNƏ DÜŞDÜ

Eşq atəşinə düşdü, gərək odlana qəlbim,
Qəndil kimi cananın əlində yana qəlbim,

Hicranı gərək xatirimə salmaya əsla,
Min zövq ilə xoş gün kimi vəsli ana qəlbim.

Yar körpə kimi şıltaq olub naz eləyəndə,
Hər cövrü-cəfayə dözən olsun ana qəlbim.

Ən qüssəli anımda mənim həmdəmim olmuş,
Düşməz nə qədər dərdim ola həycana qəlbim.

Mir Mehdi deyir: yar məni çox incidir, axır –
Bir gün dönəcəkdir qana qəlbim, qana qəlbim.

## GÖRÜNÜR

Dedim: hicrində könül zarü pərişan görünür;
Dedi: vəsl istəmə, qismət sənə hicran görünür.

Dedim: ey nazlı dodağından mənə bir busə, gözəl;
Dedi: qəlbində onunçun belə tufan görünür.

Dedim: gül dodağından mənə bir busə, gözəl;
Dedi: sus, azma yolundan, arada qan görünür.

Dedim: eşqində sənin gör nə qədər dərd çəkirəm;
Dedi: aşiqlər, yar cövrü də asan görünür.

Dedim: hicran qəminin çarəsini kimdən alım?
Dedi: Mir Mehdi, vüsalım sənə dərman görünür.



## GÜLÜŞÜNDƏN

Güllər açılır bağçada, bağda gülüşündən,
Min lalə gülər şövq ilə dağda gülüşündən.

Bülbül səni gülşəndə gülən görsə, əminəm –
Cəh-cəhlə gülər bağda, budaqda gülüşündən.

Gəldin, gəlişindən keçən ömrüm geri döndü,
Sandım ki, günəş güldü otaqda gülüşündən.

Güldün, elə bildim ki, qızılgüllər açıldı
Gül yarpağı tək təzə buxaqda gülüşündən.

Mir Mehdiyə bəxt ulduzu güldü, gözəlim yar,
Şəkər kimi dad qaldı damaqda gülüşündən.

## KÖNLÜMÜN NƏĞMƏLƏRİ

Lalə üzlü gözəlim, sərvi-xuramanımsan,
Hüsnünün aşiqiyəm, sevgili cananımsan.

Edərəm, min canım olsa, bir işarənlə fəda,
Səndən ayrılmaz ürək, çünki şirin canımsan.

Harda olsam, yenə də səmtinə meyl eyləyərəm,
Bir kiçik dalğayam eşqində, sən ümmanımsan.

Könlümün nəğmələri, şeri coşur eşqinlə,
Mən sənin bülbülünəm, qönçəyi-xəndanımsan.

Səni Mir Mehdi bir an görməsə, min dərdə düşər,
Qəlbimin taqətisən, dərdimə dərmanımsan.

## GÜLZARI YETƏR

Həqiqi aşiqə öz sevdiyi nigarı yetər,
Vəfalı həmdəmi, nazəndə gülüzarı yetər.

Baharda sevgili canan ilə bərabər olaq,
Bizə söyüdlü çəmən, bir də çay kənarı yetər.

Xəzan rəqibimin olsun, kədərlə yoxdur işim,
Mənə təbiətin ancaq gözəl baharı yetər.

Bizim şüarımız ellərlə dostluq olmuşdur,
Cahanda hər elə öz yurdu, öz diyarı yetər.

Bu odlar ölkəsi, Mir Mehdi, fəxrimizdi bizim,
Bizə böyük vətənin şanlı iftixarı yetər.

## FƏRAQIN ATƏŞİNƏ

*Böyük şairimiz Füzulinin xatirəsinə*

Alışdı şam kimi könlüm fəraqın atəşinə,
Yanıb səməndərə döndü çirağın atəşinə.

Yetəndə vəslinə bir odlu busə aldım mən,
Tutuşdu, yandı dodağım dodağın atəşinə.

Gələndə sən bağa, bülbüllər od tutub yandı
Qızıl şəfəq kimi əlvan yanağın atəşinə.

Büllur qədəhləri gəzdirdi saqi məclisdə,
Əlim alışdı o gülgün əyağın[1] atəşinə.

Füzulini oxu, Mir Mehdi, gör İraqda necə:
– Vətən, Vətən, – deyə yandı fərağın atəşinə.

---

[1] Qədəh



## ELƏ GÜL BAĞDA TAPILMAZ

Xoşbəxt o deyildir uca kəşanəsi olsun,
Xoşbəxt odur sevgili cananəsi olsun.

Eşqin bizə dastanları xoş gəlmiş əzəldən,
Ya olsun həqiqət, ya da əfsanəsi olsun.

İnsanə cahan xoş görünər qəlbi şən olsa,
Üz gülməz əgər qəlb evi qəmxanəsi olsun.

Sərxoşluğa adət edənin heç gözü doymaz, –
İstər iki yüz mey dolu peymanəsi olsun.

Mir Mehdi, sevibsən elə gül, bağda tapılmaz,
Qəlbin sənin istər dəli, divanəsi olsun.

## OLDU HÜSNÜN GÜLŞƏNİM

Oldu hüsnün gülşənim, eşqin çəmənzarım mənim,
Aldın əldən ixtiyarım, olmadın yarım mənim.

Könlümü cəzb eylədin, düşdüm bəlayi eşqinə,
Neyləyim, sən olmadın bir gün də dildarım mənim.

Mən cəfa çəkdim, nəsibim oldu lakin ayrılıq,
Sürdü vəslindən səfa, şad oldu əğyarım mənim.

Nazını çəkdikcə ürəkdən vəhşi bir ahu kimi,
Bivəfasan, olmadın bir an havadarım mənim.

Sevdi bir gül üzlünü, Mir Mehdi, bu şeyda könül,
Gül kimi təbim açıldı, oldu gülzarım mənim.

## QƏMƏ DƏYMƏZ

Uyma elə sevdayə ki, qəm-qüssəsi vardır,
Yüz dərdə salan aşiqi sevda, qəmə dəyməz.

Yüzlərlə qədəh dostu əmin ol ki, cahanda –
Tək bircə ürək dostu olan həmdəmə dəyməz.

Yüz boşboğazın söhbəti bir möhkəm ağızlı
Əsrarını yaddan qoruyan məhrəmə dəyməz.

Yüz düşmən ola sinəni mərdçün süpər etsən,
Namərdin ona vurduğu xəncər qəmə dəyməz.

Yüz ulduzu gəzsək, iki yüz aləmi görsək,
Mir Mehdi, bizim qurduğumuz aləmə dəyməz.

## QARTAL KİMİ

Yar, gəlsən əgər məzarım üstə,
Xoşdur mənə, gəz qubarım üstə.

Cananıma sadiqəm həmişə,
Ölsəm də öz etibarım üstə.

Solmaz nə qədər xəzan da gəlsə,
Güllərlə dolu baharım üstə.

Qartal kimiyəm, rəqib gələndə
Vurram onu mən şikarım üstə.

Can qoymağa hazıram həmişə,
Mir Mehdi, gözəl diyarım üstə.



## AY GÖZƏLLƏR GÖZƏLİ

Ay gözəllər gözəli, söhbəti şirin, məzəli,
Sənin eşqinlə gəlib vəcdə, yaratdım qəzəli.

Çox gözəl gördü gözüm, uymadı könlüm telinə,
Xoşdur insanə də novbar kimi eşqin əzəli.

Küsmərəm bəxtimə, etsən mənə yüz cövrü-cəfa,
Yaradır taleyi insanın, əzizim, öz əli.

Səni kim görsə, könül verməsə, yox onda könül,
Kim düşüb eşqinə sevməz belə dilbər gözəli?

Odlu Mir Mehdinin ilhamı daşan çay kimidir,
Yüz xəzan gəlsə də, gəlməz hələ ömrün xəzəli.

## VƏTƏNİMSƏN

Eşq aləminin qumrusuyam, yar, çəmənimsən,
Bir bülbülünəm, ətri gözəl yasəmənimsən.

Min lalə alıb rəngi zərif, al yanağından,
Ey afəti-can, dilbəri-simin bədənimsən.

Min fitnə ilə aldada bilməz səni əğyar,
Sən qəlbimin aramisən, ey yar, mənimsən.

Yanlışdı sənə ruh deyim, ey nazlı nigarım,
Sən sinədə çarpan ürəyim, cismü tənimsən.

Mir Mehdini kim ayrı salar öz vətənindən,
Ey Azər eli, sən vətənimsən, vətənimsən!

## KÖNLÜM SƏNİ YAD EYLƏYİR

Görsə hər dilbər gözəl, könlüm səni yad eyləyir,
Könlümü vəslin ümidi hər zaman şad eyləyir.

Aşiqə nöqsan deyil hicran günü dərd çəkməyi,
Bir gülün eşqiylə bülbül gündə fəryad eyləyir.

Ey deyən: könlüm evi viranə qaldı eşqdən,
Sevgi bir memardır, hər qəlbi abad eyləyir.

Sanma hər aşiq dözər nazəndə yarın cövrünə,
Çoxları canan əlindən dərd çəkib, dad eyləyir.

Nazlı bir dildarə ver, Mir Mehdi, şeyda könlünü,
Aşiqi dünya qəmindən sevgi azad eyləyir.

## NAZ İLƏ BİR BAXMAĞI YARIN

Mən zövq alıram qəlbi açıq sadə gözəldən,
Yüz nəşə gəlir xatiri-azadə gözəldən.

Yoxdur meyə meylim o qədər də mənim, amma –
Könlüm mənə əmr eyləyir: al badə gözəldən.

Tufan qopa, eşqində mətanətlə dayannam,
Çox şad olaram getsə könül badə gözəldən.

Könlüm quşu pərvaz elədi can qəfəsindən,
Düşdükcə keçən xatirələr yadə gözəldən.

Dünyaya dəyər naz ilə bir baxmağı yarın,
Mir Mehdi, gözəl varmı bu dünyadə gözəldən?



## HƏYAT ALƏMİNİ

Sevirəm odlu ürəklə bu həyat aləmini,
Qoymuram qəlbimə yol tapmağa dünya qəmini.

Vermişəm könlümü bir dilbərə, min canə dəyər,
Tapmışam qəlbimin öz munisini, həmdəmini.

Günəşin al şəfəqindən alıb ilhamımı mən,
Sevirəm gəncliyimin bənzəri sübhün dəmini.

Gətirir fikrimə şerin o, gözəl incisini,
Seyr edəndə gülün üstündə səhər şəbnəmini.

Çəkirəm nazını təbin, o da canan kimidir,
Yetirir vəslinə, Mir Mehdi, könül məhrəmini.

## GÖRƏNDƏ SAÇLARINI

Üzüldü tel kimi könlüm, görəndə saçlarını,
Kəməndi-eşqinə düşdüm hörəndə saçlarını.

Bədirlənən ayın üstündə bir bulud sandım –
Gümüş kimi sinən üstə sərəndə saçlarını.

Qızılgül ətri kimi uçdu hər yana qoxusu –
Səhər küləklərinə sən verəndə saçlarını.

Sənin məhəbbətinə öylə bağlanıb ürəyim,
Öpüb buraxmaram, üz döndərəndə saçlarını.

İlanvuran kimi Mir Mehdi yatmadı gecələr,
Görəndə əfi kimi yan-yörəndə saçlarını.

## SALAR YADA SƏNİ

El içində elə gəz, görsün hamı sadə səni,
Sadəlik eyləyər hər qüssədən azadə səni.

Bir pəriçöhrəyə ver qəlbini, uyma yetənə,
Qaldırar göylərə eşqiylə pərizadə səni.

Puç edib gəncliyini işrətə çox etmə həvəs,
Dağ kimi qüvvəli olsan da yıxar badə səni.

Qəvvas ol, öz hünərinlə vətənə inci gətir,
Görsün el, fırtınalar qopsa da, dəryadə səni.

Bir ovuc torpağa dönsən, dolanıb keçsə zaman,
Bir vətən torpağı, Mir Mehdi, salar yadə səni.

## MƏNƏ BAXDIN

Ey sevgili yar, nazlı baxışla mənə baxdın,
Sandım ki, səni qismət edibdir mənə baxtım.

Yoxdu diləyin həmdəmim olmaq, nə üçün, yar?
Ulduz kimi birdən-birə sən ruhuma axdın.

Mən vəslə ümid eylədim, amma nə edim ki,
Alt-üst edib ümidimi, şimşək kimi çaxdın.

Nazəndə gözəllərdə sanırdım ki, vəfa var,
Əğyarın əlindən gül alıb köksünə taxdın.

Mir Mehdi deyir: baxtıma bax, sevgili canan,
Bir ay kimi gəldin, məni sən gün kimi yaxdın.



## ŞİRİN GÖRÜNÜR

Məhəbbət aləmi dərya kimi dərin görünür,
Acı əzabi də eşqin mənə şirin görünür.

Məhəbbət atəşinə odlanıb yananda ürək,
Alov axar su kimi qəlbimə, sərin görünür.

Çıxanda seyrə çəmənlərdə, sevgilim, sənsiz,
Baxanda güllərə həsrətlə mən, yerin görünür.

Açır bənövşə mənim qəlbimi görəndə onu,
Gəlir xəyalıma, sevdalı gözlərin görünür.

Gələndə sən çəmənə qumrular edir şadlıq,
Sevin, deyir mənə, Mir Mehdi, dilbərin görünür.

## VƏTƏN LÖVHƏLƏRİ

İçdim günəşin şöləsini dan ağaranda,
Gördüm vətənin lövhəsini dağda, aranda.

Yüzlərlə könül cəzb eləyən mənzərə gördüm,
Hər düzdə gəzib, hər obaya, kəndə varanda.

Mən dik qayalar gördüm əl-əlvan boyanıbdır,
Heyrətli olur dağlarımız fəcri yaranda.

Min rəngə girirmiş bu uçan incə buludlar –
Axşamçağı göylərdə şəfəqlər qızaranda.

Sandım ki, bahar mövsümüdür, güllər açılmış –
Mir Mehdi gəzəndə vətəni qarda, boranda.

## HEYRAN OLDU

O pəriçöhrəni gördüm, könül heyran oldu,
Düşdü eşq atəşinə qəlb evi, viran oldu.

Sinəsindən mənə bir busə verib vədə dünən,
Dəyişib fikrini yar sonra peşiman oldu.

Dağ çəkib sinəmə yollarda qoyan gözlərimi,
Könlümü cəzb eləyən sevgili canan oldu.

Ey təbibim, demə rəngin niyə solğun görünür,
Məni bu dərdə salan naleyi-hicran oldu.

Sevdiyin çıxdı vəfasız sənə, Mir Mehdi, yenə,
Səni min dərdə salan afəti-dövran oldu.

## GÜN GƏLƏR TORPAQ OLARSAN

Gün gələr torpaq olarsan, belə öymə özünü,
Sovurar qəbrinin ətrafa küləklər tozunu.

Tapdayıb əzmə çəmənlərdə bitən nərgizi gəl,
Tapdayırsan neçə dilbər gözəlin sən gözünü.

Neçə canamı sərib torpağa məhv etdi cahan,
Gül yaratdı neçə dilbər gözəlin gül üzünü,

Gəldi qartal kimi dünyaya igidlər getdi,
Onların hər qaya üstündə görərsən izini.

Dönməmiş torpağa, torpaqda yarat, göstər hünər,
Sanma Mir Mehdinin əfsanə bu aydın sözünü.



## EYLƏMƏ İNKAR

Qardaşcasına gəl bölüşək var-yoxu, əğyar,
Hər şeyi sənin olsun, mənə çatsın bu gözəl yar.

Gördüm mən o sərvin sinəsində iki limu,
İlk dəfədi ki, sərvü-sənubər yetirir bar.

Könlüm o bəhərdən pay umur, ey gözü şəhla,
Bu doğru məsəldir: xoş olar xəstəyə nübar.

Qəlb birdi, onu bir dəfə cananıma açdım,
Bülbül deyiləm gündə edim nəğməmi təkrar.

Mir Mehdi çəməndə səni əğyar ilə görmüş,
Ey yar, vəfasızlığını eyləmə inkar.

## YÜZ GÖZƏL GÖRSƏ

Yüz gözəl görsə gözüm, könlüm yenə yarımdadır,
Qəlbi qaytarmaq nə mümkün, nazlı dildarımdadır.

Yarımın hüsnü dönüb bir solmayan gülzar olub,
Meyli bülbül könlümün hər an o gülzarımdadır.

Can kimi cananımı sevdim, könül verdim ona,
Məndən üz döndərdi yarım, qəlbi əğyarımdadır.

Döndərib yüz gülşəni eylər xəzan ahım mənim,
Qəlbimin coşqun odu ahi-şərərbarımdadır.

Yoxsa da, Mir Mehdi, yüz ləlim mənim, yüz gövhərim,
El bilir ki, sərvətim təbi-gövhərbarımdadır.

## ZƏHMƏT VƏ HƏVƏSDİR

Zəhmətdi bizi şən yaşadan, bir də həvəsdi,
Bədbinlərə, tənbəllərə aləm quru səsdi.

Pay umma sən öz dostlarının mərhəmətindən,
Arif olana zəhmətinin barı da bəsdi.

Min tufana düşsə, yenə sarsılmaz igidlər.
Qorxaqlar əsər, görsə kiçik bir külək əsdi.

Öz dostun əgər baltalayır rişəni hər an,
Düşmənlik edir, yıxmaq olubdur səni qəsdi.

Mir Mehdi deyir: zəhməti sev, oğlum, əzizim,
Dünyada bizi şən yaşadan işdi, həvəsdi.

## GÖRÜB SƏNƏMLƏRİ

Gəzəndə bağda, sənin hüsnünə düşüb nəzərim,
Günəş üzünlə işıqlandı, sevgilim, səhərim.

Gülüşlərinlə gülür gözlərim, könül açılır,
Mənə sən həmdəm olanda gedir qəmim, kədərim.

Qələm əlimdə saatlarla fikrə dalsam da,
Əgər sən olmasan, olmaz şeirdə bir hünərim.

Vurulmasaydım əgər şairanə hüsnünə mən,
Coşan dəniz kimi olmazdı parlaq incilərim.

Görüb sənəmləri, Mir Mehdi, sahilində yenə,
Gəlib mənim kimi eşqə, coşub-daşır Xəzərim.



## HƏMDƏM İDİN, YAR

Vaxtilə mənim könlümə sən həmdəm idin, yar,
Qəlbim kimi hər sirrimə bir məhrəm idin, yar.

Eşqin kimi qəlbin də sənin safdı, təmizdi,
Gül yarpağı üstündə gümüş şəbnəm idin, yar.

Günlər dolanıb keçdi, dəyişdin belə, əfsus,
Sevdamızın ilk anları sən aləm idin, yar.

Gördüm səni əğyar ilə məclisdə bir axşam,
Çox nəşə ilə badə içirdin, dəm idin, yar.

Verdim sənə sevda dolu bu qəlbi qədəh tək,
Mir Mehdi nə bilsin ki, belə mübhəm idin, yar.

## HƏR YANAN ŞAM BİR ÜRƏKDİR

At qüruru, sadə ol, dünyayə bir ibrətlə bax,
Ömrünü şadlıqla sür, ol qüssədən, qəmdən uzaq.

Qəlbidir hər qəlb açan lalə gözəl bir dilbərin,
Hər çiçək, hər gül verir bir nazlı canandan soraq.

Ətri xoş hər yasəməndir incə yarın telləri,
Gördüyün hər qönçə olmuş bir zamanlar al dodaq.

Yanmış insan oğlu da atəş kimi, dönmüş külə,
Hər yanan şam bir ürəkdir, bir ümiddir hər çıraq.

Aç keçən dastanları, Mir Mehdi, bir-bir sal nəzər,
Canlı bir insan həyatı, bir ömürdür hər varaq.

## YAR GÜLDÜ, DANIŞDI

Yar güldü, danışdı, belə şan halını gördüm,
Bir busə alıb, sinədəki xalını gördüm.

Gül rəngli şəfəqlərdə günəş parladı sandım,
Boynunda alov rəngli gözəl şalını gördüm.

Ay üzlü gözəllərlə gecə məclisə düşdüm,
Mey cilvəsini, saqinin əhvalını gördüm.

Meydanda igid çoxsa da, meyxanənin amma,
Meydən yıxılan Rüstəmini, Zalını gördüm.

Mir Mehdi, uyub taleyinə azmasın əğyar,
Azğınların axırda mən iqbalını gördüm.

## DEMƏ

Demə avarədir aşiq, əlində ixtiyar olmur,
Sevənlər kamə yetmiş, sevməyənlər bəxtiyar olmur.

Vəfalı olsa canam əgər, aşiq cəfa çəkməz,
Gözəllər çoxdur, amma hər gözəldə etibar olmur.

Tikanlı çölləri gülzarə döndərmiş bizim ellər,
Demə, şor torpağa şərbət də töksən, lalәzar olmur.

Payızda, yayda da vardır çiçəklər, nazənin güllər,
O mövsümlər gözəllikdə, təravətdə bahar olmur.

Gəlir, Mir Mehdi, dünyayə çox aşıqlar, qoşur nəğmə,
Fəqət aşıq Ələsgər tək hər aşıq nəğməkar olmur.



## MƏLAHƏTİ VAR

Sənin gözəlliyinin başqa bir məlahəti var,
Gülüşlərində qızıl güllərin lətafəti var.

İsindirir məni sevdalı gözlərin, gözəlim,
Baxışlarında sənin bir günəş hərarəti var.

Səma kimi əbədidir məhəbbət aləmi də,
Mənim məhəbbətimin sanma ki, nəhayəti var.

Nə bəxtiyardır o aşiq ki, sevdiyi gözəlin
Ona həmişə vəfası, böyük sədaqəti var!

Sənə vəfalıdı, Mir Mehdi, sevdiyin canan,
Odur coşub yenə təbin, bu gün kəraməti var.

## GERİ DÖNMƏZ

Hər söz ola dünyadə həqiqətdən uzaqda,
Yer tapmaz ürəklərdə, qalar dildə, dodaqda.

Vaxt itsə, uçan ox kimi bir də geri dönməz,
Vaxtında dəyən meyvəni dər, qoyma budaqda.

Namərdlərə bel bağlama, sən bərkə düşəndə, –
Qalmaz hayına, vaxtı keçər kefdə, damaqda.

Var öylə igidlər öyünüb öz hünəriylə.
Qorxaqlığı çıxmış üzə iş vaxtı sınaqda.

Mir Mehdi, gərək el adamın arxası olsun,
El qüdrətinə qarşı dayanmaz uca dağ da.

## QƏLBİ DAŞDAN YARANIB

İşləyib sevgi, məhəbbət o qədər qanımıza,
Eşqdən hər nə bəla gəlsə, gəlir canımıza.

Qəlbi daşdan yaranıb sevgili cananımızın,
Rəhmi gəlməz, bilirik, naleyi-əfqanımıza.

Sevgi qüdrətli pələngdir, o, qürur ilə deyir:
Kim canından keçə bilsə, gələr ormanımıza.

Gəlsə yüz şir də yenə sanma ki, yoldan dönərik,
Olsa, yüz can verərik sevgili cananımıza.

Hər zamanın özünün aşiqi var, biz də bu gün –
Layiqiq eşqdə, Mir Mehdi, bu dövranımıza.

## GÜLZARƏ GƏTİRDİ

Bir gül həvəsi bülbülü gülzarə gətirdi,
Yüz qanlı tikan qəlbini azarə gətirdi.

Arifsən əgər, uyma vəfasızlara, onlar –
Çox aşiqi incitmək ilə zarə gətirdi.

Yüz Yusifi əvvəl eləyib Misrin əzizi,
Sonra kölətək satmağa bazarə gətirdi.

Bir dilbərə ver könlünü, bilsin nədir aşiq,
Dərd çəkmə, demə, qəlbimi zinharə gətirdi.

Gülüzlülərin hüsnünü seyr etməyə yazda, –
Dövran bizi, Mir Mehdi, çəmənzarə gətirdi.



## BU ƏHDİ-PEYMANDIR

Demə ki, eşqə düşübdür könül peşimandır,
Mənim sevimli nigarım bir özgə canandır.

O şişə, könlümü sındırmış olsa da arabir,
Könül əlacı üçün vəsli sanki Loğmandır.

Baxanda gül üzünə qəlbə yüz fərəh gətirir,
Görən deyir ki, onun hüsnü bir gülüstandır.

Camalına vurulub sanma tək mənəm valeh,
O nazənin gözəli kim görübsə, heyrandır.

Qırıbsa könlünü, Mir Mehdi yarı tərk etməz,
Qırarmı əhdini aşiq? Bu əhdü-peymandır.

## GƏNCLİK VƏ GÖZƏLLİK

Gənclik və gözəllik kimi bir nemət olarmı?
İnsançın ağıl gövhəritək sərvət olarmı?

Arif olana xalqı üçün zəhmətə düşmək,
El dərdini çəkmək əbədi zəhmət olarmı?

Bir qurd kimi salsın yuva qəlbində paxıllıq,
Dargöz olasan, eldə sənə hörmət olarmı?

Can tək əziz övladını sevmirsə bir insan,
Qəlbində yaxın dostlarına şəfqət olarmı?

Hər şair həyatı duya bilmirsə dərindən,
Mir Mehdi, onun söylədiyi hikmət olarmı?

## GÜLÜMSƏN

Gülümsən, nazəninimsən, könüldə taqətimsən, yar,
Mənim bəzən sevincim, an gəlir ki, möhnətimsən, yar.

Sənin qəmgin zamanında həyatımda qopur tufan,
Əzir qəm siqlətin qəlbi, bəlasan, afətimsən, yar.

Səni görsəm sevincək, şad olur qəmgin olan könlüm,
Mənim həycanım, hissimsən, ürəkdə şəfqətimsən, yar.

Vüsalınla coşur təbim, olur daşqın dənizlər tək,
Mənə ilham verən sənsən, sözümsən, söhbətimsən, yar.

Sənə Mir Mehdi aşiqdir, bu sevdaya o layiqdir,
Səni aldatsa da əğyar, nəhayət, qismətimsən, yar.

## YÜZ GÜL AÇAR MƏHƏBBƏT

Yox yarda mehrü-ülfət, məndə cəfayə taqət,
Ummaq olarmı böylə bir sevgidən səadət?

Bəzən olur bir anlıq cananda mehribanlıq,
Cövrü-cəfanı etmiş lakin həmişə adət.

Olsa vəfalı yarım, görməz xəzan baharım,
Gülşən kimi mənimçin yüz gül açar məhəbbət.

Gəl ey sevimli dilbər, güldü çəməndə güllər,
Eşqin gözəlliyindən bülbüllər açdı söhbət.

Canana uymasaydım, mən eşqi duymasaydım,
Mir Mehdi, sözlərimdə olmazdı bu hərarət.



## TORPAQDA YAVAŞ GƏZ

Ey gül, sənə çox bənzəri var sevgili yarın,
Söylə, yanağındanmı yarandın o nigarın?

Yar da arabir iynəli sözlər deyir, amma –
Sən qəlbini nalan elədin bülbülü-zarın.

Gülüzlülərin nazını çəkmək deyil asan,
Qəlbim kimi yüz bülbülü var hər gülüzarın.

Torpaqda yavaş gəz, o qızıl laləni əzmə,
Bəlkə o yanıq qəlbidi bir laləüzarın?

Mir Mehdi, səni torpağa dəfn eyləməsinlər,
Arif olanın qəlbi olar çünki məzarın.

## HƏR SÖZÜN CANDIR SƏNİN

Gül üzündə saçların bir dəstə reyhandır sənin,
Tellərin çin-çin düzülmüş ənbərəfşandır sənin.

Olsa da hüsnündə şölə, mən şamə bənzətmərəm,
Nazlı yarım, ay üzün bir mahi-tabandır sənin.

Bir gümüş fəvvarədir ki, bağda min qəlb oxşayır,
Gülüzarım, ya boyun sərvi-xuramandır sənin.

Nazəninim, al dodağından əmib etdim xəta,
Hər sözün, hər söhbətin Mir Mehdiyə candır sənin.

## QƏNİMƏT BİL VÜSALI

Qənimət bil, könül, hər an vüsalı –
Ki, hicrandan gəlir ömrün zəvalı.

Görüşçün vədə versə, gəlməsə yar,
Məni incitmək olmazmı xəyalı?

Olur hərdən vəfalı, gah vəfasız,
Nədəndir bilmirəm yarın bu halı?

Baxanda köksünə, qəlbi göründü –
Bulaqda yarımın bir daş misalı.

Həqiqi sevgini duymaqçın olsun –
Gərək, Mir Mehdi, cananın kamalı.

## OLSUN

Biz istəmirik mey dolu meyxanəmiz olsun,
Məclisdə, yetər, bir-iki peymanəmiz olsun.

Sərxoşlara məclisdə bizim rəğbətimiz yox,
Yarın o xumar gözləri məstanəmiz olsun.

Kaşanədə canansız olar qəlb evi viran,
Bir yerdə olaq yar ilə, viranəmiz olsun.

Cananın ipək saçlarında dəyməyə bir an,
Yüz parə könül əldə bizim şanəmiz olsun.

Mir Mehdi, verək eşqə könül, bəlkə bu eldə –
Düşsün adımız dillərə, əfsanəmiz olsun.



## QOYMA XƏZANƏ DÖNSÜN

Qoyma xəzanə dönsün şən laləzarı ömrün,
Elçün çalış, gül açsın bağı-baharı ömrün.

Gənclik hədər gedəndə, sən göz açıb görərsən –
Günlər ötüb keçibdir qəflətdə yarı ömrün.

Zəhmətlə şənlənibdir insan həyatı ancaq,
Xoşdur bizə həmişə zəhmətlə barı ömrün.

Zəncirlə bağlasan da, bir an belə dayanmaz,
Ruzgar kimi əsəndir, yoxdur qərarı ömrün.

Ellər bizi unutmaz, xatırlayar həmişə,
Mir Mehdi, qalsa bizdən bir yadigarı ömrün.

## BU ELLƏRDƏ

*Şair dostum İslam Səfərliyə ithaf edirəm*

Gəzdikcə bu ellərdə səmimiyyəti gördüm,
Xalqlardakı qardaşlığı, ünsiyyəti gördüm.

Gəzdim Muğanı, Şirvanı, hər yanda dolandım,
Sabirlə Füzulidəki şeriyyəti gördüm.

Baxdım Kəpəzə, Şah dağına, uçdu xəyalım,
Babəklə Cavanşirdə olan qüdrəti gördüm.

Saysız yanan ulduzları seyr elədim axşam,
Ey şanlı Vətən, səndəki ülviyyəti gördüm.

Qəlb dostu dedim hər kəsə, Mir Mehdi, bu eldə,
Mən onda könül vüsəti, düz niyyəti gördüm.

## SƏN QƏDƏM QOYDUN BAĞA

Sən qədəm qoydun bağa, açdı qızıl güllər yenə,
Vəcdə gəldim, oyandı qəlbimdəki tellər yenə.

Yüz gülə baxdım, sənin tək nazənin gül görmədim,
Gəldi pəjmürdə mənə, sandım ki, sünbüllər yenə.

Söhbət açdın eşqimizdən naz ilə, ey sərvinaz,
Açdı tuti könlümü şirin, şəkər dillər yenə.

Düşdü birdən xatirə ömrün vəfasız olmağı,
Odlu qəlbimdə mənim yer tutdu niskillər yenə.

Sıxma şeyda könlünü, Mir Mehdi, zövq al sevgidən,
Biz köçüb getsək də, dünyada qalar ellər yenə.

## TORPAQLARIN ALTINDA NƏ VAR

Torpaqların altında nə var? Bir qatı zülmət,
Kim getsə, qayıtmaz geri, aydın bu həqiqət.

Qəlbində bir arzun da sənin qalmasın əsla,
Bil ömrünün hər anını dünyadə qənimət.

Zəhmətsiz həyatında gözəl bir günün olmaz,
Zəhmətlə verir neməti insana təbiət.

Ellər çalışıb əl-ələ vermiş vətənimdə,
Yurdumda yaranmış göyü fəth etməyə qüdrət.

Zəhmətlə əgər daş qoyasan bir daşın üstə,
Mir Mehdi, budur, bax, vətənə, xalqa sədaqət!



## QISQANIRAM MƏN

Eşq atəşinə düşdüyüm andan yanıram mən,
Bəzən səni öz gözlərimə qısqanıram mən.

Hicran gecəsi gözlərimin şövqü gedəndə,
Göz yaşlarımı bir yanan ulduz sanıram mən.

Bəzən də xəyalınla təsəlli tapıram, yar,
Bir körpə uşaq tək ovunub aldanıram mən.

Güldükcə günəş nazlı pərilər kimi göydə,
Baxdıqca səni, işvəli canan, anıram mən.

Yar, vəslin üçün qaş-göz ilə verdin işarə,
Mir Mehdi deyir: arifəm, əlbət, qanıram mən.

## MƏNƏ ASAN OLAR

Nazəninsən, nazını çəkmək mənə asan olar,
Özgə dilbərlə sevişmək aşiqə nöqsan olar.

Qəlbi, ruhi başqadır aşiq sevən cananların,
Hər ay üzlü, sərv boylu sanma ki, canan olar.

Çəksə ən qüdrətli rəssam hüsnünün təsvirini,
Baxsa bir an çəkdiyi təsvirinə, heyran olar.

Vəslinə yetməklə könlüm qönçə tək xəndan olur,
Bivəfasan, neyləyim, qismət mənə hicran olar.

Gəl çox incitmə vəfalı aşiqin Mir Mehdini,
Təndə olsa yüz canı, yüz yol sənə qurban olar.

## SAHİLDƏ

Gördüm səni sahildə o axşam açıq, aydın,
Sən mavi sulardan elə bil yüksələn aydın.

Çiynində ipək saçların olmuşdu pərişan,
Şümşad kimi əllərlə ipək telləri saydın.

Ətrafına baxdın quzu ceyran kimi ürkək,
Sahildə uzandın, qumu sən üstünə yaydın.

Cumdu ləpələr sahilə öpsün ayağından,
Gördüm səni sahildə o axşam açıq-aydın.

Həsrətlə baxıb mən sulara söylədim: ey kaş,
Mir Mehdi, bu sahildə coşan dalğa olaydım.

## CANAN GƏLİR

Küsmüşdü, getmişdi dünən, şad ol, könül, canan gəlir,
Sanki dönür ömrüm geri, canan gələndə can gəlir.

Dünyayə yoxdur etibar, gəl aşiqə cövr etmə, yar,
İnsan yüz il ömr etsə də, bu aləmə mehman gəlir.

Aslan könül, düşdün tora, bir ceyranın eşqində sən –
İnsan yüz il ömr etsə də, bu aləmə mehman gəlir.

Ey yar, sənin pərvanə tək dövr eyləyim ətrafına
Yansın, alovlansın rəqib, görsün sənə qurban gəlir.

Bir sərçədir, açmaz qanad, eşqin fəzasında rəqib –
Görsə ki, cövlan eyləyir, Mir Mehdi tək tərlan gəlir.



## ASUDƏ İDİN

Asudə idin, düşdün əcəb zəhmətə, könlüm,
Saldı məni sevda bu qədər möhnətə, könlüm.

Yar ilə deyib, güldüyün anlar necə oldu?
Həsrət qoyub hicran səni bir söhbətə, könlüm.

Eşq atəşi, gənclik həvəsi, bir də gözəllik –
Cəzb etdi bütün varlığımı sənətə, könlüm.

Nadanlara baş əymə əgər getsə həyatın,
Dəyməz bu cahanın varı bir minnətə, könlüm.

Mən sadəliyin aşiqiyəm, sadə dolannam,
Mir Mehdi deyir: uymamışam şöhrətə, könlüm.

## VÜSALİNƏ

Mane olursa yarımın hicran vüsalinə,
Arzum budur: çatım yenə canan vüsalinə.

Xoşbəxt odur ki, duymayır hicran əzabını,
Nazəndə yarının yetir hər an vüsalinə.

Bülbül kimi uçur bağa könlüm səhər-səhər,
Şövq ilə yetməyə güli-xəndan vüsalinə.

Xoş gün odur ki, sevgili canan ilə keçir,
Artar ömür yüz il, yetə bir an vüsalinə.

Yar can alırsa vəsli üçün, minnət istəməz,
Mir Mehdi eyləyər canı qurban vüsalinə.

## BU GÜN

Çıxmışam sevgili cananla çəmənzarə bu gün,
Yaz verib başqa gözəllik yenə gülüzarə bu gün.

Hər gülün rəngi şəfəqlər kimi əlvan görünür,
Bənzəyir hər çiçəyin hüsnü gözəl yarə bu gün.

Hər axan çay mənə xatırladır ömrün dəmini,
Söyləyir: qəlbini ver işvəli dildarə bu gün.

Gəzirəm qol-qola yarımla, könül dalğalanır,
Ucalan bəxtim atıbdır yenə fəvvarə bu gün.

Tapdı canan yenə, Mir Mehdi, könül həmdəmini,
Qəlbini aldı ələ, uymadı əğyarə bu gün.

## SƏBA YELİ

Əsdikcə səba yeli çəməndən,
Yarın gəlir ətri yasəməndən.

Hicran oduna alışdı könlüm,
Cananımı kim ayırdı məndən?

Eşqində düşüb könül bəlayə,
Min tənə çəkibdir hər yetəndən.

Könlüm o gözəldən ayrı düşməz –
Ayrılsa əgər başım bədəndən.

Mir Mehdi bilir vəfanı, ey yar,
Kəsməz yenə də ümidi səndən.



## EŞQİN HƏVƏSİ

Saldı sevdasına şerin məni eşqin həvəsi,
Ruhumu cəzb elədi bir gözəlin incə səsi.

Şerimə verdi nəfəs, ilk dəfə aldım qələmi,
Neylərin qəlbə yatan, ruhu açan xoş nəfəsi?

Şerin ahəngini öyrətdi uşaqlıqda mənə –
Tərlanın qıy səsi, dağ kəkliyinin qəhqəhəsi.

Coşdurub dalğa kimi təbimi qaynar Xəzərim,
Verdi ilhamı mənə hər bulağın zümzüməsi.

Şair etdi məni, Mir Mehdi, həyat lövhələri,
Duyulur hər qəzəlimdə bu həyat fəlsəfəsi.

## KÖNÜL OTAĞINDA

Gəzib çox həsrət ilə, sevgilim, sorağında,
Söyüd kimi əsirəm çayların qırağında.

Gözümdən ayrı olanda, könüldəsən hər an,
Xəyalın ilə könül əylənir fərağında.

Baxanda qönçəyə bənzətdim al dodaqlarını,
Var ancaq özgə lətafət sənin dodağında.

Gəzək bizim Xəzərin sahilində gəl, gözəlim,
Əlim əlində, gözüm gül kimi yanağında.

Coşub yenə sənə Mir Mehdi nəğmələr qoşsun,
Var həsbihalı səninlə könül otağında.

## BAHARA DÖNÜB

Dolan gözəl vətəni, gör nə laləzarə dönüb,
Çəməndə hər çiçəyi nazlı gülüzarə dönüb.

Yayır düzənlərə şən nəğmələr küləklərimiz,
Səhər nəsimi bizim eldə bəstəkarə dönüb.

Hər aşiqin səsinə bağda səs verir bülbül,
Məhəbbət eşqinə quşlar da nəğməkara dönüb.

Gəzəndə hər bağı, hər bağçanı könül açılır,
Gözəlliyi sanırıq nazlı bir nigarə dönüb.

Gözəlləşən vətəni seyr edəndə, Mir Mehdi,
Görürsən ömrümüzün hər günü baharə dönüb.

## MEHRİBANSAN

Mehribansan, görürəm var mənə lütfün, kərəmin,
Gözüm üstündə yeri inciməsin, yar, qədəmin.

O qələm qaşların altındakı mənalı gözü –
Necə təsvir eləsin, qüdrəti yoxdur qələmin.

Bircə yol baxsam o nazəndə xumar gözlərinə,
Olmaz əsla mənə təsiri bu dünyadə qəmin.

Səni, canan, yenə şad etdi vüsal ilə könül,
Bitdi hicran qəmi, gəldi yenə asudə dəmin.

Gül dodaqlardan öpüb ömrümü etdim əbədi,
Daha, Mir Mehdi, mənə qorxusu yoxdur ədəmin.



## CANAN ÜZÜNƏ GÜLMƏDİ

Canan ki, səni sevmədi, sən də ona baxma,
Gur çay kimi barsız ağacın səmtinə baxma!

Bir şam kimi yad məclisi canan bəzəyirsə,
Pərvanə edib qəlbi onunçün, oda yaxma!

Əs yaz mehi tək, hərtərəfə xoş bir ətir saç,
Atəş saçıb ətrafına, şimşək kimi çaxma!

Aydın günəş ol, dostlara şəfqətlə gülümsə,
Çiskin kimi yüksəlmə, duman tək dağa qalxma!

Mir Mehdi, əgər şən yaşamaq olsa xəyalın,
Dərddən uzaq ol, qəlbinə bir qüssə buraxma!

## OLA BİLMƏZ

Yüz dilbər ola, sən kimi canan ola bilməz,
Hüsnün kimi bir bağі-gülüstan ola bilməz.

Yüz gövhər ola, mərcan ola, sevgili canan,
Ləlin kimi bir ləli-bədəxşan ola bilməz.

Dəhrin anası doğmayıb heç sən kimi afət,
Aşiqlərə eşqin kimi tufan ola bilməz.

Yüz tuti gələ, qumru ötə bağda, çəməndə,
Bülbül kimi bir incə qəzəlxan ola bilməz.

Yüz aşiq ola, nəğmə qoşa hüsnünə, ey yar,
Mir Mehdi kimi eşqinə şayan ola bilməz.

## QANADLANAN BÜLBÜL

Qızılgül eşqinə bağda qanadlanan bülbül,
Budaqda, şaxədə cəh-cəhlə atlanan bülbül.

Görəndə bağçada bir gül, öpüb yeri yüz yol,
Durub salamına yüz dəfə qatlanan bülbül!

Görəndə yüz tikanın munisi qızıl gülünü,
Necə davam elədin, qəlbin odlanan bülbül?

Yeyir çəməndə yanıq bağrını, dönür qana gül,
Dözüb cəfalara, yüz dərdə qatlanan bülbül!

Görüb bu halını Mir Mehdi, eyləyir heyrət,
Deyir ki: bax, belədir aşiq adlanan bülbül.

## HƏMDƏMİM OLSA

Hal əhli olan, qəlbi duyan həmdəmim olsa,
Sıxmaz məni könlümdə nə dərdim, qəmim olsa.

Əzmimlə, iradəmlə mən öz sinəmi gərrəm –
Tufanlara, dəryadə kiçik bir gəmim olsa,

Öz yurdumuzun sazı kimi keyfim olur saz,
İstər zilim olsa, mənim istər bəmim olsa.

Dostlar məni şən görmüş həyatımda həmişə,
Sarsılmaz iradəm, necə ağır dəmim olsa.

Mir Mehdi, mənə təbim əgər çıxsa vəfasız,
Dünya qaralar gözlərimə, aləmim olsa.



## QƏZƏLİMDƏ

Dövranımızın xoş nəfəsi var qəzəlimdə,
Gənclik ürəyi, eşq həvəsi var qəzəlimdə.

İçdim bu gözəl yurdumuzun hər bulağından,
Gur çeşmələrin zümzüməsi var qəzəlimdə.

Öyrətdi bizə sənəti zövq ilə Füzuli,
Ustadımızın incə səsi var qəzəlimdə.

Ömrün gərək hər anını çox şən keçirəm mən,
Dövranımızın xoş nəfəsi var qəzəlimdə.

İlhamını Mir Mehdi bu ellərdən alıbdır,
Gənclik ürəyi, eşq həvəsi var qəzəlimdə.

## ÜRƏK

Sanma yumruq qədər əzələ, bir ovuc qan ürəyi,
Arzularla dolu aləmdir hər insan ürəyi.

Düşmə sevdasına hər sinəsi mərmər gözəlin,
Daş kimi möhkəm olur işvəli canan ürəyi.

Bilmə dünyadə kədər, qoyma ömür getsin hədər,
Şən keçir günlərini, şad elə hər an ürəyi.

Axsa sellər kimi qəm-qüssə, bulanmaz azacıq –
Hər kəsin olsa əgər bir geniş ümman ürəyi.

Nəbzini tut bu zamanın, bu günün qədrini bil,
Nə deyir gör sənə, Mir Mehdi, bu dövran ürəyi.

## TOXUNDU

Bülbül oxudu, qönçeyi-xəndanə toxundu,
Aşiq nə dedi, sevgili cananə toxundu!..

Baxdın mənə bir qəmzə ilə, qaşı kamanım,
Müjganın oxu qəlbə dəyib, canə toxundu.

Könlüm üzülüb tel kimi birdən yerə düşdü,
Gördüm ki, sənin saçlarına şanə toxundu.

Vurdun yara üstən yara, əğyara uyanda,
Bu cövrü-cəfa xatiri-nalanə toxundu.

Söz gəzdi: vurulmuş sənə Mir Mehdi ürəkdən,
Eşq əhli üçün bir yeni əfsanə toxundu.



# Pyeslər

## ŞAİRİN GƏNCLİYİ

### İŞTİRAK EDƏNLƏR:

Füzuli – Azərbaycanın məşhur şairi
Əsmər – Füzulinin sevgilisi, azərbaycanlı gözəl
Həbibi – Əsmərin atası
Zivər
Gövhər – Əsmərin yoldaşları
İbrahim – Həbibinin bağbanı, ərəb
Şahi – Saray şairi
Pənahi – Şahinin müridlərindən, yalançı şair
Vali Bağdad valisi
Əmir – Saray əyanlarından
Əjdər – Zivərin qardaşı, Bağdad ordusu sərkərdələrindən
Xalid – Ordu sərkərdələrindən
Əbunəvvas – Xalq içindən çıxmış filosof, ərəb
Nuru baba – Qoca kəndli, azərbaycanlı
Şeyx Əfəndi – Bağdad ruhanilərindən
Qoca aşıq
Cavan aşıq
Saray əyanları, valinin nökərləri əsgərlər, saray qızları, kəndlilər, kəndli qadınlar, uşaqlar və başqaları.

### BİRİNCİ ŞƏKİL

Bağdadda gözəl bir yaz səhəri: Həbibinin bağında qızılgüllər, çiçəklər açılmış, suyu zümrüd kimi bir bulaq axır. Yaşıl xurma ağacları göyə baş qaldırıb. Əsmər çiçəkləri sulayır. Eyni zamanda zümzümə ilə şikəstə oxuyur.

Mən aşiqəm lalələr,
Şeh dolu piyalələr.
Bağda gül gözəl olur,
Dağ döşündə lalələr.

Qızılgülüm incədir,
Açılmayıb qönçədir.
Dəli könlüm həsrətdən
İnləyən kəmənçədir.

Mən aşiqəm gülümə,
Gülümə, bülbülümə,
Vətəndən ayrı düşdüm,
Həsrət qaldım elimə.

Qızılgüllər açanda,
Xoş ətrini saçanda.
Könlüm uçur vətənə,
Bağda bülbül uçanda.

Əsmər şikəstənin birinci bəndini oxuyanda orta boylu, vüqarlı, lakin dodaqlarında kədər duyulan Füzuli yol paltarında təmkinli addımlarla gəlir, hasarın yanında dayanıb vurğun bir halda Əsmərin oxuduğu şikəstəni dinləyir. Bir-iki adım qabağa yeriyir, yenə ayaq saxlayıb mahnıya qulaq asır.

Füzuli

Nə gözəl şikəstə, nə qəlb açan səs...
Oyadır könüldə eşqə min həvəs.
Bu, röyamı, yoxsa xəyaldır, nədir?
Bizim doğma eldən uçan nəğmədir.

Əsmər çiçəklər arasından çıxır. Füzulini görüncə utanır, çəkilib getmək istəyir.

Füzuli

Gözəl qız, bir içim mənə sərin su.

Əsmər su qabını bulaqdan doldurub hasara yaxınlaşır, Füzuliyə təqdim edir.

Əsmər

Al iç!



Füzuli suyu içib, qabı qaytarır

Füzuli

Sağ ol, söndü könül yanğısı.

Əsmər

Yolçu, uzaqdanmı səfərin?

Füzuli

Bəli,
Gəzdim çox obanı, gəzdim çox eli,
Tikanlı çöllərdə fəryada gəldim,
Yoruldum axırda Bağdada gəldim.

Əsmər

Nədir bu səfərdən məqsədin, anlat!

Füzuli

Çəkir hər tərəfə insanı həyat.
Məni bu qürbətə salan dövrandır,
Könül mülkü dərddən, qəmdən virandır.
Gördüm həmdəmim yox, məni sıxır qəm,
Düşündüm ki, burda taparam həmdəm.
Deyirlər, şairlər yurdudur Bağdad,
Bəlkə burda oldu mənə bir imdad.

Əsmər

Dərin baxışından, söz-söhbətindən,
Şairlərə olan məhəbbətindən
Görünür ki, sən də bir sənətkarsan,
Əgər elə isə, nə bəxtiyarsan!

F ü z u l i

Hər şair dünyada bəxtiyar olmur,
Yazmağa əlində ixtiyar olmur.
Yazmaq istəyəndə könül deyəni
Meydanda dilindən asırlar səni.
Qəsidə yazmasan şaha, sultana,
Ömürlük salırlar səni zindana.
Böyük şairimiz məğrur Xaqani
Oldu qürurunun bir gün qurbanı.

Ə s m ə r F ü z u l i n i n azərbaycanlı olduğunu bilincə sevinir.

Ə s m ə r

Ey vətəndən gələn el aşinası,
Söylə bizim yurdun zövqü, səfası,
Yenə könülləri salırmı bəndə?
Yenə də səhralar bağda, çəməndə
Çiçəklər bəzmində ötürmü quşlar?
Yenə də axşamlar, yalçın yoxuşlar,
Söyüdlü dərələr cilvələnirmi?
Yenə qayalardan qartal süzürmü?
Xəzərdə yelkənli qayıq üzürmü?
At belində çıxıb igidlər düzə,
Qılınc oynadırmı yenə üz-üzə?
Gəlirmi aşığın sazının səsi,
Qəlbə fərəh verən şirin nəğməsi?

F ü z u l i

Gəzirəm vətəndən mən də xəbərsiz,
Odur ki, bir anım keçmir kədərsiz.
Ey odlar yurdunun göyərçini, sən
Söylə, bu yerlərə neçin gəlmisən?

Ə s m ə r

Şirvan elindəndir bizim əslimiz,
Vardı çox qüdrətli, ulu nəslimiz.



Atam gəldi bilik almağa burda,
Köç saldıq, dönmədik biz ana yurda.
Atamın olsa da böyük hörməti,
Biliyi, sərvəti, uca şöhrəti,
Lakin mən Bağdadda qərib bir quşam,
Sanki daş qəfəsdə əsir olmuşam.

F ü z u l i

Gözəl qız, dərd çəkmə gənclik çağında,
Sən də bir çiçəksən bu gül bağında.
Parlayır günəştək camalın sənin,
Sözündən duyulur kamalın sənin.

Ə s m ə r

İnan ki, sözlərim gəlir ürəkdən,
Burda gül olmaqdan, arzum budur mən
Muğanın düzündə tikan olaydım,
Kəpəzin başında duman olaydım!
Bağdadda günəştək parlamaqdansa,
İldırımlar kimi gurlamaqdansa,
Şirvanda həzin bir axşam olaydım!
Məclislərdə yanan bir şam olaydım!

F ü z u l i

(*Kənara*)

Ah, bu qız nə qədər şairanədir,
Hər sözü qəlb açan bir təranədir!

Ərəb qiyafəsində sadə geyimli, sıx qara saqqalı bağban İ b r a h i m uzaqdan F ü z u l i n i görüb uca səslə deyir:

İbrahim

Ey hey, kimdir bağda gəzən
Çiçək dərən, reyhan üzən?
Bir düşərgə deyil bu bağ,
Olsun gəlib-gedən qonaq.

*Bağbanın bu sözləri Füzuliyə toxunur. Qəlbi, tutulur, getmək istəyərkən deyir:*

Bu dünya özü də bir düşərgədir,
Hər gələn üç-dörd gün ömr edib gedir.
Gəlib getməyindən kimsə olmur şad.

İbrahim Füzuliyə yaxınlaşır. Əsmər İbrahimə müraciətlə:

Əsmər

Bizim eloğludur bu nəcib insan,
Gül dərmir, lakin sən könül qırırsan.

İbrahim

Dolanıram bütün bağı,
Gözüm seçmir çox uzağı.

Bəzən də yanlış görürəm,
Mən baharı qış görürəm.

Füzuli

Mən səndə bir qüsur görmürəm, ata,
Bəzən yanılmaqdan doğur bir xəta.

İbrahim

İnsan dedikləri xətasız olmaz,
Buyurun, əyləşin, dincəlin bir az.



Füzuli xurma ağacının kölgəsində əyləşir. İbrahim əsmərə müraciətlə:

İbrahim

Sən də yorulmusan, ay qızım Əsmər,
Mənə çox köməyin dəyib bu səhər,
Get evdə rahatlan.

Əsmər

Ay baba, inan
Böyük zövq alıram bağçabanlıqdan.
Yaxşı, siz əyləşin, mən gedim evə.
Sizə hazırlayım dadlı bir qəhvə.

Füzuli

Var ol!

Əsmər

*(gedərkən)*

Qonağımız şairdir, baba,
Şair söhbət elə, darıxmasın ha!

İbrahim

Şairdir? Ləqəbi nədir?

Füzuli

Füzuli!
Adımsa Məhəmməd Süleyman oğlu.

Əsmər Füzuli adını eşidib maraqlanır. Ayaq saxlayıb sevinclə deyir:

Əsmər

Füzuli!
Nə qədər bəxtiyaram mən,
Bir qəzəl oxudu müğənni dünən
Coşdu dilə gəldi qəlbimin sazı,
Sanki təzələndi ömrümün yazı.
Onu sən yazmısan, ey böyük ustad?

Füzuli

Ustadmı?
Heç mənə yaraşmır bu ad.
Uca dağ kimidir şerin zirvəsi;
Hər kiçik şairin sözü, nəğməsi
Yüksək fəzaları aşa bilərmi?
Çaylar dərya kimi daşa bilərmi?
Üzgüçü çıxarır dürrü zahirə,
Qartal qanadları gərək şairə.
Mənimsə qanadım hələ incədir,
Təbim açılmamış zərif qönçədir.

İbrahim

Saçdın sözlərinlə dəyərli gövhər.
Sən də böyük şair deyilsən əgər,
Bilmirəm bəs şair kimə deyərlər.

(*Əsmərə müraciətlə*)

Bu hədsiz təvazö deyilmi, Əsmər?

Əsmər

Təvazö insanın yaraşığıdır,
Atam söz vurğunu, şer aşiqidir.
Burdakı söhbəti eşidib bilsə,
Uçardı bir anda bizim məclisə.
Gedim qoy onu da çağırım gəlsin,
Çatsın arzusuna, kefi kökəlsin.

Əsmər gedir. İbrahim Füzuliyə təqdim etmək üçün bir dəstə gül-çiçək dərir. Füzuli isə yasəmən budağını əliylə iyləyir. İbrahim Füzuliyə yaxınlaşıb gülləri təqdim edərək:

İbrahim

Bağbanda nə olar çiçəkdən qeyri?
Alın, təbiətin bu gözəl şeri
Bir ərmağan olsun, şairim, sizə.



Füzuli

Təşəkkür edirəm hörmətinizə.
Bütün yer üzünün sərvətlərindən,
Dəyərli sanıram bu gülləri mən.

Əsmərin atası Həbibi Əsmərlə bərabər gəlir, gülər üzlə Füzuli ilə əl tutub görüşür.

Həbibi

Nə xoş bir təsadüf, nə bəxtiyar gün,
Şair, soltanısan könül mülkünün,
Bizim bağımıza gətirdin səfa.

Füzuli

Var ol, qədrin artsın dünya durduqca.

Əsmər qəhvə töküb hamıya müraciət edir:

Əsmər

Buyurun, meyl edin.

Füzuli

(*kənara*)

Nədir bu halım?
Bir sevincmi, yoxsa artır məlalım?

Həbibi Füzulini dalğın görüncə:

Həbibi

Şair nə düşünür?

Füzuli

Bərkə düşüncə,
İnsanın əlindən tutur düşüncə.

Həbibi

Heç fikir eləmə ki, qürbətdəsən,
Mənim bu bağımda sən cənnətdəsən.
Göz baxdıqca güldür, rəngbərəng çiçək…
Zövq al hər çiçəkdən, xoş bir ətir çək.
İlhamın qaynasın saf bulaq kimi,
Durmuşam arxanda uca dağ kimi.

Füzuli

Anadan doğuldum mən Kərbəlada,
Uşaqlıqdan oldum qəmdə, bəlada.
Düşündükcə yurdum Azərbaycanı,
Dəmbədəm könlümün artır həycanı.
Atam gəncliyində qürbətə düşdü,
Nə qədər əzaba, zillətə düşdü.
Vətən dərdilə də getdi dünyadan.

İbrahim

İnsanın taleyi budur binadan,
Hərə bir qüssəyə olur mübtəla.

Həbibi

Oğlum, kədərlənmə, düşünmə əsla.
Mən səni özümə sanıram övlad,
Bir elin oğluyuq, deyilik biz yad.

Füzuli

Sənə minnətdaram.



Əsmər

(*sevinclə kənara*)

Tale bəlkə də,
Bizi birləşdirdi bu yad ölkədə.

Həbibi

Arabir şairlər yığılır bizdə,
Sən də gəl şer oxu məclisimizdə.
Dostlarımla səni eyləyim tanış,
Vaxtını xoş keçir, əylən, gül, danış.
Olmasa şairin qəlbi nəşəli
Yanıb işıqlanmaz şeir məşəli!

Əsmər

Atamın var zəngin kitabxanası,
Bizim bu şairlər aşiyanəsi
Səni darıxdırmaz, Füzuli!

Füzuli

Məncə,
Oxumaq ən gözəl, ən xoş əyləncə.
Hər kəsin bir kitab olsa həmdəmi
İnan ki, mənalı keçər hər dəmi.

(*Füzuli getməyə hazırlaşır*)

Var olun, mən sizdən gördüm çox hörmət.

Həbibi

Dayan, tələsmə!

Əsmər

(*ətrafa*)

Əsib külək kimi səbrimi kəsmə.

Füzuli

Evə çatmalıyam, gün qızır artıq.

Əsmər

Çətindir dostlarla olan ayrılıq.

Həbibi

Sabah yığışacaq şairlər bizə.
Əgər sən də gəlsən məclisimizə,
Dostların içində ucalar başım.

Füzuli

Burda kimsəsizəm, yoxdur sirdaşım...
Sizinlə görüşə gələrəm sabah.

Əsmər

(*ətrafa*)

Hər sözü qəlbimi cəzb eləyir, ah!..

Füzuli

Hələlik, sağ olun!

Əsmər

Bizi unutma,
Atama verdiyin sözü unutma!

***Pərdə***



## **İKİNCİ ŞƏKİL**

Həbibinin evi. Səliqə ilə bəzənmiş böyük bir otaq. Rəfdə qalın cildli *kitablar, yerdə kürsülər qoyulmuş, zərli döşəklər alınmışdır. Otağın* rəngarəng şüşəli pəncərələri bağçaya açılır. Əsmər pəncərə qarşısında əlində qalın bir kitab mütaliədən ayrılıb dalğın və düşüncəli bir halda deyir:

Oxudum ərəbcə, farsca çox qəzəl,
Hamı bir-birindən mənalı, gözəl,
Əfsuslar olsun ki, öz dilimdə mən
Bir əsər tapmadım heç bir şairdən.
Odlar yurdu, məgər şairin azmı?
Ya zərif ləhcəndə şeir olmazmı?
Mən ki, öz dilimdə körpə yaşımda
Laylay dinləmişəm beşik başında.

Ziverlə Gövhər daxil olurlar. Əsmər sevinclə yoldaşlarını qarşılayır.

Gövhər

Gözün aydın olsun, Əsmər!
Gətirmişəm şad bir xəbər.

Əsmər

Gövhər, nədir səni edən sevincək?
Açıb yanağında sanki gül-çiçək.

Gövhər

Sığışmıram göyə-yerə,
Atam verir məni ərə.
Bir kişidir qədri ali,
Adlı-sanlı, özü vali.

Var min kisə qızıl pulu,
Min kənizi, üç min qulu.
Bir igiddir aslan kimi,
Baxışı var tərlan kimi.

Əsmər

Yazıq, satılırsan sən də saraya,
Bil ki, ucalsa da şöhrətin aya
Sarayda tufanlı keçər həyatın,
Qırılar bir gündə qolun, qanadın.

Gövhər

Gözəlliyim, camalım var,
Dərin ağlım, kamalım var.
Vali özü olub aşiq,
Həyat yolum olar işıq.
Sənin fikrin nədir, Zivər,
Taparammı mən belə ər?

Zivər

Əgər tale etsə bəxtiyar səni,
Gül kimi qoxlayıb atmaz yer səni.

Əsmər

Kor baxta, taleyə inanan bir qız
Həyatda özünü aldadır yalnız.
Məncə bir gülər üz, bir açıq ürək,
Halal zəhmətinlə yediyin çörək,
Bir də saf məhəbbət dəyər dünyaya,
Qəlbimi satmaram heç bir saraya.



Zivər

Gövhəri fikrindən döndərmək olmaz,
Burax bu sözləri, ud çalım, bir az –
Əylənək.

Gövhər

Əylənək, dünyada, məncə,
Hər qəlbi ovudur nəşə, əyləncə.

Zivər divardan asılmış udu alıb çalır. Əsmərlə Gövhər nəğmə oxuyurlar.

Həyat yalnız beş gün olur,
Bizə qalan xoş gün olur;
Dərdə, qəmə həmdəm olan
Ömür boyu düşgün olur.

Köhlənini çapır zaman,
İnsan köçür karvan-karvan.
Gül bədənli cananları
Torpaq edir qoca dövran.

Bu uğursuz zalım fələk,
Soldurmuşdur çox gül-çiçək.
Dönməz geri axan sular,
Uçan bulud, əsən külək!

İbrahim gəlib Əsmərə deyir:

İbrahim

Sevimli qızım Əsmər!
Atan göndərib xəbər –
Saray şairi Şahi,
Bir də dostu Pənahi
Bu saat bizə gəlir.

Əsmər

Demək, məclis düzəlir,
Füzuli harda qaldı?
Bəlkə də darda qaldı
O qərib şairimiz,
Müztərib şairimiz.

Gövhər

Sənət zirvəsinə Şahi hakimdir.
Onun məclisində Füzuli kimdir,
Böyük bir ustadla üz-üzə gəlsin.
Nə gərək aslanla diz-dizə gəlsin.

Əsmər

Səni hissiyatın aldadır, Gövhər,
Qəsidə yazmağı sanma bir hünər.
Füzulidir incə qəzəl şairi,
Əfsus, görməmisən gözəl şairi.
Gözündən oxunur onun məhəbbət,
Hər sözündə vardır başqa bir hikmət.

Zivər

Şair məhəbbətçin yaranıb, düzü!
Ürəkdən gəlməsə şairin sözü
İnsanın ruhunu oxşaya bilməz,
Könüllərdə qalıb yaşaya bilməz!

Gövhər

Qəsidə yazmaq da deyil çox asan,
Nə qədər cürətli, qüdrətli olsan, –
Sultanın, valinin hüzurunda sən
Bir kəlmə danışıb dinə bilməzsən.
Qasidə şairi yazır mədhiyyə,
Oxuyur sarayda, alır hədiyyə.



Şahi, Pənahi və Həbibi içəri girirlər.

Şahi

Şahlara layiqdir bu saray, bu bağ,
Durna gözü kimi süzülən bulaq.
Həbibi, var sənin başqa cəlalın,
Qarundan artıqdır dövlətin, malın.

Həbibi

Bu bağ öz bağındır, ev öz evindir,
Tez-tez gəlişinlə məni sevindir.

Pənahi

Deyildir qüdrətdə, qüvvətdə hünər,
Dəyər bir igidə min qonaqpərvər.
Hər dəfə evinə qonaq gələndə
Hatəm səxavəti görürəm səndə.

Həbibi

Mən layiq deyiləm bu təriflərə.

Əsmər

*(Zivərin qulağına pıçıldayır)*

Bir yaxşı fikir ver bu həriflərə,
Gör nə riyakardır bu iki yaltaq.
Mədhiyyə yazanlar belə olur, bax!
Şairlər kürsü çəkib əyləşdilər. Füzuli gəlir,
qızlara nəzakətlə baş əyir. Əsməri dərin və
mənalı baxışlarla süzür.
Məclisdəkilərlə görüşür.

Ş a h i

(*ətrafa*)

Bu hərif bir əngəl olmasın bizə,
Hardan gəlib çıxdı məclisimizə.

H ə b i b i

Şairlər bir yerə yığışan zaman
Hərə söhbət açar öz yazdığından.
Danışın, məclisə saçılsın inci,
Artsın qəlbimizin zövqü, sevinci.

P ə n a h i

Bu məclisdə əksik quldur Pənahi,
Şairlər sultanı mürşüdüm Şahi
Oxusun yazdığı qəsidəsindən;
Könül vəcdə gəlsin coşqun səsindən.

Ş a h i

Əfsus yazdığımı bilmirəm əzbər,
Ancaq göstərmişəm elə bir hünər
Firdovsi dirilib qalxsa qəbirdən,
Deyər ki, sən məndən böyük şairsən.

F ü z u l i

Nə çıxar qəsidə yazıb gəzməkdən,
Sənətin yolunu azıb gəzməkdən?
Şair könüllərdən verməsə xəbər,
Sözləri dillərdə olarmı əzbər?!

Ş a h i

Sənin dediyində yoxdur həqiqət,
Saraylar bəzəyi olmalı sənət.
Tacları tərənnüm etməsə şerin,
Şahların yanında olarmı yerin?



F ü z u l i

Şair elin dili, xalqın gözüdür,
Şairin dediyi vicdan sözüdür.
Tərənnüm eyləsə altun tacları,
Bilməz eldə olan ehtiyacları.

Ş a h i

Kor olar dərd çəkib, elçin ağlayan,
El qulu tikandır, təbim çağlayan.
Uca dağ başından yüksəlir səsim,
Eldən danışmağa yoxdur həvəsim.

F ü z u l i

Sən kiçik damlasan, el geniş ümman,
Tökülür dəryaya yüz min çağlayan.
Əgər daş deyilsə sinəndə ürək,
Qəlbin el qəlbiylə döyünsün gərək.

Ş a h i

Təbimin səməndi gəlsə cövlana,
Sənət meydanında dönər tərlana.
Açıqdır üzümə bütün qəsrlər,
Əlimlə açılır düyünlü sirlər.

F ü z u l i

İgidlər meydanda at sürən zaman,
Uşaq da zövq alar ağac atından.
Ellərə göz yumub saraya baxsan,
Sən tərlan deyilsən, kor yapalaqsan.

Ş a h i

Söz gərək keçməsin öz sərhəddini,
Saraya xor baxıb, aşma həddini.

Füzuli

Saraylar ki, uca kaşanələrdir –
Bayquşlar yuvası viranələrdir.

Pənahi

Böyük hökmdara nifrət var səndə,
Dayanmaz o məğrur başın bədəndə.

Gövhər

Neçin ölümünə fərman yazırsan?
Özünə bir dərin məzar qazırsan?

Şahi və Pənahi ayağa qalxıb evi tərk edirlər. Gövhər də onları izləyir.

Zivər

Olmasa dünyada əgər fitnəkar,
İnsanlar yaşayar dərdsiz, bəxtiyar.

Həbibi

Eşitsə bu sözü qudurğan vali,
Sel kimi bulanar, dəyişər halı.

Füzuli

Namərdin önündə mərdlər əyilməz,
Korlar da günəşə göz yuma bilməz.

Həbibi

Sözündə haqlısan, kim həqiqəti
Açmasa duyulmaz səmimiyyəti,
Lakin ehtiyatlı olmalı insan…



*(Zivərə)*

Gəl, gedib qaytaraq Şahini yoldan.

Həbibi Şahini, Pənahini, Zivər isə Gövhəri qaytarmaq üçün çıxırlar.

Əsmər

Səni məhv eləyər qanlı hökmran.

Füzuli

Olsa min hökmüdar əgər düşmənim,
Qorxmaram, təkcə sən dostum ol mənim!
İlk gündən olmuşam hüsnünə aşiq,
Könlüm pərvanədir, camalın işıq,
Həsrətdən yanıram, ey gözəl pəri!

Əsmər

Şairin qəlbini göstərər şeri.
Həqiqi aşiqə sübut gərəkdir.

Füzuli

Sübut parça-parça olan ürəkdir.
Deşib kirpiyinin oxu qəlbimi,
Al bu sözlərimdən oxu qəlbimi.

*(Yazdığı şeri Əsmərə verir)*

Əsmər

Sənin saf eşqinə inanıram mən,
Tanrımla əhdim var, lakin əzəldən:
Şerə rəvac verim ana dilimdə.

İndi ki, şairdir öz sevgilim də
Yetişsin tezliklə başa diləyim,
Toxunub dəyməsin daşa diləyim.

Füzuli

Nə qədər olsa da bu arzun çətin,
Mənə ilham verir nəcib niyyətin.
Könlüm bahar kimi olur sevincək,
Yazda tikanlar da açır gül-çiçək.
Hünərlə bu işi edərəm asan.
Hünərlə dağları qaldırar insan.

***Pərdə***

**ÜÇÜNCÜ ŞƏKİL**

Bağdad valisinin sarayı şahlara məxsus təntənə ilə bəzənmişdir. Vali taxt üstündə əyləşib, sağ tərəfində Əmir oturmuş, sol tərəfində isə Əbunəvvas. Vali xidmətçiyə müraciətlə:

Vali

Gəlsin hüzuruma dilbər gözəllər,
Bəzəsin məclisi sevimli Gövhər.

Xidmətçi çıxır.

Əmir

Bir yeni məhəbbət, bir sevdamı var?
Səni Məcnun edən bir Leylamı var?

Vali

Məhəbbət dediyin boş əfsanədir,
Sevgi ehtirasçın bir bəhanədir.



Əbunəvvas

Nə sevgi bil, nə sevda,
Nə dostluq, nə də vəfa –
Qəlbini əyləndirsin
Hər gün yeni macəra.
Bir gün al – sabah boşa.
Hər qızla üç gün yaşa.
Bu könül həmdəmiylə
Vurma ömrünü başa.

Almazlar içində parlayan Gövhər saray gözəlləri il daxil olur. Baş əyir.

Vali

Gəl, ey gözəllərin dilbər gözəli,
Nəğməsi qəlb açan, sözü məzəli.
Oxu, dinlədikcə gözəl nəğməni,
Aparsın göylərə xəyalım məni.
Yay öz camalınla məclisimə nur.

Gövhər

Bütün aləm olsa eşqimdən əsir,
İnan ki, qəlbimə eyləməz təsir.
Dəli könlüm yalnız sənə vurğundur.

Əbunəvvas

Açılmamış çiçəksən,
Ulduzlardan göyçəksən.
Bir gecə işıq saçıb,
Parlayıb sönəcəksən.
Əsərsən bir meh kimi,
Quruyarsan şeh kimi,
Qəlbin dollar, boşalar
Bir büllur qədəh kimi.

Gövhər

Bu bir filosofmu, yoxsa dəlidir?
Sözləri həm acı, həm gülməlidir.

Vali

Onun sözlərinin mənası yoxdur,
Nəğməsiz bir ömrün səfası yoxdur.
Oxu, qanadlansın könlüm səsindən,
Ruhum vəcdə gəlsin xoş nəfəsindən.

Musiqi ilə həmahəng olaraq Gövhər aşağıdakı nəğməni oxuyur.

Dəyişir, min rəngə girir bu aləm,
Fələk hər insanla olmayır həmdəm.
Bir evdə toy-düyün, şənlik görürsən,
Bir evdə iztirab, göz yaşı, matəm!
Qurur öz əliylə zavalı insan
Şahlara kaşanə, özünə zindan.
Ariflər can verir xərabələrdə,
Bəzəkli sarayda yaşayır nadan.

Mahnı bitir. Qızlar rəqs edirlər. Bir-iki dəqiqə rəqs davam etdikdən sonra qasid içəri girir. Vali əli ilə rəqsin kəsilməsinə işarə edir: qızlar səhnədən çıxır. Qasid baş əyir, məktubu Valiyə verib geri çəkilir. Vali məktubu oxuyub, əyanlara müraciətlə:

Vali

Soltan həzrətləri vermişdir fərman,
Tapın Füzulini, gətirin bu an.

Əyanlardan iki-üç nəfəri Füzulini axtarmağa gedir.

Əmir

Şair hökmüdardan görəcək əta,
Yoxsa, üz verəcək ona bir xəta?



Vali

Fərman yazılıbdır barətə dair,
Təqaüd almalı övqafdan şair.

Əmir

Mən qibtə edirəm bu səadətə,
Şair heç layiqmi belə hörmətə?

Şahi ilə Pənahi daxil olur. Əmirin son sözlərini eşidir. Şahi bu sözlərin ona aid olduğunu zənn edib kefi pozulur.
Valiyə baş əyərək:

Şahi

Vali həzrətləri, ey qibləgahım!
Mən bir əskik qulam, nədir günahım?
Sizdən bir mərhəmət gördüyüm zaman,
Əmir alovlanır paxıllığından.

Əmir

Şahi, saraydasan, validən utan,
Atma nahaq yerə üstümə böhtan.

Şahi

Sən indi demirdin belə səadət
Heç layiqmi olsun şairə qismət?

Vali

Şair Füzulidən gedirdi söhbət.

Ş a h i

(*valtaqlanaraq*)

Bilirəm Əmirdə var çox səadət,
O yaxşı tanıyır dostu, düşməni.
Tikanlı sözlərlə incitməz məni.
Yolsuz Füzuliylə qoymaz yanaşı,
Çünki yaxşı seçir gövhərdən daşı.

Ə b u n ə v v a s

Füzuli bir gövhərdir.
Fikri aydın səhərdir.
Əgər düzünü bilsən
Sən kəsək də deyilsən.

Ə m i r

Əlbəttə, Şahi, sən başqa aləmsən,
Sarayda valiyə, mənə həmdəmsən.

Ə b u n ə v v a s

Rast gəlsən bir yaltağa
Qaldırar səni dağa.
Dağdan yerə gələndə,
Sağ yer qalmaz kəlləndə.

V a l i

Bu gün çox danışdın, sus, Əbunəvvas!
Sənin yüyənini boş tutmaq olmaz.

Ə b u n ə v v a s

Aforin, yüz afərin,
Vali düşünür dərin.
Sözüm deyil tikansiz,



Burda qalsam yüyənsiz
Yaman şıllaq ataram.
Qırıb sizi çataram.

(*Gedir*)

V a l i

Bir qorxunc bəladır o səmum kimi,
Acı gülüşləri bir zəqqum kimi
Qəlbi parçalayır.

Ş a h i

Uymayın ona!
Hər sözündə vardır başqa bir məna,
Gülüşü zəhərdir, sözü ağırdır,
O da Füzulitək sizə yağıdır.

V a l i

Necə, Füzulimi olub düşmənim?
Ona yamanlığım keçməyib mənim.

Ş a h i

Əgər sözlərimdə varsa bir yalan
Çalsın boğazımdan əfi bir ilan.
Füzuli saraya bəsləyir nifrət,
Hökmüdara belə yağdırır lənət.
Pənahi sözümü təsdiq eyləyər,
Hər nə eşidibsə bir-bir söyləyər.

P ə n a h i

(*Valinin hüzurunda baş əyir*)

Qulunuz and içir böyük Tanrıya,
Şahinin sözündə yox əsla riya.

Ş a h i

Mən sizə yazdığım bir qəsidəni
Oxudum, az qaldı o didsin məni.

Vali

Yaxşı, qüvvətimi görər, indi sən,
Oxu qəsidəni söyləyək əhsən.

Ş a h i

(*qəsidəni açıb oxumağa başlayır*)

Ey həzrəti Vali,
Ey şöhrəti ali!
Qüdrətdə Süleyman,
Sitvətdə Nəriman.

Rüstəm sənə meydanda bərabər ola bilməz,
Səntək bir igid, ər ola bilməz!

Ey həzrəti Vali,
Ey şöhrəti ali!
Var səndə fəsahət.
Min nüktəli hikmət.

Boğrat belə hikmətdə sənə tay ola bilməz.
Zöhrə Sərətan ay ola bilməz.

Ey həzrəti Vali,
Ey şöhrəti ali!
Var səndə səxavət,
İnsaf-ədalət.

Hatəm də səxavətdə yetişməz sənə əsla,
Mümkünmü dönüb çay ola dərya?!



P ə n a h i

Əhsən bu kəlamə, necə mənalı sözün var.
Təbin eyləyib, Şahi, sənin möcüzə izhar.

V a l i

Gözəl qəsidədir, çox bəyəndim mən,
Şairə hədiyyə verin xəznədən.

Xəzinədar on dinar qızıl, yüz dirhəm gümüş gətirib Ş a h i n i n başına səpir. Ş a h i qızılları acgözlüklə yığışdırır. Bu zaman F ü z u l i daxil olur. V a l i n i n qarşısında dayanıb salam verir.

F ü z u l i

Salam!

V a l i üzünü yan tutub salamı almır.

F ü z u l i

Salam rüşvət deyil almadın?

V a l i

Mənəm hökmüdarı bu gün Bağdadın,
Söylə əleyhimə nə cürətlə sən,
Fitnəkarlıq edib, söz düzəldirsən.

F ü z u l i

Hakimin olsa da gücü, qüdrəti,
Gərək unutmasın heç həqiqəti.
Mənim söylədiyim bir həqiqətdir.
Saray xalqı əzən qara qüvvətdir.
Bağdadı taladı şahlar, sultanlar,
Axıtdı düzlərdə sel kimi qanlar.

Vali

Həqiqət, həqiqət bir quru səsdir,
Kim onu axtarsa səyi əbəsdir.
Həqiqət qüvvətə, gücə bağlıdır!

Füzuli

Qüvvət yüksək zəka, insan ağlıdır.

Vali

Ağıl kimə verib dövləti, malı?

Füzuli

Ən böyük sərvətdir insan kamalı.

Vali

Gəl günəş fikrimi sanma qaranlıq,
Əlimdə var sonsuz bir hökmranlıq.
Qarşımda diz çökür çox qəhrəmanlar,
Şairlər, alimlər, həkim insanlar.

Füzuli

Hökmdar rüşvətlə toplayır ordu,
Qanlı vuruşlarla dağıdır yurdu.
Dövran bir inqilab göstərən zaman
Məhv olur bir anda qanlı hökmran.
Kinli qılıncında kəsər qalmayır,
Ordudan, ölkədən əsər qalmayır.
Mən sözlə tuturam bütün dünyanı,
Şerim könüllərin olub sultanı.

Şahi

Hakimlə danışır, gör nə hərzədir.



Pənahi

Hər sözü ürəyi deşən nizədir.

Vali

Mərhəmət göstərib adil hökmran
Təqaüd alasan hər il övqafdan.
Bu ağır xislətin, qürurunla sən
Övqafdan təqaüd ala bilməzsən.
Gəl xam xəyalından, fikrindən aşdın,
Gör nə dövrdəsən; o məğrur başın
Şahların önündə gərək əyilsin.

Füzuli

Mərhəmət sahibi xaqanlar bilsin,
Günəş əsirgəsə nurunu məndən,
Uçsa pərvaz etsə can quşu təndən,
Yenə əyilmərəm.

*(Deyib saraydan çıxır)*

Əmir

Cəsarətə bax!

Şahi

Onu ağır cəza yumşaldar ancaq.

Vali

Vurdu yara üstən qəlbimə yara,
O gərək məhv olsun.

Şahi

Çəkdirin dara.

Əmir

Yaxşısı budur ki, onu gizlincə
Getsin bir pəhləvan öldürsün gecə;
Şübhəli görünsün ölüm xəbəri.

Vali

Bu yaxşı tədbirdir.

(*Xidmətçiyə müraciətlə*)

Çağır Əjdəri

Xidmətçi çıxır.

Pənahi

Bəzən üz döndərir bəxtindən adam.

Şahi

Onun bu halına ürəkdən şadam.

Əjdər içəri girir. Valiyə baş əyərək:

Əjdər

Əmriniz?

Vali

Füzuli məhv olsun gərək!

Əjdər baş əyib çıxır.

Şahi

Bu gün öz arzuna çatdın, ey ürək!

***Pərdə***



## DÖRDÜNCÜ ŞƏKİL

Aylı-ulduzlu bir axşam. Eyvanın qarşısında ağacın altında Əsmərlə Zivər oturub söhbət edirlər.

Zivər

Sanmırdım bu qədər səni vəfasız,
Dost yaxın dostunu unutmaz, ay qız.

Əsmər

Zivər, əziz bacım, yaxşı bilirsən
Səni bir dəqiqə unutmaram mən.
Mənim səndən başqa yoxdur yoldaşım,
Lakin son zamanlar qarışıb başım,
Evdəyəm, çıxmıram, inan heç yerə.

(*Əlindəki kitabı göstərərək*)

Bax, bu qəzəlləri gündə on kərə
Oxuyub doymuram, edirəm təkrar.
Hər misrada sanki odlu ürək var.
Hər sözdə duyulur dərin məhəbbət,
Cəzb edir qəlbimi incə şeriyyət.

Zivər

Qəzəllər, görünür yazılıb sənə,
Odur ki, hər sözü yatır qəlbinə.

Əsmər

Nə bildin?

Zivər

Olmasa ilham mənbəyi,
Şairin dəniztək coşarmı təbi?

Əsmər

Mənə istehzamı edirsən?

Zivər

Əsla!
Füzuli eşqinə olub mübtəla.
O, incə şairdir, sən də şeirsən.

Əsmər

Zivər, bir düşün gör sən nə deyirsən?!

Zivər

Dediyim çox aydın bir həqiqətdir,
Şairə ruh verən saf məhəbbətdir.
Dünyada ən böyük bir sənətkarı
Yaşadan eşqdir, bir də vüqarı.
Oxu Füzulinin qəzəllərindən,
Şairin qəlbini duyum dərindən.

Əsmər dəftərini açıb Füzulinin "Yar qılmazsa mənə cövri-cəfadan qeyri" sərlövhəli qəzəlini oxuyur.

Zivər

Ana dilimizdə ilk dəfədir mən,
Gördüm söz incisi, nə şadam bilsən.

Addım səsləri eşidilir, dönüb baxırlar. Uzaqdan Füzulinin gəldiyini görüncə:



Əsmər

Odur bax, Füzuli gəlir.

Zivər

Mən gedim,
Gəzim bağınızı, bir az seyr edim.
Aşiq canan ilə görüşən zaman,
Mane olmayasan gərək kənardan.

Füzuli Əsmərə yaxınlaşır. Əsmər sevinc hissi ilə onu qarşılayır, bağda qoyulmuş kürsüdə əyləşirlər.

Füzuli

Halımı pərişan edib xəyalın,
Bir gün soruşmursan nədir bu halın?
Bilmirsən hicrindən yanıram necə,
Günəş nə bilsin ki, şam yanır gecə.

Əsmər

Şairim, sanma ki, mən vəfasızam,
Əlimdən nə gəlir, aciz bir qızam.
Sənsiz olmasa da bir an qərarım,
Səni axtarmağa yox ixtiyarım.

Füzuli

Sən də olmasaydın sevimli Əsmər,
Həyat şərbətini sanardım zəhər.

Əsmər

Mənim də qəlbimi sarmış iztirab,
Lakin təsəllidir verdiyin kitab.
Şairim, səndə var nə böyük hünər.
Qəlbimi cəzb edir şirin qəzəllər.

Füzuli

Ən böyük şairdir ulu təbiət,
Sığmaz heç kitaba ondakı qüdrət.

(*Göydəki ulduzlara işarə edərək*)

Yanan ulduzlar ki, görünür incə –
Ən gözəl, ən dilbər şeirdir, məncə.

Əsmər

Ulduzlar olsa da göylərin şeri,
Sənin qezəllərin bəzəyir yeri.

Füzuli

Hər qəlbi gözəllik eyləyir şikar,
Gözəlliklə olur sevgi aşikar.
Gözəllik olmasa qəlb alovlanmaz,
Həqiqi sevgisiz sənət yaranmaz.
Mənə ilham verən, gözəlim, sənsən.

(*Füzuli Əsmərin əllərini tutur*)

Dur gəzək, nədənsə qəlbim bu axşam,
Həycanla çırpınır, olmayır aram.

Füzuli

Mənim də ruhumu sarıb firtına,
Lakin başqa səbəb görmürəm buna.
Ayrıldıqdan sonra görüş zamanı
Sevən könüllərin artar həycanı.

Füzuli və Əsmər yavaş-yavaş ağaclar arasında gözdən itirlər. Az sonra Əjdərlə Xalid çəpərdən aşaraq bağa girirlər.



Əjdər

İgidə belə iş yaraşmaz məncə,
Oğrular hasardan atılar gecə.
Ev soyar, baş kəsər, məhv edər insan…
Düşmənlə üz-üzə durub pəhləvan
Meydanda vuruşar, qazanar zəfər.

Xalid

Yanılma, hər əmrə tabedir əsgər.
Verib bu fərmanı valinin özü,
Bizimçin qanundur onun hər sözü.

İbrahim hənirti duyub başını yuxarı qaldırır. Əjdərlə Xalidin kölgəsini görüncə

İbrahim

Kimdir gecə vaxtı giribdir bağa!

Xalid ona yaxınlaşaraq

Xalid

Vergi toplamağa gəlibdir darğa.

İbrahim

Bu zaman nə vergi?

Xalid İbrahimə yaxınlaşır, danışmağa macal vermədən üzərinə atılır, sarığını başından açıb ağzını bağlayır. Bu zaman Füzuli ilə Əsmər görünürlər. Xalid Əjdərə müraciətlə:

Xalid

Gizlən, gələn var!
Mahir ovçu deyil ov qaçıranlar.

Hər ikisi ağacların arasında gizlənir. Füzuli ilə Əsmər yaxınlaşırlar.

Füzuli

Xumar gözlərinə qurban olduğum.
Şəkər gülüşünə heyran olduğum
Gəl, bulaq başında duraq bir anlıq,
Düşdü xatirimə ilk mehribanlıq.

Əsmər

Mənim də ilk görüş çıxmaz yadımdan,
Fələk ayırmasın bizi heç zaman.

Füzuli

Mümkünmü ayırmaq canı bədəndən?
Səni heç bir qüvvət ayırmaz məndən.

Əsmər

Gecədən çox keçib, ay çıxır artıq,
Çəkib qılıncını gəlir ayrılıq.

Füzuli

Görsə camalının yaraşığını,
Gizlədər buludda ay işığını.
Günəş olan yerdə ay ola bilməz,
Ulduzlar gözünə tay ola bilməz.

Əsmər

Oxu son yazdığın qəzəli bir də,
Könül-təsəllini tapsın şeirdə.
Bu hicran gecəsi, ayrılıq dəmi
Unudum bir anlıq bütün aləmi.

Füzuli "Məni candan usandırdı..." sərlövhəli qəzəli oxuyur. Əsmərdən ayrılmaq istərkən Xalid qılıncını çəkib Əjdərə deyir:



Xalid

Fürsəti qaçırma, Əjdər, zamandır.

Əjdər

Onlara toxunma dayan, amandır!
Hansı namərd qıyar belə şairə.

Xalid

Nə oldu dəyişdin sən birdən-birə?

Əjdər

Onun hər sözündə duydum məhəbbət.

Xalid

Bu sirr qorxaqlıqdır, ya da xəyanət...
Qurtarmaz o mənim pəncəmdən!

Xalid qılıncını çəkib Füzuliyə hücum edir. Əjdər kəskin bir səslə:

Əjdər

Dayan!
Duyğusuz canavar!

Əsmər

Məhv olduq, aman!

Füzuli

Qorxma, yenilməzdir eşqin qüdrəti,
Məhəbbət yaşadır əbədiyyəti.

Əjdər Xalidin qabağını kəsir. Xalid Əjdərə hücum edir, vuruşurlar. Bərk qılınc zərbəsi Xalidi yerə sərir. Səsə Həbibi gəlir.

Həbibi

Kimdir fitnə salan bu gecə vaxtı,
Sandım ki, başımda ildırım çaxdı.
Axınla bağıma tökülən kimdir,
Yerdə qan görürəm, bu ölən kimdir?

Füzuli

*Mən bir ölkədəyəm qandır torpağı,*
Yer düşmən, göy düşmən, hər tərəf yağı.
Bəşər bir-birinin olmuş cəlladı,
Doymur qan içməkdən insan övladı.

Əjdər

(*Xalidin ölüsünə işarə edərək*)

Bəşər demək olmaz hər vəhşi qurda,
Sizə yalvarıram, durmayın burda.
Qan içən valimiz vermişdir fərman,
Saraydan gəlmişdir bir sürü ilan
Sizi məhv etməyə.

Əsmər

Aman, nə dəhşət!

Füzuli

Alışsan odlara yansın səltənət,
Nifrət, bu qaranlıq dövrana nifrət!

Əjdər

Dostlar tez çıxartsın aradan səni.



Həbibi

Oğlum xoşbəxt etsin yaradan səni,
Yaxşılığın itməz.

Əjdər

Məncə, bu sözlər
Artıqdır, bacımın dostudur Əsmər.

Əsmər

Bacın kimdir sənin, pəhləvan?

Əjdər

Zivər!

Əsmər

Aha!

Əjdər

Aparım mən Valiyə xəbər.
Füzuli çıxıbdır Bağdaddan səhər.

(*Gedir*)

Həbibi

Vali qudurmuşdur, oğlum, dayanma!
Səhərə az qalır, daha yubanma.
Min, külək yerişli yorğa səməndə,
Özünü sübhəcən yetir bir kəndə.
Mən gedim, əmr edim, at yəhərlənsin.

(*Çıxır*)

Əsmər

Valinin başına sarayı ensin!
Ayırdı cövr ilə yarı-yarından,

Füzuli

Doymadım o xumar baxışlarından.
Min xəzan yetişib çiçəklər solsa,
Fəsillər dəyişib min bahar olsa,
Min lalə bitirsə əgər məzarım,
Səndən əl üzmərəm, ey gülüzarım.

Əsmər

Gözlərim yollarda, qulağım səsdə,
Səni gözləyirəm mən son nəfəsdə.

(*Qucaqlaşıb ayrılırlar*)

***Pərdə***

## BEŞİNCİ ŞƏKİL

Əhalisi azərbaycanlılardan ibarət bir kənd. Kəndli qadınlar, uşaqlar Novruz bayramı münasibətilə geyinib bəzənmiş, şənlik edir. Kəndlilər Novruz nəğməsi oxuyurlar.

Şən keçirək Novruzu,
Bu il bol olsun ruzu.
Suvaraq tərimizlə
Hər tarlanı, hər düzü.
Bağımız barlı olsun,
Xalqımız varlı olsun.
Dağların başı kimi
Ellər vüqarlı olsun.

Rəqs yenə davam edir, bir neçə oğlan və qız "Tərəkəmə" havasında oynayır. Əjdər və Zivər yol paltarlarında daxil olurlar.



Əjdər

Eşq olsun!

Nuru baba

Eşq olsun, buyurun siz də,
Əylənin bu sadə məclisimizdə.

Zivər

Nə xoşdur bu kəndin sazı, söhbəti,
Qəlb açır.

Nuru baba

Paylansın bədmüşk şərbəti.

Bir qız əlində şərbət kuzəsi, başqa bir qız isə naxışlı piyalələr gətirir. Şərbət süzüb paylayırlar.

Əjdər

Necə ətirlidir!

Zivər

Pəh-pəh, nə gözəl!

Nuru baba

Çalın, Füzulidən oxunsun qəzəl.

Zivər

Onun sözlərini eşidəndə mən,
Könlüm bülbül kimi uçur qəfəsdən.

Çiçəklər açılır ömür bağımda,
Durur xatirələr göz qabağımda.

"Rast" çalınır, məclisdəkilərdən biri Füzulinin "Can vermə qəmi-eşqə ki, eşq afəti-candır" qəzəlini oxuyur.

Əjdər

Doğrudan xalqımız çox bəxtiyardır,
Böyük Füzuli tək şairi vardır.

Nuru baba

Füzuli görünür uca dağ kimi,
Axır hər sözü bir saf bulaq kimi.

Cavan kəndli

Görən şairimiz qalıbdır harda?

Zivər

Gəzir yardan ayrı qürbət diyarda.

Əjdər

Kütbeyin hakimlər, azğın valilər
Sevimli şairi saldı dərbədər.

Zivər

Hələ xatirimə düşəndə Əsmər,
Sanıram başıma tökülür göylər.
Azəri elinin gözəl maralı
Zülmlə yarından düşdü aralı.
Halı dərd əlindən olub pərişan,
Aşiqə ölümdən ağırdır hicran.



Nuru baba

Ey fələk, yaxşıya olmur rəğbətin,
Pozub dağıtmaqdır sənin adətin!

Əjdər

Fələk nadanlara gülümsər yalnız,
Arif insanlara olur vəfasız.
Şahilər gün sürür işrət içində,
Füzulilər qalır zillət içində.

Nuru baba

Yerini bilsəydim Füzulinin mən
Qorxub çəkinməzdim zalım hakimdən,
Görüşüb bağrıma basıb öpərdim,
Qalmazdı sinəmdə, həsrətim, dərdim.

Əjdər

Biz də axtarmağa çıxmışıq onu,
Bu uzun səfərin bilmirik sonu
Nə olar.

Nuru baba

Uğurlu olar, ay bala!
Elçin çalışanlar çəkməz dərd, bəla.
Füzuli bu xalqın əziz oğludur,
Ellərin eşqilə qəlbi doludur.

Bu zaman Füzuli gəlir.

Zivər

Füzuli!

Nuru baba Füzulini qarşılayaraq bağrına basır.

N u r u   b a b a

Oraq tək belim büküldü,
Axırda taleyim üzümə güldü.
Qalmadı qəlbimdə dərdim, nisgilim,
İndi var mənim də öz şerim, dilim.
Onu sən yaratdın.

F ü z u l i

Dilsiz bir millət
Lal kimi həyatda çəkər əziyyət.
Olmasa bir xalqın şeri, sənəti,
Olmaz gözəl dili, mədəniyyəti.

Bu zaman bir k ə n d l i tələsik gəlir.

K ə n d l i

Duman kimi toz yüksəlir,
Nökərlərlə Əmir gəlir.
Qabaqda da Şeyx əfəndi,
Talayıblar neçə kəndi.
Qəzəbləri coşub-daşır,
Canavarlar yaxınlaşır.

Ə m i r i n gəldiyini eşidib Ə j d ə r çalması ilə üzünün bir tərəfini örtür, F ü z u l i n i n əlindən tutub onu böyük bir ağacın arxasına çəkir. Ə m i r camaatın toplaşdığı yerə gəlib qəzəblə deyir:

Ə m i r

Nədir bu yığıncaq, böyük izdiham?
Şiələrmi edir Novruzu bayram?
Bu kənd olub üsyançılar yuvası...

Ş e y x   Ə f ə n d i

Zəhərlidir başdan-başa havası.



N u r u   b a b a

Allahı sevirsən, ey Şeyx əfəndi,
Bəhanə axtarıb talama kəndi.

Ş e y x   ə f ə n d i

Sizi azdırmışdır şiə məzhəbi,
Bax, bu bayramın da odur səbəbi.

N u r u   b a b a

Novruzdur ellərin bahar bayramı,
Sevinclə bəzənib geyinir hamı
Bu günü xoş keçsin.

Ş e y x   Ə f ə n d i

Yalandır, yalan.
Kafirsiz, yurdunuz olmalı talan,
"Çaldıran dava"sı çıxmayıb yaddan,
Məzhəbçin qopmuşdur ordakı tufan.

F ü z u l i ağacın arxasından Ş e y x i n qarşısına çıxaraq.

F ü z u l i

Gülüncdür dediyin sözlər, Şeyx baba,
İndi yaxşı bilir hər el, hər oba
O dava deyilmiş məzhəb davası,
Sizlərə toy oldu ellərin yası.
Dünyanı bölməkçin iki hökmran,
Vuruşdu məhv oldu minlərlə insan.
Qoymadı zalımlar daş üstə daşı,
Qırdı Çaldıranda qardaş qardaşı.

Nuru baba

Məzhəb, məzhəb deyə bizi soydunuz,
Xalqı ac-yalavac, çılpaq qoydunuz.

Şeyx əfəndi

Gör nələr danışır bu sadə kəndli.

Əmir

Zəhmətçin yaranıb dünyada kəndli.
Bunlar siyasətdən dəm vurur ancaq,
Hökumət işini sanır oyuncaq.

Şeyx əfəndi

Heç başın çıxırmı şəriət nədir?
Din, məzhəb nə demək, təriqət nədir?

Nuru baba

Mən yaxşı seçirəm qurunu yaşdan,
Sizin ürəyiniz yaranıb daşdan.
Sizdə nə insaf var, nə də mərhəmət,
Göylər, harda qaldı haqq və ədalət!

Şeyx Əfəndi

Lənət kor şeytana!

(*Nökərlərə*)

Tutun bunları

Nökərlər kəndlilərə hücum edir, qadınlar və uşaqlar arasında çaxnaşma düşür. Əjdər ağacın arxasından çıxır.



Əjdər

Bir bu qadınlardan utanın barı,
Alçaqlar!

Əmir Əjdəri tanıyır.

Əmir

Məhkumsan ölümə, xain,
Yaxşı yerdə keçdin əlimə, xain!
Valinin əmrini pozub qaçmısan,
Gəlib burda sən qol-qanad açmısan.

Əjdər

Vali bir tülküdür, sən də quyruğu,
Qanundur səninçin onun buyruğu,
Məskənim olsa da əgər dağ-dərə,
Heç zaman uymaram mən alçaq əmrə.

Əmir

Şeyx əfəndi, özün şahid ol buna,
Xain günahını aldı boynuna.

Şeyx əfəndi

Valiyə ağ olub asidir, asi,
*Ona layiq ancaq ölüm cəzası!*

Zivər

Qan içən cəlladdır yaramaz vali.
Sən də sağ əlisən, məzhəb dəllalı!

Əmir

Bunları qılıncdan keçirin!

Nökərlər qılınclarını çəkib kəndlilərə hücum edirlər.

Kəndli qadın

Aman!

Əjdər qılıncını çəkib nökərlərə hücum edir.

Əjdər

Çəkil, həddini bil azğın, qudurğan!

Əjdər Əmir ilə vuruşur, kəndlilər də nökərlərlə vuruşur. Nuru baba iki-üç kəndli ilə Füzulini araya alırlar ki, nökərlər ona yaxın düşməsin. Əmirin nökərləri hər tərəfdən Əjdəri araya alırlar.

Füzuli

Yarəb, özün saxla bu el oğlunu,
Hər yandan düşmənlər kəsib yolunu.

Qızğın vuruşma gedir, kəndlilər üstün gəlir. Əjdər Əmiri öldürür. Şeyx əfəndi işi belə görüb nökərlərlə qaçır. Üç-dörd yerdən yaralanmış Əjdər bir daşın üstündə əyləşir. Füzuli, Nuru baba və kəndlilər onu araya alırlar.

Nuru baba

Sarıyın yaranı...

Qızlar Əjdərin yarasını sarıyırlar.

Zivər

Əziz qardaşım!
Gözüm dumanlanır, hərlənir başım.

Əjdər

Bacıcan, sıxılma, yaram yüngüldür.



Füzuli

Hər yara köksündə bir qızılgüldür.

Əjdər

Azadlıq eşqilə çırpınır könlüm,
Xoşdur el yolunda iztirab, ölüm!

***Pərdə***

**ALTINCI ŞƏKİL**

Kərbəlada Füzulinin evi. Rəfdə qalın cildli kitablar qoyulmuş, bir çox risalələr düzülmüş. Divarlardan Hind, Çin, İran rəssamlarının miniatür və rəsmləri asılmışdır. Aralıqda şam yanır. Füzuli kürsü üzərində oturub azərbaycanca divanını yazır. Hava yavaş-yavaş işıqlanmağa başlayır. Füzuli qızaran şəfəqləri seyrə dalıb pəncərə önündən çəkilir, şama yaxınlaşır, gümüş şamdandakı şamı söndürür, məhzun bir səslə:

Füzuli

Fələk rəhmsizdir, canan pərvasız,
Düşmənim qüvvətli, dövran vəfasız.
Şövqümün günəşi odlu olsa da,
Bütün ümidlərim sovrulub bada.
Bəxtim az, eşqimin bəlası çoxdur,
Sevda yollarının cəfası çoxdur.
Neyləyim, yox mənə bu yolda rəhbər,
Vüsal şərbətimə qatılıb zəhər.
Halım gecə-gündüz pərişan, dalğın,
Alıb qərarımı fəqanı xalqın.

İbrahim daxil olur

İbrahim

Oğlum, yetər artıq, burax qüssəni,
Yuxusuz gecələr üzübdür səni.

Qəm, kədər olubdur yalnız həmdəmin,
Sonsuz iztirabla keçir hər dəmin.

F ü z u l i

Mümkünmü üzülüb dərd çəkməyim mən?
Bir gələn-gedən yox Bağdad elindən.
Bəlkə də unutmuş məni sevgilim,
Nələr söyləyirəm, qurusun dilim.
Vəfasız çıxarmı mənə Əsmərim,
Məlahət sultanı nazlı dilbərim?!

İ b r a h i m

(*qəhvə töküb gətirir*)

Qəhvə iç, bağa çıx, seyr et gülzarı,
Bax gülə, xatırla vəfalı yarı.

(*Füzulinin Azərbaycan dilindəki divanını götürüb varaqlayaraq*)

Yaranır əzminlə divanı eşqin,
Gün gələr ki, bitər hicranı eşqin.

Q a s i d içəri girib, F ü z u l i y ə bir məktub təqdim edir.

Q a s i d

Bağdaddan məktub var!

F ü z u l i

Ah, nə şad xəbər!

F ü z u l i məktubu alır, qasid çıxır.

İ b r a h i m

Aç, oxu!



F ü z u l i

(*Məktubu oxuyan kimi*)

Məhv etdi məni bu sözlər.
Döndü gözlərimdə zülmətə dünya,
Nədən gözəllərdə olmayır vəfa?
Məni tərk eyləmiş sevdiyim canan,
Artıq usanmışam şirin canımdan.

İ b r a h i m

Oğlum, bu sözlərin əsası yoxdur,
Demə gözəllərin vəfası yoxdur.
Eşqə sadiq olar əsil gözəllər,
Heç sənə vəfasız çıxarmı Əsmər?
Onu körpəlikdən tanıyıram mən,
Xəbərsiz deyiləm nəcabətindən.
Əsmərdə gül qədər tapılmaz ləkə.

F ü z u l i

Onu da dəyişib bu dövran bəlkə.
Hanı zəmanədə vəfalı bir yar,
Şöhrətçin gözəllər eşqi tapdayar.

(*Məktubu göstərərək*)

Məktubda yazılıb – sevdiyin dilbər
Valiyə getmişdir. Ah, Əsmər, Əsmər…
Hanı mehribanlıq, dostluq, sədaqət?
Hanı qəlbindəki qızğın məhəbbət?

İ b r a h i m

Ən ağıllı insan bəzən aldanır,
Uydurma bir sözü həqiqət sanır.
Mələk sifətinə girir şeytan, cin,

Bəzən ləkələnir məsum göyərçin.
Qəlbində coşmasın qısqanclıq seli,
Füzuli Məcnunsa, Əsmərdir Leyli.

Füzuli

O keçən aşiqlər xəyalə döndü,
Bir qığılcım kimi parladı, söndü.
Olur hər aşiqin beş gün dövranı,
Mənəm indi yalnız eşqin sultanı.

Bir qoca və bir cavan aşıq çiyinlərində xurcun, əllərində saz içəri girirlər.

Qoca aşıq

Şair Füzulini göstərin bizə,
Bəlkə qüvvət gəlsin ürəyimizə.

Cavan aşıq

Günlərdir düşmüşük susuz çöllərə,
Uca dağ aşmışıq, keçmişik dərə.

Füzuli

Nədir məqsədiniz onu görməkdən?
Məcnunlar sultanı Füzuliyə mən!

Qoca aşıq

(*Füzulini qucaqlayıb bağrına basır*)

Şairim, səni gördüm,
Artıq qalmadı dərdim.
Gözlərimə nur gəldi,
Qəlbimə qürur gəldi.

Cavan aşıq xurcunu açıb içərisindəki bağlamanı çıxarır, Füzuliyə təqdim edir.



Cavan aşıq

Əjdər pay göndərib sizə.

Füzuli

Var olsun,
Dünyalar durduqca bəxtiyar olsun!
Necədir qəhrəman dostumun halı,
Görən əl çəkdimi Əjdərdən vali?!

Qoca aşıq

Sizdən ayrılandan bəri qaçaqdır,
Südü halal olsun, şirdən qoçaqdır.
Evlər yıxdı, qanlar axıtdı vali,
Neçə gözəl kəndi dağıtdı vali.
Köçdü öz yurdundan bir çox kəndlilər,
Aldı heyfimizi zalımdan Əjdər.

Cavan aşıq

O yerdə qoymadı axan qanları,
Qırdı vuruşlarda qudurğanları.
İndi səhraları eyləyib məskən,
Ona qumlu çöllər olubdur vətən.
Bizim də qəlbimiz gəlib həycana
Köçürük yurdumuz Azərbaycana.

Füzuli

Azğın düşmənini məhv etsin Tanrı,
Salmasın Əjdəri ellərdən ayrı!

Qoca aşıq

Ruhu oxşayırsan hər qəzəlinlə,
Bizə yadigar yaz sən öz əlinlə.

Şirin sözlərini salaq tellərə,
Düşsün qəzəllərin bütün dillərə.

Füzuli qəzəllərindən bir neçəsini aşıqlara təqdim edir.

Cavan aşıq

Təbin dalğalansın coşqun Nil kimi,
Sözün ətir saçsın qızılgül kimi.
İzin ver, şairim, ayrılaq səndən...

Qoca aşıq

Məktub göndərərik sənə vətəndən.

Füzuli

Dostlar, uğurlu yol!

İbrahim

Sizə yaxşı yol!

Qoca aşıq

İlahi, sən özün şairə yar ol!
Başqa pənahımız yox səndən qeyri.

Gedirlər. Füzuli onları ötürüb qayıdır.

Füzuli

Kəndli göz yaşıyla suvarır yeri,
Məhsulu hakimlər alır əlindən.
Ellər qurtarmayır bəla selindən.
Ağırdır dərdləri qoca dünyanın,
Artıq adı qalıb zövqü-səfanın.

(*Zivər içəri girir*)

Səni xoş görmüşük, sevimli Zivər!



Zivər

Eşq olsun şairə, sənə xoş xəbər:
Artıq keçdi getdi hicran günləri,
Tale qovuşdurur sənə Əsməri.

Füzuli

Bu bir təsəllidir, ey sərvinazım,
Uşaq tək aldanmaq mənə nə lazım?

İbrahim

Təsəlli özü də başqa şəfadır.

Füzuli

Bəlkə aldanmaq da dərdə dəvadır.
Təsəlli ovutmaz inan, könlümü,
Sevda atəşində yanan könlümü.

Zivər

Sevimli şairə böyük hörmətim,
Doğma qardaş qədər saf məhəbbətim
Çəkib bu yerlərə gətirib məni.

Füzuli

Deyirlər aldatmaz sevən sevəni,
Lakin mənim sənə şikayətim var.
Əsməri yolundan çıxarıb əğyar.
O da Gövhər kimi Valiyə uymuş,
Ah, qəddar sevgilim, vəfan bu imiş?

Zivər

Adına böhtandır o pərizadın,
Varlığıyla sevən bir qız, bir qadın
Sədaqətli olar vəfadarına,
Uymaz yer üzünün bütün varına.

Bir də Vali çatdı öz cəzasına,
Düşdü o qan içən qan dəryasına.
Coşdu el qəzəbi, qopdu bir üsyan,
Ölüm şərbətini içdi hökmran.

Bu zaman carçının uzaqdan səsi gəlir. Səs getdikcə uzaqdan eşidilir.

Carçı

Bilsin böyük, kiçik bütün əhali,
Bağdad ölkəsində dəyişib vali.
Yayılsın hər yana bu yeni fərman,
Onun düşməninə verilir aman.

Bu sözlər yenə təkrar olunur.

Zivər

Bax, bu da sözümə canlı bir sübut,
Sevin, dərdi,-qəmi bu gündən unut.

İbrahim

Belədir əzəldən bu çərxi-dövran,
Seçilməz baharı solğun bahardan.

Füzuli

Bəs Validən sonra Gövhər nə oldu,
Yoxsa qonçalıqda açmadan soldu?

Zivər

Sarayda yaşadı o az bir zaman,
Tale ulduzunu örtü sis, duman,
Vali öz kefini çəkib doyunca,
Qızı bədbəxt etdi ömrü boyunca.



İndi küçələrdə dolanır Gövhər,
Od tutub qəlbindən odlanır Gövhər.

Füzuli

Beş gün cilvələndi o pəri kimi,
Demək indi gəzir sərsəri kimi.
Kim şöhrət düşkünü olsa dünyada,
Həyatda hər zaman satılar yada.

Zivər

Qız var Əsmər kimi – iffət heykəli,
Qız var Gövhər kimi – şöhrətçin dəli.

Füzuli

Nazlı sevgilimin adı gələndə,
Qalmayır nə tavan, nə taqət məndə.
Hər anı il qədər keçir hicranın,
Gedək, vüsalına çatım cananın.

***Pərdə***

## YEDDİNCİ ŞƏKİL

Bağdadda Şahinin evi. Aralıqda bir kürsü qoyulub, üzərində bir kuzə şərab və bir neçə qədəh. Şahi tutqun və qəzəbli görünür.

Pənahi

Mürşüdüm, bu dünya fanidir, fani,
Buraxma əlindən zövqü-səfanı.
Badə iç, düşünmə ki, cahan nədir,
Dövran gərdişinin işi fitnədir.
Dağ kimi kişiydi – nə oldu vali?
Sənə ibrət olsun onun əhvali.

Şahi

Könül atəşini söndürməz şərab,
Mən badə içdikcə oluram xarab.
Pənahi, dərdim çox ağırdır, ağır,
Fələkdən başıma od-alov yağır.
Vali öldürüldü – getdi pənahım,
Başımın sərvəri, qüdrətli şahım!
Ömür budağımdan düşdü min xəzəl,
Qəlbimə uymayır sevdiyim gözəl.
Füzuli yenə də dönür Bağdada,
Neyləyim, çatmadı hiylə imdada.
Yazdığım məktub da etmədi təsir,
İti xəncər kimi məni dərd kəsir.

Pənahi

Özünü itirmə çətin ayaqda,
Tədbir qüdrətilə yıxılar dağ da.
Füzuli aradan çıxsa əgər sən,
Yenə məqsədinə çata bilərsən.

Şahi

Yox onu yıxmağa hünərim mənim,
Hanı vuran əlim, xəncərim mənim?

Pənahi

Bu işçin sanma ki, xəncər gərəkdir,
Bir Gövhər, bir də ki, zəhər gərəkdir.

Şahi

Aha, bu tədbirin xoşuma gəldi,
Bax indi şərab ver, kefim kökəldi.

Pənahi qədəhləri doldurur, içirlər.



Pənahi

Həyatın şərbəti bu acı meydir,
Dünyada hər dərdin əlacı meydir.

Şahi

Görəsən uyarmı sözümə Gövhər?

Pənahi

Dəli bir qadını aldatmaq qədər
Asan şey olarmı? Dil töksən ona
Götürər bu çətin işi boynuna;
İnan ki, yolunda keçər canından.

Şahi

O hər gün evimin ötür yanından.
Vaxt olur görünür bir xəyal kimi,
Dinib danışmayır, gəzir lal kimi.
Vaxt olur titrəyir göylər səsindən,
Batır qulaqların qəhqəhə səsindən.
Açır cəhənnəm tək ağzını hərdən,
Od-alov yağdırır durduğu yerdən.
Bəzən də qoparır yanıqlı nalə,
Donub mat qalırsan ondakı halə.

Pənahi

Sənə də bu gərək: dəliyə yel ver,
Yıxıb dağıtmaqçın əlinə bel ver.

Şahi

Doldur, bir qədəh də içək.

Uzaqdan Gövhərin səsi gəlir.

Ş a h i

Gəlir, bax,
Gəlir şimşək kimi o gurlayaraq.

G ö v h ə r i n səsi

Mənə bir söyləyin yarım hardadır?
Gözüm gecə-gündüz bu yollardadır.
Göyəmi yüksəldi, yerəmi endi?
Yoxsa bir röyaya, xəyala döndü?
Mənə bir söyləyin nə oldu vali?
Nədən güclü gəldi dərdi-zavalı?
Hanı mənim baxtım, gücüm, qüdrətim?
Ayaqlar altına düşdü şöhrətim…

Bu sözlərdən sonra sürəkli qəhqəhələr eşidilir.

P ə n a h i

Bu saat Gövhəri çağırım gəlsin,
Danışaq, tədbirlə hər iş düzəlsin.

P ə n a h i çıxır. Ş a h i bir qədər də mey süzüb içir.

Ş a h i

Tale gülsə yolum laləzar olar,
Üz döndərsə boran olar, qar olar!

Pərişan saçlı, solğun çöhrəli Gövhər Pənahi ilə içəri girir.

G ö v h ə r

Gözüm gecə-gündüz bu yollardadır,
Söyləyin bir görüm insaf hardadır?



Ş a h i

Əyləş, insaf gələr, əyləş darıxma,
Bir qədəh şərab iç qəlbini sıxma.

G ö v h ə r sürəkli qəhqəhələrlə gülür, onun səsini küçədən Ə b u n ə v v a s eşidib içəri girir. Ş a h i onu görən kimi kefi pozulur.

Ş a h i

Bu əzrayıl hardan gəldi yetişdi?

Ə b u n ə v v a s

Bu saat zonbillə havadan düşdü.
Gücsüzdür əzrayıl mey olan yerdə,
Şərab həm sağaldır, həm salır dərdə.
Gah bizi ağladır, gah da güldürür,
Ölünü dirildir, sağı öldürür.

Ş a h i qədəhi doldurub ona verir.

Ş a h i

İndi ki, elədir, al, bir qədəh iç!

Ə b u n ə v v a s

*(qədəhi alır, mənalı baxışlarla süzür)*

İçim, ya içməyim, könül dönmür heç.

Ş a h i

*(qədəhi son damlasına qədər içib yerə qoyur. Piyaləni doldurub Gövhərə uzadaraq)*

Gövhər, al şərabdır ləli-bədəxşan,
İç, qəlbində qəmdən qalmasın nişan.

Gövhər

(*qədəhi alaraq*)

Gözüm gecə-gündüz bu yollardadır,
Mənə bir söyləyin, insaf hardadır?

Əbunəvvas

İnsaf nə göydədir, nə də yerdədir,
Bir məndə, bir sizdə, bir Gövhərdədir.

Şahi

Tikanlı sözləri burax bir yana.

Əbunəvvas

Baş üstə!

Şahi

Pənahi, şərab süz ona.

Pənahi bir qədər mey doldurub Əbunəvvasa, birini də Gövhərə verir. Gövhər şərabı içir, Şahinin Valiyə yazdığı qəsidəsini oxuyur.

Gövhər

Ey həzrəti Vali,
Ey şöhrəti ali!
Qüdrətdə Süleyman,
Sitvətdə Nəriman.
Rüstəm sənə meydanda bərabər ola bilməz.
Sən tək bir igid ər ola bilməz!



Əbunəvvas

Sağ ol, Şahi, böyük istedadın var,
Şairlər içində yüksək adın var.
Sözün dəlilərin olub əzbəri.

Şahi acıqlı baxışlarla Əbunəvvası süzür.

Çaşdım ey, dillərin olub əzbəri.

Pənahi

Xırdavat dükanı olub çənəsi,
Əsla əskik olmur bizi, iynəsi.

Əbunəvvas

Hələ dəmirçiyəm, düzəldib nizə
Sonra qüdrətimi göstərrəm sizə.

Şahi

Sənə üç piyalə, al şərab verdik,
Bütün qüvvətini, gücünü gördük.

Pənahi şərab süzüb Gövhərə verir.

Gövhər

Sən də ümidim tək məhv ol, piyalə.

(*Piyaləni yerə vurur, piyalə sınır.*)

Bax belə, qəlbindən yüksələn nalə.

Şahi

Bütün dərdin-bəlan bununla getdi,
Artıq ümidsizlik səni tərk etdi.
Güllər bax, bu gündən xoş həyat sənə
Verər yenə dostlar qol-qanad sənə.
Birləşib hünərlə yıxsaq düşməni,
Yenə də bəxtiyar görərik səni.

Gövhər

Düşmən kimdir onu göstərin bu an,
Didib dırnağımla salım ayaqdan.

Şahi

Hər işi tədbirlə görmək yaxşıdır.

Pənahi

Hiylə qumarbazın böyük naxşıdır.

Gövhər

Mənə gərək deyil bu bilməcələr,
Gəlir görüşümə cinlər gecələr.
Bir sözümlə ruhlar yıxır dünyanı,
Tökər bircə anda min insan qanı.
Göstərin bir görüm hardadır yağı,
Əmr edim sovrulsun göyə torpağı.

Şahi

Sənə dost göstərir özünü düşmən,
Bilmədən qurduğu tora düşürsən.
Bu qədər əzabın, əziyyətlərin,
Qəlbini sarsıdan fəlakətlərin
Səbəbi bilirsən kimdir?

Gövhər

Xeyr!

Şahi

Bax,
Onu yaxşı bilir bu dostun, ancaq
Çəkinir deməkdən sənə nədənsə.



Gövhər

Aç söylə, o yerin dibinə ensə,
Göylərə yüksəlsə taparam onu,
Mən bir cəllad olub vurram boynunu!

Pənahi

Deməyə adamın heç gəlmir dili,
O düşmən Əsmərdir, bir də Füzuli.

Gövhər

Bu saat əmr edim cinlər Əsməri
Tapıb içirsinlər ölüm zəhəri.

Gövhər ayağa qalxır. Şahi onun yolunu kəsir.

Şahi

Dayan, tələsməyin yoxdur mənası,
Şübhəsiz, xainin çatar cəzası.

Gövhər

Ah, şübhələr, şübhələr,
Ox kimi ürək dələr.
Əsmər deyil düşmənim,
Dostum olmuşdur mənim!

Şahi

Ən yaxın dostları həsəd, rəqabət
Düşmənə çevirir bir gün, nəhayət.
Aşiq olmasaydı vali Əsmərə,
Düşməzdin sən belə ağır günlərə.

Gövhər

Doğrudur, söyləyin bəs nədir əlac?
Qəm-qüssə eylədi ömrümü tarac.
Dünyada almadım bir doyunca kam.

Şahi

Əlac intiqamdır, ancaq intiqam!

(*Göy kaşıdan düzəlmiş bir kuzəni gətirib Gövhərə göstərir*)

Saxla qəlbindəki gizli niyyəti,
Doldur bu kuzəyə ölüm şərbəti.

Cibindən zəhər çıxarıb ona verir.

Qat bunu şəraba, ver "dostlar" içsin.
Bircə an keçmədən dünyadan köçsün.

Pənahi

Afərin, mürşüdüm, sənə afərin,
Mahir ustadısan belə işlərin.

Gövhər

Könül, çatmadınsa əgər murada,
Qoymaram rəqibin gülsün dünyada.

(*Gövhər qalxır, kuzəni götürür yola düzəlmək istəyir.*)

Şahi

Uç bir qartal kimi, sən qanadlı ol,
Lakin bacardıqca ehtiyatlı ol,

(*Əbunəvvasa işarə edərək*)

Pənahi, bununçun tədbirin nədir?



Pənahi

O başdan-ayağa şər və fitnədir.
Atarıq küçədə qalar bir gecə,
Yoldan ötənlərə olar əyləncə.
Onu sərxoş görüb hər yetən vurar,
İtlər ətrafında ziyafət qurar.
Gülər, məsxərəyə qoyar uşaqlar,
Xəlvətcə cibini soyar qoçaqlar.
Soyuqdan küçədə olar bir təhər.

Şahi

Birbaş o dünyaya yollanar səhər.

Əbunəvvası bir palaza bürüyüb, hərəsi bir tərəfindən tutur, küçəyə aparırlar.

***Pərdə***

## SƏKKİZİNCİ ŞƏKİL

Bağdadda Həbibinin bağı. Dalğın çöhrəli Əsmər, çiçəklər arasında gəzir, arabir də oğrun-oğrun yola baxır. Füzulini ilk dəfə gördüyü yerdə dayanıb durur.

Əsmər

Gülmür bu baharda üzümə güllər,
Batır tikan kimi gözümə güllər.
Sənsiz gül dərməyə bağa girəndə
Keçmiş xatirələr canlanır məndə.
Durur göz önümdə keçən görüşlər,
Mehriban baxışlar, incə gülüşlər.
Bu hicran acısı, vüsal həsrəti
Salır xatirimə ilk məhəbbəti.
Gəl, gəl, ey sözləri odlu şairim!

Qəlbi məhəbbətlə dolu şairim!
Sənsiz şadlıq olmaz xanimanımda,
Buludlar çaxnaşır asimanımda.

Həbibi

(*ona yaxınlaşır*)

Yenə gözlərindən oxunur kədər,
Nədən pərişansan, ay qızım Əsmər!

Əsmər

Gecə Füzulini röyada gördüm,
Qayıqda tufanlı dəryada gördüm.
Qoparıb atmışdı tufan yelkəni,
Bir dəhşət, iztirab sarmışdı məni.
Hıçqırıq səsimə yuxudan qalxdım,
Ovub gözlərimi dörd yana baxdım.
Gördüm ki, ətrafa işıq saçır ay,
Küləklər Dəcləyə söyləyir lay-lay.

Həbibi

Xeyirdir, a qızım, görduyün röya,
Qumsallı səhradır tufanlı dərya.
Geniş səhraları aşır Füzuli,
Sevincdən dəniz tək daşır Füzuli...

(*Karvan zənglərinin səsi gəlir*)

Zəng səsi, Bağdada gəlir karvan,
Könlümə damıb ki, bitəcək hicran.

Əsmər

Baldan şirin olur ümidin barı,
Bəlkə qismət oldu, gördüm dostları.

Füzuli, Zivər, İbrahim daxil olurlar. Hamı sevinclə qucaqlaşır.



Füzuli

Hicran günlərindən çəkdiyim qəmlər,
Dövrandan gördüyüm acı sitəmlər
O qədər çoxdur ki, ümmana sığmaz,
Lakin bu sevincim cahana sığmaz.

İbrahim

Keçdi getdi artıq kədərli dəmlər.
Ud çalıb oxusun Əsmərlə Zivər,
Bu günü keçirək zövqü-səfadə.

Füzuli

Bu günün eşqinə qaldıraq badə.

Həbibi

Qaldıraq, nəşəsiz ömür boş keçər.

Zivər

Məclis bağda olsa, daha xoş keçər.
Ancaq ud evdədir, qaçım mən bu an
Gətirim.

Füzuli

Get quzum, sürüsüz çoban,
Silahsız qəhrəman, ordusuz sultan,
Alətsiz çalğıçı göstərməz hünər!

Zivər Əsmərin qolundan tutub Füzulinin yanında əyləşdirir.

Zivər

Mən gəlincə burdan tərpənmə, Əsmər!

Zivər gedir.

Həbibi

Dostlar, mən də gedim tapım Əjdəri,
Onun bu məclisdə görünür yeri!

Həbibi çıxır.

İbrahim

Bağban ayrılanda güldən, çiçəkdən
Elə bil ayrılır canı ürəkdən.
Məni də bağımdan ayırıb yağı,
Çoxdan görməmişəm saldığım bağı.
Qızıl güllərimə dəyməyib əlim,
Gedim bir bağımı dolanım, gəlim.

İbrahim çıxır. Füzuli əlini Əsmərin boynuna salır. Saçlarından öpmək istəyir, Əsmər mane olur.

Füzuli

Qoymur saçlarını öpüm nigarım,
Tük qədər yanında yox etibarım.
Ney kimi vəslini mən yad edərdim,
İnləyib hicrində fəryad edərdim.
Can verib vüsala çatmışam, nədən
Sevgilim, sən məndən üz döndərirsən?

Əsmər

Neyçin gizlədirəm, söyləyim açıq,
Səni sanmayırdım vəfasız aşiq.
Aldığım məktubda yazıblar ki, sən
Başqa bir gözələ könül vermisən.
Odur ki, ürəyim səndən inciyib,
Keçmişdə bir qoca filosof deyib:



Zövq al şairlərin xoş söhbətindən.
Uzaq ol eşqindən, məhəbbətindən,
Şairin sevgisi küləyə bənzər,
Hər an bir gülşəndə dolanıb gəzər.

Füzuli

Heç bir filosofun hikmət kitabı,
Aşiqin çəkdiyi bir iztirabı
Kiçik şair qədər göstərə bilməz!
Bir də hər gözələ könül verilməz...
Şair sevə bilməz gündə bir gözəl,
Lakin bir canana yazar yüz qəzəl.
Bir sözü deyəndə sübut gərəkdir,
Sübut olmayanda sükut gərəkdir.

Əsmər

(*qoltuğundan bir məktub çıxarıb Füzuliyə göstərir*)

Bax, bu da sübutum

Füzuli məktubu gözdən keçirir.

Füzuli

İndi bildin mən,
Bütün fitnələri törədir düşmən.

(*Qoltuğundan məktubu çıxarıb Əsmərə verir*)

Al, bu məktuba da yetir bir nəzər,
Diqqətlə fikir ver, nədir bu sözlər?

Əsmər

(*məktubu alıb baxır, heyrətlə*)

Kimdir bu fitnəni törədən iblis?
Ah, bunu tezliklə öyrənəydik biz!

Füzuli

Gün gələr bilərik, sirr qalmaz pünhan,
Ah, bunu tezliklə öyrənəydik biz!

(*Əsməri qucaqlayıb dodaqlarından öpür.*)

Qönçə dodağının gizli əsrarı,
Sevgilim, ağzımda açılsın barı.

İbrahim

(*Gəlir*)

Nə qədər qönçə var açılıb bağda,
Bülbül şura gəlib ötür budaqda.

Füzuli

Qəlb açır bülbülün şən təranəsi,
Lakin bir qadının odlu nəğməsi
İnsana görünür daha da dilbər.
Zərif dodaqlardan uçan nəğmələr
Əvvəl qəlbimizi yaxıb yandırır,
Sonra ruhumuzu qanadlandırır.

Həbibi ilə Əjdər gəlir. Eyni zamanda bir neçə xidmətçi qız daxil olub süfrə düzəldirlər.

İbrahim

Yığışıb dostların hamı bir yerə,
Qoy indi ruhumuz uçsun göylərə.

Həbibi

Musiqi bəzəsin bu gün məclisi,
Duyaq qəlbimizdə bir sevinc hissi.

Zivər ud çalır. Əsmər Füzulinin qəzəllərini oxuyur. Qəzəl bitən kimi pərişan saçlı, solğun çöhrəli Gövhər əlində kuzə daxil olur.



Gövhər

Bu gül mövsümündə, bahar çağında
Dostlarım kef çəkir gözəl bağında.
Bəs mənim bəxtiyar günlərim hanı?
Vali – o vəfasız sərvərim hanı?
Kimin xəncərinin şikarı oldu?
O hansı məzarın qubarı oldu?
Hamı xidmətində boyun əyərdi;
Kim onu məhv edib torpağa sərdi?!

Füzuli

İnsan ömrü əgər bir saray olsa,
Bir kərpici günəş, biri ay olsa,
Yenə də məhv olar, əbədi qalmaz.

Gövhər

Min loğman gəlsə də dərdim sağalmaz,
Söyləyin, bəxtiyar günlərim hanı?
Vali – o həmdəmim, sərvərim hanı?!

İbrahim

Düşün öz halını, istiqbalını,
Qəm yemə, badə iç, unut valini.

Gövhər

Unutmaqmı onu – unutmaq olmaz!
Yanan qəlbi meylə soyutmaq olmaz!
Könlüm şimşək olub çaxmaq istəyir,
Dünyanı yandırıb yaxmaq istəyir.

Həbibi

Tutaq ki, dünyanı külə döndərdin,
Sənin sağalarmı bununla dərdin?

Ə s m ə r

Əylən dostlarınla, yemə qüssə-qəm,
Gün gələr könlünə tapılar həmdəm.

G ö v h ə r

Mən qibtə edirəm sənə…

Z i v ə r

Boş yerə,
Səni şöhrət saldı belə günlərə.

G ö v h ə r

Olmasa sərvətin, yüksək şöhrətin,
Cəmiyyət içində olmaz hörmətin.

Ə j d ə r

Ey saralmış yarpaq, ey solmuş çiçək,
Xəzan yetişməmiş gəl otur, içək!

Gövhər çiynindəki kuzədən bütün qədəhlərə mey doldurur. Bu zaman Ş a h i ilə P ə n a h i yavaş-yavaş gəlib böyük ağacın arxasında gizlənərək məclisdəkilərə baxırlar.

G ö v h ə r

Çiçək ətir saçar əgər solsa da,
İçək bu badəni zəhər olsa da.

Hamı qədəhləri qaldırır. Bu zaman Ə b u n ə v v a s gəlir, qədəhləri dolu görüb:

Ə b u n ə v v a s

Qızıl qan çanağı kaşı kuzə
Şahidin ərmağan gəlibdir sizə.



Bir insan ömrü var hər damlasında,
İçənin anası ağlar yasında.

Hamı qədəhləri yerə qoyur. G ö v h ə r isə son damlasına qədər içir. İşi belə görüb Ş a h i və P ə n a h i ağacların arasından çıxıb qaçmaq istəyirlər. Ə j d ə r cəld yerindən qalxıb onları yaxalayır, məclisə gətirir, qədəhləri onlara verir.

Ə j d ə r

Alçaq cinayətlər izləyir sizi,
Vali cəhənnəmdə gözləyir sizi.
İçin bu badəni, qovuşun ona.

P ə n a h i

Ey vah!

Ş a h i

Eyhtiyac görülməz buna.
Onsuz da sərxoşam eşq şərbətindən,
Mən bu dilbər qızın məhəbbətindən.

F ü z u l i

Sus, ey cinayətin qanlı heykəli,
Sevgidən uzaqdır xəyanət əli.
Qəlb birdir, sevgi də bir olsun gərək,
Şöhrətçin, sərvətçin çırpınan ürək
Məhəbbət zövqündən olar bixəbər.

İ b r a h i m

Heç sənə layiqmi gül kimi Əsmər?

Əsmər

(*kaşı kuzəni Şahiyə göstərərək*)

Ey zəhərli şahmar, iç gör nədir bu,
Mənə göndərdiyin hədiyyədir bu.
Könlümdə eşqinə var sonsuz nifrət,
Yerlər, göylər sənə yağdırır lənət.

(*Füzulinin divanını götürüb ona göstərir*)

Budur məhəbbətin, eşqin divanı!
Aşiqin vüsalı, dərdi, hicranı,
Qəlbi, düşüncəsi bu kitabdadır!
Gündüzü, gecəsi bu kitabdadır!

Həbibi

Məhəbbət deyildir oyun-oyuncaq.

Zivər

Sevməkçin Füzuli yaranıb ancaq!

Əbunəvvas

Bu kitab yayılar bütün ellərə,
Mənalı sözləri düşər dillərə.
Əsrlərlə yaşar qoca Füzuli,
Görünər dağlardan uca Füzuli.

*Bakı-Buzovna, 1958*



# SEVGİ

*5 pərdə, 7 şəkilli dram*

İŞTİRAK EDƏNLƏR:

Fərhad – Azərbaycanlı memar
Şirin – Azərbaycan gözəli, Fərhadın sevgilisi
Xosrov – İran şahı, Fərhadın rəqibi
Məryəm – Xosrovun arvadı
Şapur – Rəssam
Dilşad – Fərhadın bacısı
Murad – Fərhadın dostu
Sevinc, Könül – Saray qızlarından, Şirinin yaxın dostları
Xosrovun vəziri
Məhinbanu – Şirinin bibisi, Azərbaycan hökmdarı
Ulduzxan – Şirinin vəziri
Aşıqlar, kəndlilər, əyanlar, memarlar, saray qızları və başqaları

## BİRİNCİ PƏRDƏ

### *Birinci şəkil*

Şirinin sarayı. Sevinc və Könül Şirinin boyalarla çəkilmiş bir rəsminə tamaşa edirlər.

Sevinc

Çoxdur ölkəmizdə dilbər gözəllər,
Şairlər onlara yazır qəzəllər.
Aşıqlar onların eşqilə coşur,
Dastanlar yaradır, qoşmalar qoşur.
Lakin bu gül üzlü nazəninlərin
Hamsından dilbərdir, incədir Şirin!
Onun gözəlliyi ağıla sığmaz,
Qələmlə yazılıb nağıla sığmaz!

Könül

Hayıf ki, bu qədər cazibədar qız
Cavanlıq çağını keçirir yalqız.
On səkkiz yaşı var, itirir vaxtı,
Hələ arzulamır gəlinlik taxtı.

Sevinc

Görünür. Kimsəni sevməyir xanım,
Odur ərə getmir.

Könül

Burax, ay canım!
Qız nədir? Eşq nədir? Məhəbbət nədir?
Sənin söylədiyin bir əfsanədir!

Sevinc

Bu çürük fikrinin yoxdur əsası,
Dərindir sevginin, eşqin mənası!
Sevgidir bəxş edən bəxtiyarlığı,
Sevgidir yaşadan bütün varlığı!
Hər qadın duymasa sevgini, məncə,
Onun hissi, zövqü deyildir incə.

Könül

Hissim də incədir, zövqüm də, lakin
Eşqə, məhəbbətə bəsləyirəm kin!
Çünki qadınların eşq bəlasıdır,
Kişilər zövqünün mübtəlasıdır.
Onlarçın sevişmək adi bir işdir,
Hər kişi bir neçə qadın görmüşdür.
Əvvəlcə hər aşiq olur mehriban,
Söyləyir: "Yolunda keçərəm candan!"



Uyub yağlı dilə, sevirsən onu,
Əsiri edirsən azad könlünü.
Azacıq keçincə bu mehriban yar
Çeynəyib hissini edir tari-mar.
Nə məhəbbət bilir, nə mehribanlıq.
Aləm nəzərində olur qaranlıq.
Tökürsən göz yaşı, çəkirsən əzab,
Gül kimi soldurur səni iztirab.
Budur kişilərin eşqi, vəfası –
Şirin məhəbbətin acı mənası!

Sevinc

Bunun nə dəxli var sevgiyə, eşqə?
Əyləncə başqadır, məhəbbət başqa!
Azğın kişilər də var, lakin ay qız,
Bütün kişiləri sanma duyğusuz;
Dünyada vəfalı aşiq az deyil,
Hamı nankör deyil, yaramaz deyil!
Məncə, Şirin kimi nazəndə dilbər,
Axtarar, vəfalı bir aşiq sevər.

Ayaq səsi gəlir.

Könül

Gələn var, deyəsən Şirindir.

Şirin içəri girir.

Şirin

Qızlar!
Yığışın, bir məclis quraq, ulduzlar
Bizim şən məclisə olsunlar heyran,
Şadlıqda keçirək həyatı hər an.

Şirin taxtında, qızlarsa hərəsi öz yerində oturur, musiqi çalınır. Qızlar rəqs eləyirlər. Rəqs bitincə xidmətçi içəri girib baş əyir.

Xidmətçi

Bir nəfər, xanımı görmək istəyir,
Uzaq bir ölkədən gəlmişəm, deyir.

Şirin

Gəlsin!

Şapur içəri girir. Şirinə baş əyir.

Şapur

Nə arzunuz vardır?
Xanım, mən
Səyyaham, gəlmişəm uzaq bir yerdən.

(*Xosrovun şəklini Şirinə göstərir*)

Sizə bu əsəri pay gətirmişəm.

Şirin

Ah, nə cazibəli, füsunkar gözlər…
Sanki cananının yolunu gözlər.

(*Qızlardan soruşur*)

Görəsən xəyaldır, bu, həqiqətdir?

Könül

Xanım, mənə qalsa bu bir sənətdir,
Böyük bir rəssamın əngin xəyalı
Yaratmış bu gözəl, dilbər camalı!

Sevinc

Məncə, bu lövhəni yaradan rəssam
Canlı həqiqətdən almışdır ilham.



Həqiqət olmasa xəyal olmazdı,
Əsrlər boyunca insanlar azdı –
Varlığı başqa bir mənada gördü,
Həyatın zövqunü xülyada gördü.

Şapur

Bədii zövqləri olsa da incə,
Ziddir bir-birinə bu qızlar, məncə.

Şirin

(*Şapura*)

Siz ya rəssamsınız, ya şairsiniz,
Ruhu anlamaqda çox mahirsiniz.

Şapur

Zənniniz, doğrudur, rəssamam!

Şirin

Aha…

(*Xosrovun rəsmini göstərərək*)

Bu zərif əsər də sizindir yoxsa?

Şapur

Əslini yaratmış ulu təbiət,
Mənimdir rənglərlə çəkilmiş surət!

Şirin

Demək ki, həyatdan alınmış əsər?

Şapur

Bəli.

(*ətrafa*)

Odur sizə eyləyir əsər.

Şirin

Yaxından tanışsan bu gənclə bəlkə?

Şapur

O gənci tanıyır böyük bir ölkə!
Dan ulduzu kimi parlayır bəxti,
Onundur İranın sabahkı təxti.
Odur Hürmüz şahın əziz övladı:
Qəhrəman Xosrov-Pərvizdir adı!
Aslanlar ovlayan Xosrov-Pərviz
Olmuşdur əbədi bir əsiriniz.
Sizsiniz ömrünün əziz baharı,
Sizsiz bir dəqiqə yoxdur qərarı!
İcazə versəniz o bu gün gələr.
Sizinlə görüşər.

Şirin

Gəlsin! Xoş gəlir!

Şapur

(*ətrafa*)

Aha, yavaş-yavaş işlər düzəlir.

Şirin

Atadan, babadan bizdə adətdir,
Deyirlər ki, qonaq evə zinətdir.



Şapur

Sizi xoş çağında yaradıb qüdrət!
Sizdə var sadəlik, incə şeriyyət.
Baxışlarınızdan oxunur qürur,
Sizin kimi gözəl görməyib Şapur.
Sizi yetişdirən ölkə var olsun!

(*Qalxıb getmək istəyir*)

Hələlik sağ olun!

Şirin

Uğurlar olsun!

Şapur gedir. Şirin Xosrovun şəklinə baxaraq

Şirin

Belə gözəl isə Xosrov şahzadə,
Məncə, tay tapılmaz ona dünyadə.

Könül

Ağıllı heç sanar qəlp gözəlliyi
Hər şeydən yüksəkdir qəlb gözəlliyi.

(*Xidmətçi içəri girib baş əyir*)

Xidmətçi

Məhinbanu gəlir!

Şirin və qızlar tez ayağa qalxıb Məhinbanunu qarşılayır, ona baş əyirlər.

Məhinbanu

Əzizim Ş.rin!
Şübhəsiz, deyilsən sən də xəbərsiz,
Gəlir sarayına Xosrov-Pərviz.
Deyirlər vurulmuş sənə ürəkdən,
Onun sevgisinə çox inanma sən!
Qızım, eşqə düşmək xəta deyildir,
Sevilmək gənclərçin bəla deyildir…
Təbii haqqıdır sevgi gənclərin,
Lakin eşqin olur girdabı dərin!
O girdaba düşmək deyildir asan,
Orda məhv olmuşdur minlərlə insan!
Sevərkən gör kimi sevirsən əzəl,
Yoldan çıxarmasın səni hər gözəl!
Doğrudur, Xosrovda böyük qüdrət var,
Əzizim, səndə də yüksək şöhrət var.
O, hakimsə əgər bütün İrana,
Sən də hökmdarsan Azərbaycana!

Şirin

Görməsəm Xosrovda əgər dəyanət,
Ölkəmə, eşqimə etsə xəyanət,
Edib sevgisinə, eşqinə nifrət,
Ürəkdən Bəsirəm ona ədavət!

Məhinbanu

Hər şeydən yüksəkdir andımız bizim!

(*Qalxıb, getmək istəyir*)

Sağ ol, mən gedirəm daha, əzizim.

Şirin

Adınla öyünsün daima ölkən,
Üstümüzdən əksik olmasın kölgən!

Məhinbanu gedir.



Şirin

(*Könül və Sevincə*)

Gün batdı, bir xəbər yoxdur Xosrovdan!
Görəsən səlamət dönübmü ovdan?
Bizim meşələrdə vardır aslanlar,
Qorxunc canavarlar, vəhşi qaplanlar
Rast gələr Xosrova şirdən, bəbirdən,
Ovda bir hadisə üz verər birdən?!

Sevinc

Xumar gözlü ceyran ovlayan qoçaq
Pələngdən, bəbirdən, şirdən qorxacaq?
Bir könül ovlasa kim məhəbbətlə,
Yüz aslan ovlayar, məncə, qüvvətlə!

Könül

Ay Sevinc, yenə də sən aldanırsan,
Aslanı, pələngi pişik sanırsan.
Aslan ovlamaqçın ər gərəkdir, ər!
Şirlər meydanında nər gərəkdir, nər!
Könül ovlamaq çox sadə bir işdir…
Qızların evini yıxan gülüşdür!
Mən oğlan yaranmış olsaydım əgər
Ovlardım yüzlərlə gülüzlü dilbər.

Sevinc

Öyünmə, sən oğlan olsaydın, məncə,
Ovlaya bilməzdin bir çolaq sərçə.

Xidmətçi içəri girir, baş əyir.

Xidmətçi

Xanım, Xosrov gəlir.

Ş i r i n

Buyursun, gəlsin!

(*Sevinc və Könülə*)

Çıxın qarşısına!

(*Başqa qızlara*)

Məclis düzəlsin!

X o s r o v  Ş a p u r ilə bərabər içəri girir.

X o s r o v

(*Şirinə*)

Odlar ölkəsinin nazlı dilbəri,
Gözəllər gözəli füsunkar pəri,
Sevimli Şirinə odlu salamlar!

Ş i r i n

Var olsun qüdrətli, əziz şəhriyar!
Səfa gətirmişdir bizim ellərə.

Ş a p u r

Can qurban bu şirin, şəkər dillərə!

*Ş i r i n  X o s r o v u və Ş a p u r u yuxarı başda əyləşdirir.*

Xosrov

Bu can qəfəsində çırpınan könül
Bir şeyda bülbüldü, axtarırdı gül.



O gülü tapınca Azərbaycanda
Uçdu, şadlığından qalmadı canda.

Sevinc

(*ətrafa*)

Nə qədər mehriban, qəlb alan sözlər…

K ö n ü l

(*ətrafa*)

Heç məni açmayır bu yalan sözlər!..

X o s r o v

(*qədəhi qaldırır*)

Ürək bir qədəhdir, məhəbbət badə,
Şərabçın yaranmış qədəh dünyadə,
İçək bu badəni sevda eşqinə!

Ş i r i n

Məhəbbət naminə, vəfa eşqinə!

(*İçirlər, qədəhləri bir də doldururlar*)

X o s r o v

Nə dərdlər çəkirdim hicran əlindən,
İndi mey içirəm canan əlindən.
Cananla mey içmək cana minnətdir,
Həyatın ləzzəti eşq, məhəbbətdir!

Könül

(*ətrafa*)

Dilsizə dil verən bu lal şərabdır,
Səni dilləndirən bu al şərabdır!

Şirin

(*Könül və Sevincə*)

Oxuyun, məclisə inci saçılsın,
Əziz qonaqların qəlbi açılsın!

Könül

(*oxuyur*)

Bir bülbüldüm, səndin gülüm,
Saçındaydı dəli könlüm,
O füsunkar saçlarınla
Yaxdın məni, qaldı külüm.
Uyub sevgi havasına,
Düşdüm eşqin dəryasına.
Gördüm ki, bel bağlanmazmış
Gözəllərin vəfasına!
Dedim, könül, azad yaşa,
Vuruldun bir qələm qaşa;
O duymadı məhəbbəti,
Ümidini çaldı daşa.

Sevinc

(*oxuyur*)

Eşq öylə bir atəşdir ki,
Könül yaxmaz, saçar işıq.
Eşq öylə bir günəşdir ki,
Həyat alır ondan aşiq.



Məhəbbətin havasında
Ruh oxşayan sərinlik var,
Eşqin ongin dəryasında
Səma qədər dərinlik var!
Sevinc deyir, aşiq olan
Canan üçün candan keçər.
Həyatından qalsa bir an
O dəyərli andan keçər!

Şirin

Kamanlar səslənsin incə avazla,
Qızlar rəqs eyləsin məclisdə nazla!

Bir dəstə qız rəqs eləyir, rəqs bitincə

Xosrov

Bu odlar yurdunun incə qızları
Andırır göydəki şən ulduzları…

(*Şirinə*)

Sənsə ipək telli dilbər günəşsən,
Qəlbləri əridən qızğın atəşsən!

Xidmətçi

(*içəri girir, baş əyir*)

İran ölkəsindən gəlmişdir çapar.

Şirin

Çağır gəlsin!

Xosrov

Yəqin təzə xəbər var.

Çapar içəri girib baş əyir. Məktubu Xosrova verir. Xosrov məktubu açıb ucadan oxuyur.

İran vəzirindən bu bir kağızdır:
Ömrə bu aləmdə etibar azdır,
Bütün yarananlar dünyadan gedir,
Yaradan insanı yenə məhv edir.
İran şahzadəsi Xosrov sağ olsun!
Nəşəli qəlbindən qəm uzaq olsun!
İranın qüdrətli, şöhrətli şahı,
Kəyan tacidarı, yerin allahı
Atanız Hürmüz şah elədi vəfat.
Haqq versin ruhuna əzabdan nicat!
Şahzadə! Siz ikən taxtın varisi,
Bu gün yer üzünü ulu tanrısı,
Alçaqlar alçağı Bəhram kələklə
Sizin taxtınızı keçirib ələ.
Onun tərəfinə keçib əyanlar,
Saray adamları, qüdrətli xanlar.
Bəhram hazırlayır çox qoşun-ləşkər,
Əlinə düşsəniz sizi məhv edər.
Düşünün, bu işə tapın bir əlac,
Qalmasın Bəhrama qızıl təxtü-tac!

(*Xosrov məktubu oxuyub gözləri dolur, həyəcanla*)

Aman, bu xəbərdən sarsıldı könlüm,
Ölüm, mənhus ölüm, amansız ölüm
Səni övladından ayırdı, ata,
Lənət bu həyata, bu kainata!



Şapur

Qəm yemə, sevimli, əziz şahzadə!
Əbədi yaşayan kimdir dünyadə?!
Ölümdür insanı salan heyrətə,
Ölüm qalib gəlir bəşəriyyətə...

Xosrov

Deməк, həsrət qaldım mən tacü-təxtə,
Lənət bu taleyə, lənət bu bəxtə!

Şirin

Darıxma, qəlbini sıxma, şahzadə!
Çətinlik görməsə insan dünyadə
Xoş keçən günlərin qədrini bilməz.
Mərd olan tək qalsa belə, əyilməz!
Sənə nə mülkədar, nə xan gərəkdir,
Döyüş vaxtı qılınc, qalxan gərəkdir!
Xanlar, mülkədarlar küləyə bənzər,
Təzyiq olan yerdə dolaşar, gəzər.
Yanılıb taleyə, bəxtə inanma,
Qəflət yuxusuna batıb aldanma!
Acizlər taleyə inanar fəqət,
Yıxar hər qalanı iradə, qüvvət!
Çətinlik zamanı qılıncdan yapış,
Topla iradəni, düşmənlə çarpış!

Xosrov

Aslanlar ovlayan Xosrov-Pərviz
Çökməz düşmənlərin qabağında diz!
Görər hünərimi meydanda yağı,
Bu cəsur qartalın sənsən dayağı!
Mənə vədə versən vəslinçün, ey yar,
Əyilər önümdə dikbaşlı dağlar!

Şirin

Meydandan zəfərlə qayıtdığın gün,
Mən sənin yarınam, başla toy-düyün!

***Pərdə***

**İKİNCİ PƏRDƏ**

***İkinci şəkil***

Azərbaycan kəndlərindən biri, gözəl mənzərəli bir yerdə bir dəstə adam bahar şənliyi keçirir. Fərhad da onların arasındadır.

Qoca kəndli

Başqa bir aləmdir doğrudan bahar!
Açınca çiçəklər, ötüncə quşlar
Ömür təzələnir, gəncləşir könül,
Qəlbə qanad verir hər çiçək, hər gül.

Kəndli

Məhəbbət eşqilə, bahar eşqilə
Gəlsin bülbül kimi aşıqlar dilə!
Qoy çalıb oxusun, incə səsindən
Açılsın bağçada gül həvəsindən.

Dilşad

Sazını əlinə alsın aşıqlar!
Fərəhlə oxuyub çalsın aşıqlar.
Kəndə qonaq gəlib qardaşım Fərhad,
Dinləsin mahnını, qəlbi olsun şad!



Birinci aşıq

Şadlıq verməkçin elə
Sazımı aldım ələ.

(*Saz çalıb oxuyur*)

Gözəllər gözəli, seyrə çıx bağa,
Öpsün ayağını lalələr, güllər!
Yolunda canını etsin sadağa,
Dolansın başına nazlı bülbüllər!

Gözündən dərs alsın nərgiz qəmzəni,
Xalın heyran etsin şux bənövşəni,
Sallana-sallana dolan gülşəni, –
Əsməsin küləklər, dayansın yellər!

Əyilsin qarşında sərvü-xuraman,
Çiçəklər rəng alsın al yanağından.
Ənbər saçlarını görsün pərişan,
Dağılsın çəməndə incə sünbüllər.

Kəndlilər

Aşıq bəxtiyar olsun,
Dünyalarca var olsun!

İkinci aşıq

Mən də aldım sazımı,
Dinləyin avazımı!

(*Çalıb oxuyur*)

Sən qönçə dodaqlı şən bir dilbərsən,
Baxışlarındakı məna gözəldir!
Sevimli, sevdalı bir nilufərsən,
Səndəki zəriflik, əda gözəldir!

Bir dan yeli kimi ruhumda əsən, –
Eşqindən pay ummaq istəyirəm mən,
Gəl xəbərsiz olma məhəbbətimdən,
İncə gözəllərdə vəfa gözəldir.

Sevən könüllərdə var mehribanlıq,
Eşqin fəzaları deyil qaranlıq,
Sevginlə oxşasan məni bir anlıq
Sanaram hər şeydən sevda gözəldir!

Dilşad

Bizim aşıqların kefi çağ olsun,
Baxtı parlaq olsun, üzü ağ olsun!

Kəndli

İndi də saz çalın, qızlar oynasın,
Qaynar bulaq kimi coşsun, qaynasın!

Aşıqlar oyun havası çalır, qızlar, oğlanlar oynayırlar. Bu halda bir at görünür. Fərhad cəld qalxıb atı tutur.

Fərhad

Görəsən kimindir bu gözəl kəhər?
Bu bəzəkli, yüyən, bu qızıl yəhər –
Saray atlarına bənzədir onu.
Burub ceyran kimi zərif boynunu.
Baxır dalğın-dalğın yolu gözləyir,
Yəqin ki, sahibi onu izləyir?!

Kəndlilər ata yem verirlər. Bu halda Şirin qan-tər içində gəlir.

Qoca kəndli

Deyəsən Şirindir bu gələn xanım!



Kəndli

Şirin buralara tək gəlməz, canım.

Qoca kəndli

Gələr, eşitmişəm ova çox zaman
Tək çıxır, görünür bu gün ovlaqdan
At qaçıb, o gəlib kəndə piyadə.

Şirin yaxınlaşır, hamı ona tərəf gedir.

Şirin

Salam!

Kəndlilər

Xoş gəlibdir bura şahzadə!

Şirin

Sağ olun, həmişə kefdə, damaqda!
Hörükdən açıldı atım ovlaqda,
Yox oldu, nə yaxşı rast gəlib sizə,
Yoxsa qalacaqdım mən gəzə-gəzə.

Fərhad

İndicə gördüm ki, bu dəli ceyran
Kişnəyir, dörd yanı dolanır heyran.
Xoşlandım kədərli, məlul halından,
Ona yaxın getdim, tutdum yalından.

Şirin

Sağ ol, minnətdaram sənə ürəkdən!

Fərhad

Sizə xidmət edən aciz qulam mən.
Min il gözəllərçin çalışsa Fərhad
Yorulmaz, daha da qəlbi olar şad!

Qoca kəndli

Bu bir təsadüfdür, şahzadə hər vaxt
Bizi gəlişiylə eyləməz xoşbaxt,
Şikayət eyləyin, qoy xanım sultan
Bizim dərdimizə eyləsin dərman!

Şirin

Açsın ürəyində kimin dərdi var,
Elin kədərindən olum xəbərdar.

Qoca kəndli

Koxa öküzümü aparıb mənim,
Elə bil qəlbimi qoparıb mənim.
Yoxsul bir kəndliyə öküz dayaqdır.

İkinci kəndli

Bizim koxamızın işi lap ağdır!
Aparıb mənim də dünən atımı,
Elə bil sındırıb qol-qanadımı.

Üçüncü kəndli

Mənim inəyimi alıb qudurğan.

Dördüncü kəndli

Çəkir başımızda bizim dəyirman,
Töycüdən yarılıb, qandır bağrımız,
Dərmanla sağalmaz bizim ağrımız!



Şirin

Gedin, tez çağırın bura koxanı!

Qoca kəndli

Biz ona söz desək qaralar qanı.

Bu halda Koxa gəlir.

Qoca kəndli

Odur, özü gəlib çıxdı, indi, bax
Gör nə dil tökəcək xanımçün qoçaq!

Koxa

(*Yaxınlaşır. Şirinə baş əyir*)

Şahzadə nə əcəb eli yad edib?
Xoş gəlib, ürəkdən bizi şad edib!

Şirin

(*kinayə ilə*)

Sağ ol, çox çəkirsən dərdini elin,
Hələ danışmağa sənin var dilin?

Koxa

Şahzadə...

Şirin

(*onun sözünü kəsir*)

Başqa söz gərək deyildir!
Elin arxası var, el tək deyildir.
Yığışıb kəndlilər versə əl-ələ,
Bir anda külünü sovurar yelə!

Sanma sahibsizdir bu torpaq, bu yer,
Get, bu kəndlilərdən nə almısan, ver!
Sonra danışaram sənin barəndə.
Qudurğanlıq həddi aşıbdır səndə!

K o x a

(*qorxaraq kəndlilərə*)

Gedək!

Ş i r i n

(*kəndlilərə*)

Gedin, alın öz malınızı,
Banuya söylərəm mən halınızı.

K ə n d l i l ə r

Çox sağ ol!

(*Kəndlilər gedir. Fərhad tək qalır*)

Ş i r i n

(*Fərhada*)

Sən neçün getmədin, məgər
Koxadan dəyməyib sənə bir zərər?

F ə r h a d

Mən rəncbər deyiləm, xanım, memaram.

Ş i r i n

Demək şikayətin yoxdur?



F ə r h a d

Var, yaram
Könül yarasıdır, çox dərindədir,
Mənim şikayətim gözlərindəndir!
Kəskin baxışların bir şahin kimi
Göyərçin qəlbimin oldu hakimi.
O səf-səf düzülmüş kirpiklərindən
Qəlbim yaralandı minbir yerindən.

Ş i r i n nazla F ə r h a d a baxır, heç bir söz demədən atına minib yola düzəlir. F ə r h a d onun ardınca baxır.

F ə r h a d

Xoşbəxtlik zamanı sürdü bircə an,
Qəlbimi qoparıb apardı canan!

Ağacların arasından bu sözləri dinləyən M u r a d gəlib əlini F ə r h a d ı n çiyninə qoyur.

M u r a d

Şirinlə sevgidən danışırdın sən,
Əzizim, doğrudan çox cürətlisən.
Şahzadə bir qızla sevişmək, məncə,
Böyük bir hünərdir, deyil əyləncə!

F ə r h a d

Qadınlar hökmüdar olsalar belə
Xoş sözlə qəlblər alınar ələ!
Bir də ki, sevgidə nə çoban, nə xan?!
Sevənlər ayırmaz qulu sultandan!

M u r a d

Bu düzdür, lakin sən sevsən də onu,
Şəksiz, bu sevginin bir heçdir sonu.
Sevgi iki başlı olmasa əgər
İnsan o sevgidən bəlalər çəkər.
Odur ki, özünü nahaq yorma heç,
Gəl bu əziyyətli məhəbbətdən keç!

F ə r h a d

Nə bilirsən məni Şirin sevməyir?
Bunu sənə cinlər, şeytanlar deyir?
Məhəbbət qəlbdədir, görünməz gözlə!

M u r a d

Qəlbi görmək olar mehriban sözlə,
Şirinə anlatdın iztirabını,
Bir sözlə vermədi o cavabını.

F ə r h a d

Şirinə qəlbimi açdım niyazla,
O, söz deməsə də baxdı çox nazla.
O baxış kəskindi iti almazdan.
Yarın bir baxışı söylər min dastan.
Gənc qızlar sevgidə olar utancaq,
Eşqini kədərlə keçirər ancaq.

M u r a d

Qızın meyli olmuş olsa da sənə
Bu işdə vasitə lazımdır yenə.
Vasitə olmasa, keçsə də illər,
Şübhəsiz, birləşməz sevən könüllər!



F ə r h a d

Vasitə iradəm, mətanətimdir,
Şirinə səmimi məhəbbətimdir.
Dözərəm hicrana, dərdə, məlala,
Çalışıb çataram bir gün vüsala.

***P ə r d ə***

## ÜÇÜNCÜ PƏRDƏ

### *Üçüncü şəkil*

X o s r o v u n sarayı. X o s r o v və M ə r y ə m

M ə r y ə m

Bu qədər vəfasız bilməzdim səni,
Belə incidərmi sevən sevəni?
Hanı o məhəbbət, o keçmiş sevda?
Nədən kişilərdə olmayır vəfa?
Mən varkən, sevdin sən başqa bir gözəl,
Yetməzmi əcəba, eşqə bir gözəl?!
Könlümü oyuncaq kimi oynatdın,
Sonra parçaladın, heçliyə atdın!

X o s r o v

Bu boş fikirlərə uyma, ay Məryəm!
Yıxılsa, məhv olsa əgər bu aləm,
Sənindir yenə də varlığım, qəlbim;
Yoxdur səndən başqa mənim sevgilim!..

M ə r y ə m

Hər şeyi bilirəm, gəl etmə inkar.
Sənə məktub yazıb sevdiyin dildar:
Bilsən o məktubda nələr var, nələr.
Necə kinayələr, necə tənələr…

Xosrov

(*maraqla*)

Ver görüm məktubu!

Məryəm

Aha! İndi mən
Yəqin şübhələnə bilərəm səndən!
Əvvəlcə hər şeyi rədd edib dandın,
Məktub deyən kimi sən maraqlandın,
Heç bir məktub yoxdur!

Xosrov

Demək hiylədir?

Məryəm

İşi bilmək üçün bu vəsilədir!

Xosrov

Burax zarafatı, əzizim Məryəm!

Məryəm

(*acıqlı*)

Qəlbimi gəmirir mənim qüssə, qəm!
O bunu zarafat sanır, al, oxu!
Məni aldatmaqçün bir yalan toxu.

Hirslə Şirindən gələn məktubu Xosrovun üstünə atır,
Xosrov məktubu alıb oxuyur.



Məryəm

İnsana yaxşılıq yoxdur dünyada,
Taxtın, səltənətin getmişdi bada!
Könüldə fırtına, dildə soyuq ah,
Bizim ölkəmizə gətirdin pənah.
Atam qarşıladı səni hörmətlə,
Sözünü dinlədi xeyli diqqətlə.
Böyük ordu verdi, sənə pul verdi,
On min kəniz verdi, on min qul verdi.
Atamın gözünün qarasıyam mən,
Əzizim, qəlbinin parasıyam mən!
Sənin o daş qəlbin xoş olsun deyə,
Üstəlik məni də verdi hədiyyə.
Gəldin ordumuzla basdın düşmanı,
Bəhramı-Çubindən aldın İranı.
İndi səltənətin, təxtin, tacın var,
Tapmısan özünə başqa bir nigar.

Xosrov

Bu yersiz sözləri dilinə alma,
Əzizim, hər şeyi qəlbinə salma!
Bir qız vardı, onu sevirdim əvvəl,
Səninlə evləndim, o dilbər gözəl
Unuduldu, artıq onu sevmirəm!
Əmin ol, sevgilim, əmin ol, Məryəm!
Yoxdur səndən başqa mənim dildarım,
Şənsən əziz yarım, pərəstişkarım!

Məryəm

Əgər elə isə o məktub nədir?

Xosrov

Oxuyub gördün ki, dolu tənədir,
Olsaydı Şirinlə dostluğum əgər

O mənə yazmazdı böylə tənələr.
Sənin ittihamın əsaslı deyil!

(*Kölə gəlir*)

Yanıma gələn var, hələlik çəkil.

Məryəm əndəruna çəkilir.

Kölə

(*baş əyərək*)

Şapur gəlir.

Xosrov

Gəlsin!

Şapur içəri girir, salam verir. Xosrov onu gülərüzlə qarşılayıb, yer göstərir.

Xoş gördük, buyur!
Çoxdan görünmürsən, əzizim Şapur!

Şapur

Sənət xadimiyik, adətdir bizdə,
Bəzən öz xüsusi aləmimizdə
Yaşayıb, bilmərik bu aləm nədir!
Sevinc-şadlıq nədir, qüssə-qəm nədir.

Xosrov

Deməк o aləmdə yaşayırdın sən?

Şapur

Bəli, çalışırdım, bu gün əlimdən
İşimi qurtardım, indi mən boşam.
İlham badəsilə məstəm, sərxoşam!



Xosrov

Nə çəkmisən, hanı çəkdiyin əsər?

Şapur Şirinin gözəl bir rəsmini Xosrova göstərir.

Şapur

Budur, bax!

Xosrov

Ah, Şirin, o nazlı dilbər!
Mən sənə vəfasız çıxdım, peşmanam.
Tutduğum işimə indi düşmanam.
Aldatdı qəlbimi başımın tacı,
Bir ərkən qadının oldum möhtacı!
Məryəm hakim oldu mənə, nə dəhşət!
Yeri var, eşqimə bəsləsən nifrət.
Yazdığın tənədə haqlısan şirin,
Şirindir yazdığın tənələr şirin!..
Ömür baharımı sarsa da tufan,
İnan, əl çəkmərəm eşqindən bir an!
Şapur, əlac elə, qardaşım, əlac!
Ümid qapısını gəl üzümə aç.
Şirinlə barışdır məni bir təhər.

Şapur

Qəm yemə, tədbirlə üzələr işlər.
Şirinçin bir gözəl saray tikməklə
Qırılmış qəlbini alarsan ələ.

Xosrov

Neynəyirsən elə, işim düzəlsin.
Könlümün arzusu tez başa gəlsin!

Şapur

Mənim Fərhad adlı bir dostum vardır,
Böyük sənətkardır, məşhur memardır.
Yayılıb şöhrəti uzaq ellərə,
Düşübdür tərifi bütün dillərə.
Ona tapşıraram, çəkməz bircə ay
Tikər sevgilinçün gözəl bir saray.

Xosrov

Çətinlikdə kömək edər dost-dosta,
Çağır gəlsin bura o böyük usta!

(*Şapur baş əyib çıxır. Xosrov yalnız*)

Könül nə canandan, nə yardan keçir,
Nə dövlətdən keçir, nə vardan keçir!
Məryəm sahib etdi məni İrana,
Şirinsə hakimdir Azərbaycana.
Şirindənmi keçim mən, Məryəmdənmi?
Biri qəlbin dostu, biri həmdəmi.
Məryəmi tərk etsəm yenər qüdrətim,
Şirinlə evlənsəm artar şöhrətim.
Nə qədər çıxılmaz vəziyyətdəyəm,
Özüm də bilmirəm nə niyyətdəyəm!

Vəzirlər, əyanlar içəri girib Xosrova baş əyirlər.

Xosrov

(*vəzirə*)

Hökumət işləri necədir, vəzir?

Vəzir

Dünəndən fərraşlar kəndləri gəzir,
Bütün kəndlilərdən toplayır xərac,
Bəhram çox kəndləri eyləyib tarac.



Yoxsul kəndlilərdə tavan qalmayıb,
Çoxları cütünü işə salmayıb.
Odur ki…

Xosrov

(*onun sözünü kəsir*)

Bu sözlər bütün əbəsdir!
Kim vergi verməsə yeri məhbəsdir!

Bir pəhləvan içəri girir, üç-dörd kəndli, qadın-uşaq gətirir.

Pəhləvan

(*Xosrova*)

Yurdundan qaçırdı bu altı kəndli.
Hələ bu qabaqda gördüyün dəli
Bizim nökərləri tutub döyürdü,
Kəndxudanı, məni, xanı söyürdü.
Gec gəlib çatsaydım kəndə mən bir az
Aləmi yıxardı bu vəhşi qanmaz!

Kəndli

Qanmaz sən özünsən, ay axmaq kişi!
Şaha yalan demə, düz danış işi.
Kəndxudanı yıxıb bərk döyəcəkdim,
Sən gəldin, sənə də bir çomaq çəkdim.
Üstümə töküldü otuz beş nəfər,
Əllərində qılınc, kaman, ox, xəncər…
Yer-yerdən aldılar məni araya,
Tutub gətirdilər axır saraya.
Silahım olsaydı, quldurların mən
Yüzünün gələrdim tək öhdəsindən.

Xosrov

Yaxşı, söylə görək neçin qaçırdın?!
Neçin pəhlovana sən əl açırdın?

Kəndli

Yıxdı evimizi qanlı döyüşlər!

Xosrov

Qanlı döyüş demə, şanlı döyüşlər!

Kəndli

Sizinçün şanlıdır, bizimçün qanlı,
Keçir həyatımız çünki dumanlı.

Xosrov

Yaxşı, söylə görək, mənə düz söylə,
Yığışıb sən hara qaçırdın böylə?
Yurdundan qaçmağa səbəb nədir, nə?
Neçin el içinə salırsan fitnə?

Kəndli

Səbəbi budur ki, əvvəlcə Bəhram
Bizə yaşayışı eylədi haram,
Mal-qara qoymadı, çokdi apardı,
Kənddə bir qiyamət, tufan qopardı,
Sizinlə döyüşdü, döyüş zamanı
Ara yerə axdı kəndlinin qanı!
Sonra siz hökmüran oldunuz bizə,
Zənn etdik gecədən çıxdıq gündüzə.
Lakin bu zənnimiz bizim yanlışdı,
Çünki zülmün odu daha qızışdı.



Elin ürəyində vardı bir yara,
Gəzib axtarırdı, buna bir çara.
Hökmüran olunca sən də qudurdun,
Yaranın üstündən bir yara vurdun!
Olmuş vətən bizə qaranlıq zindan,
Həyatda üzümüz gülməyir bir an!
Yanğın olan yerdən yüksəlir tüstü,
Quşların da olsa yuvası isti,
Tərk edib, yəqin ki, getməz heç yana.

Xosrov

(*nökərlərə*)

Aparın bunları, salın zindana!
Sizə isti yuva zindandır ancaq!

Nökərlər kəndliləri aparırlar. Kəndlilər gedərkən

Birinci kəndli

Cəlladlar başçısı, zülümkar alçaq!

İkinci kəndli

Atan da bu xalqı eyləmişdi zar.
Axırda son yeri nə oldu – məzar!

Kəndliləri çölə çıxarırlar. Bir pəhləvan içəri girib Xosrova baş əyir.

Pəhləvan

Kəyan tacidarı, Xosrov sağ olsun!
Artsın hər zəfəri, yüksək dağ olsun!
Dünyanı tərk etdi düşmanım Bəhram,
Qoy olsun bu gündən ürəyin aram!

Xosrov

Onun qürurunun ölçüsü yoxdu.
İştahası böyük, tamahı çoxdu!
O kor taleyinə uyub inandı,
Təxti, səltənəti oyuncaq sandı!
Tülkülüklə olmaq istədi aslan,
Bilmədi şah olmaq deyildir asan!
Elə ki, onunla üz-üzə gəldim,
Gücümü meydanda görüncə qaçdı,
Qorxudan kədəri başından aşdı.
Getdi, qürbət eldə qaldı, can verdi,
Qəlbində arzusu məzara girdi!

Kölə

(*içəri girib baş əyir*)

Şapur gəlir.

Xosrov

Gəlsin!

(*Şapur içəri girincə*)

Bəs Fərhad hanı?!

Şapur

Deyirlər, tərk edib Fərhad İranı,
Gedib Odlar yurdu Azərbaycana.
İcazə ver mənə, gedim Şirvana,
Fərhadla danışım, sonra bərabər
Şirinlə görüşək, o nazlı dilbər
Harda əmr eyləsə saray salınsın!



Xosrov

Çalış, yarın qəlbi ələ alınsın!

Şapur

Bu gün yola düşüb gedirəm, sağ ol!

Xosrov

Xoş xəbərlə qayıt, get, uğurlu yol!

***Pərdə***

**DÖRDÜNCÜ PƏRDƏ**

***Dördüncü şəkil***

Şirinin sarayı, Könül və Sevinc

Könül

Gördün, nə bəlalər gəlir sevgidən.
İndi haqlıyammı düşüncəmdə mən?
Şirin kimi gözəl, sevimli dilbər
Çəkdi məhəbbətdən nə dərdlər, qəmlər!
O əgər Xosrova inanmasaydı,
Eşqə, məhəbbətə aldanmasaydı,
Batmazdı girdablı qəm dəryasına.

Sevinc

Məhəbbət bağlıdır yar vəfasına!
Xosrov göstəribsə eşqə xəyanət,
Vicdanən alçalıb, edib cinayət.
Bunun məhəbbətə nə dəxli vardır?
Məhəbbət aləmi bir çəmənzardır!

Bitir o çəməndə həm tikan, həm gül,
Gül eşqilə qonur budağa bülbül.
Toxunur qəlbinə bəzən tikanlar.
Odur ki, qoparır acı fəğanlar.

Şirin gəlir. Hər ikisi baş əyib bir tərəfdə dururlar.

Şirin

(*Sevincə*)

Bu gün məsləhətçün məclis düzəlsin,
Vəzirlər, əyanlar yığışsın, gəlsin!

Sevinc

Çox gözəl!

(*Çıxır*)

Şirin

(*Könülə*)

Sən də get, nə qədər memar
Varsa, söylə yığsın bu gün əyanlar!

Könül

Baş üstə!

Çıxır.

Şirin

Bibimin vaxtsız ölümü
Sıxır məngənətək, əzir könlümü!
Elə bil varlığım olmuşdur tarac…
Alovdur başımda parıldayan tac!



Xidmətçi

(*içəri girib baş əyir*)

Şapur gəlir.

Şirin

Gəlsin!

(*Şapur içəri girib Şirinə baş əyir*)

Xoş gördük, Şapur!
Sizlərdə dostluğun qaydası budur?

Şapur

Sizin qarşınızda zəliləm, xaram,
Təqsirim böyükdür, mən günahkaram!

(*Qılıncını çəkib Şirinə verir*)

Fərman sizinkidir, bu qılınc, bu baş!

Şirin

Qılıncı bir yana burax, a qardaş,
Qılınc düşmənlərçün yaranıb ancaq.
Yandırmaz özünü heç qızğın ocaq!

Şapur

Siz insan şəklində bir mələksiniz,
Nə qədər incədir böyük qəlbiniz?!
Sizdəki xislətə əmin olub mən
Yenə qapınıza gəlmişəm.

Ş i r i n

Bəzən
Batır yumşaqlıqdan qüsura insan.

Ş a p u r

Böyükçün mərhəmət deyildir nöqsan.

Ş i r i n

Aciz qüvvətlidən gözlər mərhəmət.

Ş a p u r

Böyüklüyə qarşı əyilər qüvvət
Odur, İran şahı Xosrov Pərviz
Ehtiramla çökür qarşınızda diz.

Ş i r i n

Artıq meydandadır onun varlığı,
Aləmə bilindi riyakarlığı.
Dünyada kimin ki, sözü düz deyil
Yəqin bil ki, onun özü düz deyil!
O, könül mülkümü talana çıxdı,
Verdiyi sözləri yalana çıxdı.
Qəlbinin, hissinin məndim həmdəmi,
Yenə məni atdı, tutdu Məryəmi.
Bir insan ki, deyil sözünə hakim
Elə bir insana kim inanar, kim?!

Ş a p u r

Olur dastanların axırı şirin.
Məryəmi alsa da inanın, Şirin,
Xosrov varlığilə sizə bağlıdır.



Ş i r i n

Demək, mən haqsızam, Xosrov haqlıdır?

Ş a p u r

Yox, onda təqsir var, lakin peşmandır,
Tutduğu işinə indi düşmandır.

Ş i r i n

Sonrakı peşmanlıq bir fayda verməz!
Olan oldu, məni bir daha görməz!
Silinmiş qəlbimdən keçmiş məhəbbət,
İndi mən Xosrova edirəm nifrət!..
Sən də ondan uzaq gəzsən yaxşıdır,
Ondakı hiyləni sezsən yaxşıdır.

Ş a p u r

Əzizim, var bir də başqa məsələ,
Xosrov ürəyini almaqçün ələ
Tapşırıb, tikdirim gözəl bir saray –
Ki, ona dünyada tapılmasın tay.
Mənim Fərhad adlı bir dostum vardır,
Böyük sənətkardır, yaxşı memardır!
Dünən danışmışam mən bu xüsusda,
Sarayı tikməyə söz verib usta.
Yaxşı olmaz dönsəm verdiyim sözdən,
Bir də ki, Xosrovdan çəkinirəm mən.

Ş i r i n

Qoy tiksin sarayı dediyin memar.
O mənə tanışdır, məndən haqq alar.
Yoxdur ehtiyacım mənim Pərvizə,
Pay lazım deyildir qonşudan bizə!

Qoymaram üz versin sənə bir bəla!
Sən qorxub Xosrovdan çəkinmə əsla.
Sarayımda bu gün mənim məclis var.
Toplanıb gələcək bütün ustalar,
Çağır, sarayıma gətir Fərhadı.

Ş a p u r

Görsəm də qarşımda qanlı cəlladı,
Yenə əmrinizdən çıxmaram sizin.

Ş i r i n

Sağ ol, qəm buludu görməsin üzün!

Ş a p u r çıxır. S e v i n c əyanlarla bərabər içəri girir. Baş əyilir, hərə öz yerində oturur.

Ş i r i n

(*əyanlara*)

Sizi toplamaqda üç məqsədim var:
Birincisi budur: əmr edin – xanlar
Yoxsul kəndliləri incitməsinlər!
Kim boyun qaçırsa bu işdən əgər
Düşmənçilik edir o mənə qarşı,
Zülümkar xainin kəsilsin başı!
Biri də budur ki, kənddə yoxsullar,
Atı, mal-qarası olmayan dullar
Yeddi il vergidən edilsin azad!

V ə z i r

Bax, bu kəndliləri eyləyər çox şad...

Ş i r i n

Dağılsın bu gündən qara zindanlar!
Qoy azad yaşasın bütün insanlar,
Eşitdiniz!



Ə y a n l a r

Bəli.

Ş i r i n

(*vəzirə*)

Durma, Ulduz xan,
Yaz bütün xanlara bu saat fərman!

V ə z i r

Baş üstə!

O, fərman yazmağa başlayır. K ö n ü l və ustalar içəri girib baş əyirlər.

Ş i r i n

Əyləşin!

Ustalar səf çəkib otururlar. Şapur və Fərhad içəri girib baş əyir.

Ş i r i n

– (*Fərhada xüsusi hörmətlə*)

Xoş gəlib Fərhad!
Sənətin şərəfi, sevimli ustad.

F ə r h a d

Var olsun gözəllər sultanı Şirin,
Olur ilhamçısı böyük işlərin.

Şirin

(*məclisdəki ustalara müraciətlə*)

Sizi toplamaqdan məqsəd budur, bax
Mənim sarayıma uzaqdır yataq.
Südü gətirməkçün çəkilir zəhmət,
Olur nökərlərə böyük əziyyət.
Odur, istəyirəm dediyim yerdən
Buracan arx çəkim şəffaf mərmərdən.
Çobanlar yataqda sürünü sağsın,
Süd bir bulaq kimi saraya axsın.
Arx çəkilsə, qəlbim batar sevincə!
İndi söz sizindir, ustalar.

Birinci usta

Məncə,
Bu mümkün iş deyil!

İkinci usta

Mümkündür, fəqət
Bu işçün gərəkdir beş illik zəhmət!

Üçüncü usta

Ürəklə hamımız çalışsaq əgər,
Üç il müddətinə bu arx düzələr.

Dördüncü usta

Məncə, iki illik işdir bu.

Beşinci usta

Yox-yox!
Bu iş vaxt aparar ildən bir az çox.



Fərhad

Gözəllər gözəli, ey dilbər pəri!
Əmrinlə mum kimi edib mərməri,
Bir ay müddətində çəkərəm arxı,
Ona heyran qalar fələyin çarxı!

Birinci usta

Bunun ağlı çaşıb!

İkinci usta

Dəlidir nədir?

Üçüncü usta

Məncə, söylədiyi bir əfsanədir!

Dördüncü usta

Zarafata salıb deyəsən işi?

Beşinci usta

Ayın on dördündən danışır kişi.

Fərhad

Bir cür hökm verir hərənin ağlı,
Hər iş iradəyə, qüvvətə bağlı!
Siz nə düşünsəniz düşünün, dostlar,
Mənim öz qüvvəmə etibarım var!
İstəsəm qüvvəmlə, iradəmlə mən
Dağı qaldıraram belə yerindən!
Yonaram mərmərdən canlı bir heykəl,
Baxan deyər, buna toxunmayıb əl!

Yarada bilərəm elə qəsirlər
Ona heyran qalar uzun əsrlər!
Sizsə uzaqsınız sənətdən hələ,
Odur, oxşayırsız cansız heykələ!

Şirin

Bax, buna deyorlər mahir sənətkar,
İşi yaxşı bilən həqiqi memar!

(*Memarlara*)

Sizdə iradə yox, dağılın!

Şirin

(*əyanlara*)

Siz də
Gedin can yandırın öz işinizdə;
Gözünüz olmasın şöhrətdə, şanda!

Əyanlar baş əyib çıxırlar. Fərhad, Şapur, Könül, Şirin, və Sevinc qalırlar.

Şirin

(*Fərhada*)

Mən fikir verirdim, sən danışanda
O qəlp ustaların başı gicəldi,
Sözün qəlblərini ox kimi dəldi!

Şapur

Səmimi deyilən söz bir incidir,
Haqlıya haqq verir, qəlpi incidir!



Şirin

(*Fərhada*)

De, indi bu ağır işçün Şirindən
Nə köməklik almaq niyyətindəsən?

Fərhad

Köməyim, pənahım şirin sözlərdir,
Mənə ilham verən xumar gözlərdir.

Şirin

(*gözlərini yerə dikir, az sonra*)

Get uğurlar olsun, işini qurtar!
Sənə sonra başqa tapşırığım var.

Fərhad

Nədir o tapşırıq, söylə, sultanım?
Yolunda qurbandır bu şirin canım!
Əmr elə, səninçün qurum bir saray,
Ona yer üzündə tapılmasın tay!
Vurum kəhrabadan elə naxışlar,
Baxanda qamaşsın kəskin baxışlar.
Bir heykəl yaradım sənə mərmərdən,
Görən zənn eləsin gün çıxıb yerdən!
Qurum çiçəklikdə gözəl bir hovuz,
Olsun dörd yanında xuraman, tovuz!
Əmr elə, meşədən tutum bəbirlər,
Tutum mən dəhşətli, yırtıcı şirlər.
Səhradan qorxulu pələnglər tutum,
Baş vurub dəryadan nəhənglər tutum.
Əmr elə, həyatım şam kimi sönsün,
Vücudum qarşında torpağa dönsün.

Sevinc

(*ətrafa*)

Deyəsən Şirinə vurulmuş bu da?
Odur ki, həvəslə girir hər oda.

Könül

Məhəbbət coşdurur bu gün Fərhadı,
Göylərə çıxacaq sabah fəryadı!

Şirin

Mətin bir igidin qəhrəmanlığı
Qovar günəş kimi hər qaranlığı!
Xəyala gətirsək biz keçmişləri,
Bilərik dünyada böyük işləri.
Yaratmış qüvvətli, cəsur insanlar,
Möhkəm iradəli, məğrur insanlar.
Sənin qüvvətinə əminəm, Fərhad!
Sənsən bu ölkədə ən böyük ustad.
Çünki yaratdığın hər bina dağdır,
Dağlarsa əbədi yaşayacaqdır!
Get sarayla arxı qurmağa başla!

Fərhad

Gedib çalışaram mən canla-başla!

***Pərdə***



**BEŞİNCİ PƏRDƏ**

***Beşinci şəkil***

Gözəl bir saray qurulmuş, yanında arx çəkilmiş. Fərhad bir dağı külüngü ilə çapır.

Fərhad

Gəl məni incitmə, parçalan, ey dağ!
Yaralı qəlbimə sən də çəkmə dağ!
Acı göz yaşından ümmanlarım var,
Bu dərdli könlümdə tufanlarım var!
Yarın daş qəlbinə and içirəm mən,
Nə qədər çıxmayıb canım bədəndən
Səndən götürmərəm bir dəqiqə əl,
Təslim ol, qarşımda, törətmə əngəl!

(*Şirinin daşdan yonulmuş heykəlinə baxır*)

Qurbanı olduğum xumar gözlü yar,
Qalmamış əlimdə mənim ixtiyar.
Eşqindən saralmış solğun yarpağam,
Küləyə sovrulmuş tozam, torpağam.
Gəl, eşit, bir gecə ahü-zarımı,
Ölsəm, öz əlinlə qaz məzarımı!

(*Şirin gəlir. Fərhad tez onu qarşılayır*)

Xoş gəlib ömrümün baharı canan!
Könlümün taqəti, qərarı canan!

Şirin

Sağ olsun, sevimli qəhrəman Fərhad!
Eyləyib qəlbimi dünyalarca şad.
Bitirib işini vədədən qabaq,
Əriyib mum kimi pəncəsində dağ.

*(Qulağından bir sırğa çıxardıb Fərhada uzadır)*

Bu sırğa Fərhada yadigar olsun.
Sənətkar əlləri daim var olsun!

Fərhad

Şirin, ey ömrümün, bəxtimin günü!
Gəl sanma sən məni sərvət düşkünü.
Gümüşüm, qızılım yoxsa da əgər,
Qanlı göz yaşımdır dəyərli gövhər!
Qızıldır, saralmış bu solğun bənzim,
Uymayıb daş-qaşa könlüm, əzizim!
Mənə mərhəmətli bir nəzər salsan,
Şirin sözlərinlə qəlbimi alsan,
Xoşdur bu dünyanın bütün varından;
Yerlərin, göylərin ixtiyarından!

Şirin hovuzdan bir qədəh süd doldurur, Fərhada verir.

Şirin

İndi ki, bu qədər sevirsən məni,
Ala, iç əlimdən bu piyaləni!

Fərhad

*(sevinclə piyaləni Şirindən alır)*

Ey qönçə dodaqlı, sevimli canan!
Büllur biləyinə, əlinə qurban.
Mənə piyalədə uzatsan zəhər,
Sanaram əlindən alıram şəkər.

*(Südü içəndən sonra)*

Nə qədər şirindir eşqin şərbəti!
Məhəbbət yaşadır əbədiyyəti…

Şirinin ayağı sürüşüb uçurumdan düşərkən, Fərhad tez onu tutur.



Şirin

Qurtardın bəladan məni bir anda.

Fərhad

Həyatım olsa da qanlı tufanda
Qoymaram yanından əssin bir külək!
Eşqinlə sinəmdə çırpınır ürək.
Sən isə Xosrovu sevirsən, ey yar!
Yalanla aldadıb qəlbini əğyar.
Sevməkçün atəşli könül gərəkdir.
Eşqə qanad verən coşqun ürəkdir!
Xosrovda atəşli bir ürək hanı?
Ona yabançıdır eşqin dastanı!
Sənətkar zövq alır incə gözəldən,
Sevgini yaşadan bizik əzəldən!
Bülbül qızılgülə olar aşina,
Dolanar pərvanə şamın başına.
Həqiqi aşiqin mənəm aləmdə,
Lakin keçir ömrüm qəmdə, matəmdə.
Eşqindən dönmüşəm solğun hilalə,
Bir nəzər salmırsan məndəki halə.

Şirin

Sakit ol, səni də sevən var, Fərhad!
Etmə nahaq yerə ömrünü bərbad.

Fərhad

Məni sevən kimdir?

Şirin

Mənəm!

F ə r h a d

Ah, bu hal
Görəsən röyadır, ya şirin xəyal?

Ş i r i n

Nə şirin xəyaldır, nə röyadır bu!
Bir dadlı məhəbbət, bir sevdadır bu!

F ə r h a d

İnsana xoşbəxtlik üz verir bəzən,
Xəbəri olmayır bu səadətdən.

Ş i r i n

İndi sakit oldun?..

(*Qalxıb getmək istəyir*)

Mən getdim, gecdir!

F ə r h a d

Getmə, sənsiz dünya gözümdə heçdir!

Ş i r i n

Gələcəkdə çoxdur vaxtımız bizim,
Yenə görüşərik, sağ ol, əzizim!

F ə r h a d

Yaxşı yol!

(*Şirin gedir. Fərhad onun ardınca*)

Ah, getdi, o nazlı canan,
Vüsal şirin isə, acıdır hicran!



M u r a d

(*gəlir*)

Çörək gətirmişəm səninçün, Fərhad.

F ə r h a d

Çox sağ ol, sevimli qardaşım Murad!
Bürüyüb qəlbimi qəm, kədər, məlal.
Gəl, otur əzizim, bir az tütək çal.

(*Murad tütək çalır, Fərhad oxuyur*)

Mən aşiq, bülbül aşiq,
Bülbül aşiq, gül aşiq,
Göz gözəl görməsəydi
Olmazdı könül aşiq.

Mən aşiq, yar vəfasız,
Sevgi olmaz cəfasız.
Canansız çəmən-çiçək
Olar solğun, səfasız.

Mən aşiq, keçsin hicran,
Görünsün mənə canan.
Baxım xumar gözünə,
Verim canımı qurban.

Mahnı bitincə X o s r o v vəziri ilə birlikdə gəlir.

X o s r o v

Ay qoçaq, de görək nəçisən, kimsən?

F ə r h a d

Eşq uğrunda ölən bir insanam mən!

Xosrov

İgid qan tökməsə canını verməz!

Fərhad

Aşiq yar yolunda canı çox görməz!

Xosrov

Aşiqsən? Sevdiyin məşuqə kimdir?

Fərhad

Bu dərdli qəlbimə Şirin hakimdir!

Xosrov

Könüldən sevirsən sən o dilbəri?

Fərhad

Ömür günəşimdir o gözəl pəri!

Xosrov

Söylə, çoxmu girir yuxuna canan?

Fərhad

Mən onun eşqindən yatmıram bir an!
Rahatlıq bilsəydim, yatsaydım əgər
Girərdi yuxuma o nazlı dilbər.

Xosrov

Qəlbində nə qədər qalacaq eşqi?



Fərhad

Məni məzaracan alacaq eşqi?

Xosrov

Bəlkə qalib gəldi sənə bir qüvvət,
Sönməzmi qəlbində, sevgi, məhəbbət?

Xosrov

Səni qorxutmayır heç bir qəhrəman?

Fərhad

Məni bir qorxudan hicrandır, hicran!

Xosrov

*(ona bir ovuc qaş-daş uzadır)*

Dünyanın malından dönmək olmaz heç,
Ala bu qaş-daşı, o canandan keç!

Fərhad

Bütün kainatı versələr mənə.
Yarın bir tükündən keçmərəm yenə!

Xosrov

İnsan bu dünyada yaşamaz malsız,
Xoş gün sürmək olmaz cahü-cəlalsız!

Fərhad

Aləmdə hərənin bir eşqi vardır,
Mənimki sevgidir, səninki vardır!

Xosrov

Yanılma, Şirini sevirəm mən də!
Tərlan ürəyimi salıb kəməndə
İncə bir dilbərçün vurur qəlbimiz,
Amansız rəqibik bu dünyada biz!

Xosrov

Onda gəl sınayım sənin qüvvəni!
Bu gün bu meydanda üç şərt qoyum mən.
Şərtləri yerinə yetirə bilsən,
Şirindən əl çəkim.

Fərhad

Şərti de görək!

Xosrov

Bu polad gürzümü əyəsən gərək!

Fərhad

Çox gözəl!

Xosrov

Güləşək.

Fərhad

Yaxşı.

Xosrov

Bir də bax
İti külüngünlə çapılsın o dağ!



Fərhad

Şərtlərə razıyam, olmasın hiylə,
Sözünün üstündə dayan mərdliklə!

Xosrov

Sözündən kim dönsə kişi deyildir!

(*Gürzünü Fərhada uzadır*)

Al, indi qolunun gücünü bildir.

Fərhad Xosrovun gürzünü alır, mum kimi əyib yerə atır.

Fərhad

Bu sənin birinci şərtin. Necədir?!

(*Xosrov dinmir.*)

Murad

Aşiqçün bu şərtlər bir əyləncədir.

Xosrov

İndi gəl yapışaq!

Fərhad qollarını çırmalayır

Xosrov

(*vəzirə*)

Münsif ol, vəzir!

F ə r h a d

(*Murada*)

Mənim də münsifim sən ol, ay Murad!

F ə r h a d l a  X o s r o v güləşir. Xeyli güləşdikdən sonra F ə r h a d X o s r o v u başının üstündən yerə çırpır.

F ə r h a d

Bu ikinci şərtin düzdürmü?

X o s r o v

Düzdür!

M u r a d

(*ətrafa*)

Fərhad bir aslandır, Xosrov öküzdür!
Şübhəsiz ceyranı ovlayacaq şir.
Öküz zəhmət çəkir, nahaq əlləşir!

F ə r h a d külüngü götürüb dağa işarə edir.

F ə r h a d

Üçüncü şərtin də gözümün üstə!

X o s r o v

Dağı yar, durmuşam sözümün üstə!

***Pərdə***



***Altıncı şəkil***

X o s r o v u n bağı. X o s r o v, vəzirlər, əyanlar.

X o s r o v

Bir od parçasıdır hünərdə Fərhad!
Elə bil qəlbimi sarsıdır bu ad.
Yəqin ki, dağı da yaracaq qoçaq.
Mənə qəm qalacaq dünyada ancaq!

V ə z i r

Şəhriyar kefini eyləmə bərbad!
Nə qədər qüvvətli olsa da Fərhad
Çatmaz o sıldırım dağa qüvvəti,
Sönər ürəyində şirin niyyəti!

B i r i n c i  ə y a n

Dağı yarmaq olar, dağ deyirsən, dağ!

İ k i n c i  ə y a n

Fərhad öz qəlbinə bir gün çəkər dağ!

X o s r o v

Fərhadın qüvvəti mənə bəllidir,
Sizin sözləriniz boş təsəllidir!

K ö l ə

(*içəri girir, baş əyir*)

Fərhad gəlir.

X o s r o v

Gəlsin!

F ə r h a d içəri girir.

X o s r o v

(*Fərhada*)

Böyük sənətkar
Xoş gəlib, ona çox hörmətimiz var.

F ə r h a d

Sağ ol, gəlişimdən budur məqsədim,
Səni mən qabaqca xəbərdar edim.
Üç günlük iş qalır ancaq qabaqda.
Pəncəmdə yarılır heybətli dağ da!

Artıq dəyməyəcək külüngüm daşa,
Üçüncü şərti də vururam başa!

V ə z i r

(*ətrafa*)

Dağ yarmaq doğrudan böyük hünərdir,
Fərhad əjdahadır, böyük bir nərdir.

X o s r o v

Rəqibim olsan da, fildən güclüsən.
Daşqın zamanında Nildən güclüsən!

(*ətrafa*)

Ömrümü taladı qüssələr, qəmlər!

(*Xidmətçiyə*)

Çağır, məclisimə gəlsin sənəmlər!

X i d m ə t ç i çıxır. Daş-qaşla bəzənmiş yeddi qız içəri girir.
Musiqi çalınır, qızların biri oxuyur.



Yarım incəlikdə, şuxluqda təkdir,
Yanağı lalədir, saçı ipəkdir.
Onsuz həyatımın olmaz ziynəti,
O, gənclik bağında açan çiçəkdir.

Hicrindən olubdur viranə könlüm.
Nəsihət eşitmir divanə könlüm,
Yansa da odlara pərvanə könlüm,
Yenə də canandan dönməyəcəkdir!

Ömür baharımda qopsa tufanlar,
Dənizlər çalxanıb, coşsa ümmanlar,
Sönsə yer üzündə bütün vulkanlar
Qəlbimdə eşq odu sönməyəcəkdir!

Mahnı bitir. Rəqs havası çalınır. Qızlar oynayır. Rəqs bitir.

X o s r o v

Necədir, xoşuna gəldimi?

F ə r h a d

Gəldi.

X o s r o v

(*ətrafa*)

Aha, iş düzəldi, kefim kökəldi.

(*aşkara*)

Qarşında dayanan yeddi cananın,
Yeddi xumar gözlü, gözəl ceyranın
Hansını istəsən qurbandır sənə!

Fərhad

Bəsdir öz sevgili cananım mənə!
Bütün gözəlliklər, bütün gözəllər
Birləşib yaratsa incə bir dilbər,
O füsunkar dilbər mənə yar olsa,
Eşqimdən ürəyi biqərar olsa,
Baxmaz o gözələ, söyləyər könlüm.
Mən şeyda bülbüləm, Şirindir gülüm!
Xəyalı göylərdən ölçüsüz dərin
Böyük rəssamların və şairlərin,
Təsvir etdikləri incə gözəllər,
Sənət bağındakı qönçə gözəllər
Canlanıb qarşımda olsa həqiqət,
Ürəkdən bəsləsə mənə məhəbbət,
Uymaz o sevgiyə, söyləyər könlüm:
Mən şeyda bülbüləm, Şirindir gülüm!
Əsrlərdən bəri əfsanələrdə,
Zümrüddən yaranmış kaşanələrdə
Yaşayan pərilər, mələklər gəlsə,
Mənə könül versə, fələklər gəlsə,
Dönməz sevgilimdən, söyləyər könlüm:
Mən şeyda bülbüləm, Şirindir gülüm!

İkinci əyan

(*ətrafa*)

Həqiqi aşiqlər belə olar, bax!
Qəlbi bir gözəldən zövq alar ancaq.

Fərhad

(*getmək istəyir*)

Mən getdim, iş qalıb, qəlbim tələsir.
Keçir hər dəqiqəm burda bir əsr!

Fərhad çıxır



Xosrov

(*xidmətçiyə*)

Şapuru çağırın saraya gəlsin!

(*xidmətçi çıxır*)

Az qalır qəm, qüssə qəlbimi dəlsin!
Mənim bu oxum da toxundu daşa,
Yenə də məqsədim gəlmədi başa.
Titrəyir qəzəbdən başımda tacım.

(*əyanlara*)

İndi siz söyləyin, nədir əlacım?!

Vəzir

Təqsir Şapurdadır, şəhriyar, məncə.
Verilsin Şapura əzab, işgəncə!

Birinci əyan

Onun bu mətləbə heç bir dəxli var?
Tutaq məhv elədi onu şəhriyar,
Fərhad sevgisindən dönəcəkmidir?
Qəlbində eşq odu sönəcəkmidir?
Nə qədər ki, Fərhad dünyada sağdır
Sizinçün rahatlıq olmayacaqdır!
Daim qarşınıza çıxacaq əngəl,
Sizə uymayacaq o dilbər gözəl!
Fərhadı məhv etmək gərəkdir, ancaq
Bu işçin lazımdır elə bir qoçaq
Ki, ona hiylədə çatmasın iblis.
Əyilsin önündə şeytan, çöksün diz!
Fərhadın yanına getsin fitnəkar,

Ağlasın, inləsin, etsin ahü-zar,
Desin: Şirin öldü! Bu acı xəbər.
Rəqibin bağrını ox kimi dələr!
Yumular dünyaya Fərhadın gözü,
Şirinin də olmaz buna bir sözü.

X o s r o v

Bax, sənin dediyin ağlıma batdı,
Tədbir düz tədbirdir, qəlbimə yatdı!
Bacaran gərəkdir lakin bu işi,
Varmı aranızda elə bir kişi?

K ə n a n

(*yerindən qalxır*)

Vardır, belə işçün yaranmışam mən!
Şeytan da qurtara bilməz əlimdən.
Açılar fikrimlə hər möhkəm düyün,
İcazə versəniz gedərəm bu gün.
Elə aldadaram memar Fərhadı,
Özü də canının olar cəlladı!

X o s r o v

Bu işi yerinə yetirsən, Kənan!
Səni doyduraram dünya malından.

K ə n a n

Artıq mən gedirəm, böyük hökmüran!
Fürsəti qaçırmaq olmaz bircə an!

(*Baş əyib getmək istəyir*)

Hələlik, sağ ol!



X o s r o v

Get, uğurlu yol!

K ə n a n çıxır. Bir fərraş Ş a p u r l a bərabər içəri girir.

X o s r o v

(*Şapura kinayə ilə*)

Yenə görünmürsən, Şapur hardasan?
Görünür ki, başqa bir diyardasan.

Ş a p u r

İnsan bir qərarda, bir halda qalmaz!
Bu son zamanlarda yorğunam bir az.
Odur ki, görünə bilmirəm.

X o s r o v

(*kinayə ilə*)

Demək
Yormuş dost yolunda səni işləmək!

Ş a p u r

Vəfalı dost hanı bizim zamanda?
Dostluq umularmı belə dövranda?

X o s r o v

(*kinayə ilə*)

Dost, son dərdlərimə oldun aşina,
Sənə bel bağladım, gördüm çox vəfa!

Ş a p u r

Mən sənin yolunda çalışdım, fəqət
Nə güc, nə kələklə olar məhəbbət!
Həssas bir qadının ürəyi, məncə,
Büllurdan zərifdir, şüşədən incə.
Bir dəfə sındımı, sağalmaz ürək,
Məhəbbət xəyanət görməsin gərək!
Ən həssas, ən incə bir qızdır Şirin,
Onda qüruru var pələngin, şirin!
Qırmısan Şirinin zərif qəlbini,
Odur sənə qarşı soyumur kini.

X o s r o v

Bəs Fərhad haqqında bəhanən nədir?
Bu nə macəradır, necə fitnədir?!
Fərhad olmasaydı Şirinə aşiq,
Düşməzdi işlərim belə dolaşıq!
Sən onu Şirinlə etmisən tanış,
Şirinin də qəlbi ona aldanmış
İranda az idi məgər sənətkar,
Sən Odlar yurdunda axtardın memar?!
Mənə ən qorxulu rəqibdir Fərhad,
Bütün işlərimi etmisən bərbad.
Səndəndir çəkirəm bunca iztirab,
Bu da sənin mənə verdiyin cavab…

Ş a p u r

Mən bais olmadım çılğın halına,
Düz cavab verirəm hər sualına.
Fərhadı apardım qəsr tikməklə
Alınsın Şirinin ürəyi ələ.
Dedim, razı qalar məndən şəhriyar,
Sarayı tikməyə başladı memar.



İşimi bitirdim, qayıtdım geri,
Yoxdur bir xəbərim o gündən bəri.
Hər an min hadisə olur dünyada,
Bəlkə də vurulub Şirin Fərhada?!
Gələcək işləri nə bilir insan?
Sabahı dərk etmək deyildir asan!
Mən könül dəllalı deyiləm, heç kəs
Məhəbbət işinə qarışa bilməz!
Doğrudur, vasitə oldum bir zaman,
İstədim ki, Şirin sevimli canan
Sevsin, şəhriyarım, səni ürəkdən.
Söndü ürəyimdə tutduğum niyyət,
Fərhada bəslədi Şirin məhəbbət!
Könül sevdiyinə meyl edər ancaq.

V ə z i r

(*ətrafa*)

Şahla gör nə dillə danışır, alçaq!

X o s r o v

(*qəzəblə*)

Şapur! Bu sözlərin artıq əbəsdir!
Sənin haqqın ancaq qara məhbəsdir!

(*Şapuru aparmaq istəyirlər*)

Ş a p u r

Aparın, heç şeydən sıxılmaz könlüm!
Mənə diz çökdürməz əziyyət, ölüm!

***Pərdə***

### *Yeddinci şəkil*

Fərhad əvvəlki yerində dağı yarmaqla məşğuldur. Fərhadın bacısı Dilşad çiynində heybə Muradla bərabər gəlir.

Dilşad

Gözümün işığı, qardaşım Fərhad!

Fərhad

(*dönüb bacısına baxır*)

Xoş gəlib, xoş gəlib mehriban Dilşad!

(*Dilşadla qucaqlaşır*)

Dilşad

Məni sən etmisən belə avara,
Üç aydan çoxdur ki, həsrətəm sana,
Dönüb ayrılıqdan ürəyim qana.
Buraxıb elini, obanı, qardaş,
Bu dilsiz dağlarla olmusan sirdaş.

Fərhad

Bacıcan, neyləyim, məhəbbətdir bu!

Dilşad

Məhəbbət deyildir, fəlakətdir bu!
Dağları yarmaqdan əlin qabardır.



Fərhad

Bunun da başqa bir səfası vardır!
Həqiqi aşiqin növrağı olmaz,
Rahatlığı olmaz, yatağı olmaz!

Dilşad

Canına yazığın gəlsin.

Fərhad

Can nədir?
Sevgi olmayanda can viranədir!
Canansız neylərəm mən gülüstanı?
Üç şeydir sevdirən mənə dünyanı:
Azadlıq, məhəbbət, bir də ki, sənət, –
Bunlarsız etməzdim həyata rəğbət!

Dilşad

Əzizim, qardaşım, tərslik etmə gəl!
Bizim kəndimizdə nə çoxdur gözəl.
Hansını istəsən sənə yar olar,
Bu yazıq bacın da bəxtiyar olar.

Fərhad

Dilşad, məhəbbəti sanma oyuncaq!
Bir qəlb var, sevgi də bir olar ancaq.
Sevgilim dünyada yalnız Şirindir,
Onun əzabı da mənə şirindir!
Qayıt kəndimizə, mehriban bacı!

Dilşad

Bacına rəhm elə, halına acı!
Axı ayrılığa dözə bilmirəm,
Mən səndən əlimi üzə bilmirəm.

Fərhad

Bacıcan, az qalıb, qurtarır hicran,
Bu günlərdə mənə qovuşur canan.
Yaxında olacaq toyumuz bizim.

Dilşad

Toyunu görsəydim bircə, əzizim,
Heç dərdim olmazdı mənim dünyada.
Qorxuram onda da düşməyim yada.

Fərhad

Məni çox vəfasız düşünmə, Dilşad!

Murad

Bizsiz toy eləməz qardaşım Fərhad.

Fərhad

Əlbəttə, durmayın, di gedin daha,
Məndən salam deyin elə, obaya!

Dilşad

Sağ ol, əziz qardaş, unutma bizi.

Fərhad

Yaxşı yol, unutmaq olarmı sizi?

Dilşad və Murad gedir. Fərhad işləməyə başlayır.
Kənan gəlir.



Kənan

Nədir bu dağları yarmaqda qəsdin?
Bəsdir külüngünlə ömrünü kəsdin!
Nə çıxar boş yerə külüng vurmaqdan,
Şümşad qollarını belə yormaqdan?

Fərhad

Heç bir şey dünyada deyildir hədər,
İncidir alnımdan tökülən bu tər!

Kənan

Əzizim, avazın yaxşı avazdır,
Görünür bilmirsən ömürlər azdır;
Odur nahaq yerə yarırsan dağı.

Fərhad

Boş deyil – yarıram, yarın ayağı
Bu yoldan keçərkən dəyməsin daşa!

Kənan

Həqiqi aşiqsən, sağ ol, min yaşa!
Bax indi bildim ki, boş deyil zəhmət,
İşə vadar edir səni məhəbbət.
Lakin söylə, xoşbəxt, sevgilin kimdir?
Eşqi ürəyinə belə hakimdir?

Fərhad

Şirindir sevdiyim dilbərin adı,
Candan çox sevirəm o pərizadı.

Kənan

Ah, dünya, ah, dünya, nə uğursuzsan.
Yetmiş beş yaşında kaftar bir qızsan!
Dadmayan olmayıb sənin cəfanı,
Lakin sürən azdır zövqü-səfanı!

Fərhad

Niyə ah çəkirsən, nə oldu birdən,
Dəyişdin, başqa bir görkəm aldın sən?!

Kənan

Necə ah çəkməyim, dilbər nigarın,
Şirin, o sevimli vəfalı yarın
Döndü xəstəlikdən solğun yarpağa,
Saraldı, bir gündə düşdü torpağa.
Onu göz yaşilə yudular qızlar,
Dərdindən kül oldu, yanan ulduzlar.
Zavalı, sən isə bundan xəbərsiz
Yarırsan dağları dərdsiz, kədərsiz.

Fərhad

(*yaxasını parçalayır, başına vurur*)

Ah, Şirin! Sevimli, vəfalı dilbər!
Çəkdi qucağına səni bu yerlər.
Nə qədər zalımdır uğursuz fələk!
Kim deyər məhv oldu nazlı bir mələk?!
Ömür baharımın səndin ziynəti.
Sənsiz bu dünyanın nədir qiyməti!
Qopsun qiyamətlər, qopsun tufanlar!
Yandırsın aləmi odlu vulkanlar!
Görməsin gözlərim günəşi sənsiz!

(*Fərhad özünü döyüb ağlayır*)

Bülbül yaşayarmı gülsüz, çəmənsiz?!



Kənan

(*ətrafa*)

Sözüm zəhər kimi eyləyir əsər,
Kəskin qılınc kimi göstərir kəsər.

Fərhad

Şirin həmdəmimdin, ey nazlı canan!
Sanırdım eşqini dərdimə dərman.
Sən öldün, qəlbimdə söndü diləklər.
Ahımdan od tutsun, yansın çiçəklər!

Kənan

Ağlayan günündür, zavallı Fərhad,
Fələk həyatını elədi bərbad!

Fərhad

Cananı apardın, gəl, gəl, ey ölüm!
Eşqinlə çırpınır mənim də könlüm.
Qovuşdur məni də gülüzarıma,
Ömrümün baharı, nazlı yarıma.
İndi ki, ayrılmış ruhum bədəndən,
Bu cansız qəfəsi neyləyirəm mən!

Fərhad özünü dağdan atır. Toz-torpaq qopur. İldırım çaxır.

Kənan

Ha, ha, ha!.. Məhv olub getdi bir anda,
Boğuldu eşqindən qopan tufanda.

Şirin

(*gəlir*)

Nədir bu gördüyüm, qiyamət, vəhşət?
Bu nə mənzərədir, dəhşətdir, dəhşət!
Kim deyərdi belə igid qəhrəman
Olar torpaqlarda qanına qəltan?!
O ki, titrədirdi sıldırımları,
Oyuncaq sanırdı ildırımları.
O ki, can qoymuşdu eşqin yolunda,
Min aslan qüvvəti vardı qolunda.
Düşmana qorxuncdu, yara mehriban,
Eşqindən dönməzdi dünyada bir an.
Geniş səma qədər bir qəlbi vardı.
Həqiqi eşqinə vəfalı yardı.
Sevən könüllər də susarmı, heyhat!
Aşiqsiz sevənə yaraşmaz həyat.
Solğundur gözümdə onsuz çiçəklər,
Tikandır əynimdə əlvan ipəklər.
Onsuz yaşamaram fani dünyada,
Mən də qovuşaram yarım Fərhada!

(*Şirin xəncərlə özünü vurub yerə sərilir*)

Kənan

Şirin də özünü məhv etdi, ey vah!
Məni sağ buraxmaz şübhəsiz ki, şah!
Qaçım, daha burda dayanmaq olmaz,
Fürsəti itirib yubanmaq olmaz!

Kənan qaçır. Könül və Sevinc gəlir. Fərhadı Şirinlə qan içində görürlər.



Könül

Siz, ey məhəbbətin gənc qurbanları!
Soldusa ömrünüz bahar çağında,
Sizinlə yaranar eşq dastanları,
Solmaz xatirəniz sevgi bağında!
Yaşıl çəmənlərdə bitən hər lalə
Andırar Fərhadın yanıq bağrını.
Hər məlul bənövşə salar xəyalə
Hicrandan çəkdiyi dərdi, ağrını…

Sevinc

Şirinçün sızlayar dərdli könüllər,
Dərd çəkər ağlayan şeyda bülbüllər,
Qəbrinin üstündə inləyər külək,
Bitər məzarından yetim bir çiçək.
Keçər uzun illər, keçər əsrlər,
Hər şeyi unudar bu qoca dövran!
Uçar kaşanələr, uçar qəsrlər,
Sizin xatirəniz qalar hər zaman!

***Pərdə***

*Bilgəh – Bakı, 1940*

## *Uşaqlar üçün*

# CIRTDAN

İŞTİRAK EDƏNLƏR:

Cırtdan
Gülzar – Cırtdanın nənəsi
Qaya
Lələş
Div
Qarı
Tülkü
Dovşan

## BİRİNCİ ŞƏKİL

*Cırtdangilin evi. Anası oturub sapand toxuyur. Cırtdan ağac yonur.*

Cırtdan

Tez toxu sapandı verginən, ana,
Gedirəm meşəyə bu gün oduna.

Gülzar

Sən hələ kiçiksən, otur yerində!
Üzgüçü deyilsən, üzmə dərində.

Cırtdan

Mən kiçik olsam da, bala aslanam,
Bir dişi aslandı mənim mərd anam.



Gülzar

Səni sınayırdım, qəhrəman bala,
Bilirəm, çəksədə başın min bəla
Qoç bir oğul kimi dözə bilərsən.
Düşmənin başını üzə bilərsən.

*Qaya ilə Lələş içər girir.*

Qaya

Cırtdan biz hazırıq… Gedəcəksən gəl…
Gecəyə düşərik, iş olar əngəl.
Yaxında qorxunc bir sehirli ev var,
Evdə çox yaramaz vəhşi bir div var.
Əlinə keçəni doğrayır, kəsir.
Hər kəs onu görsə qorxudan əsir,
Qaranlığa düşsək div bizi tutar.
Yağlı tikə kimi bir anda udar,

Cırtdan

Biz bir qardaş kimi versək əl-ələ,
Div deyil, əjdaha gəlsə də belə
Bizə tük qədər də toxuna bilməz.
Mərd olan heç şeydən qorxmaz, əyilməz.

*Gülzar sapandı toxuyub qurtarır.*

Gülzar

Ala sapandı… Gedin, yaxşı yol!

Cırtdan

Gedək, ay uşaqlar!.. Nənəcan, sağ ol!

## İKİNCİ ŞƏKİL

Meşədə Cırtdan və yoldaşları odun yarıb şələ bağlayırlar. Ağ bir dovşan qaçır.

Lələş

Bax qaçdı bir ağ dovşan,
Tükləri parlaq dovşan.

Cırtdan

Qoy tutum dovşanı mən,
Boş getməyək meşədən.

Cırtdan qaçır, dovşanı tutur, uşaqların yanına gəlir.

Qaya

Artıq gecdir, Cırtdan gəl,
Qarşıya çıxar əngəl,
Meşədə çox bəbir var,
Pələng var, qorxunc şir var,
Rast gələr bizə birdən.

Cırtdan

Nə şirdən, nə bəbirdən
Yox mənim qorxum, hürküm,
Bax əynimdəki kürküm
Bir pələng dərisidir,
Bu atamın irsidir.
Atam çox aslan qırmış,
Çox bəbir, qaban qırmış.
O qorxmaz bir insandı,
Qüvvətli pəhləvandı.
Oğluyam onun mən də,



Çətinliyə düşəndə
Saxlayaram başımı,
Sapandımı, daşımı
Salaram dərhal işə,
Düşmərəm heç təşvişə.

Lələş

Döyüşü sanma asan,
Sən kiçik bir oğlansan.
Atan böyük kişiydi,
Ovçuluq vərdişiydi.

Cırtdan

Bapbalaca boyum var,
Çox qəhrəman soyum var.

Bir tülkü çıxır. Cırtdan sapandla onu vurur.

Cırtdan

Budur bax, bu da tülkü,
Öz ayağıyla gəldi.
Deməк mənim bu ilki
Qış paltarım düzəldi.
İndi də gəzə-gəzə
Gəlin dönək evmizə.

Uşaqlar getməyə hazırlaşırlar. Günəş batmağa başlayır, qaranlıq çökür. Uşaqlar kəndin yolunu azıb gəlib divin evinə çıxırlar. Div Cırtdanı və yoldaşlarını görür.

Div

(*sevinclə*)

Xoş görmüşük, uşaqlar,
Ay balaca qoçaqlar,
Buyurun, gəlin evə,
Dostunuz qara divə
Qonaq olun bu gecə.

Cırtdan

Bilirəm, sən bir anlıq
Edirsən mehribanlıq.
Fürsət keçirsən ələ,
Qurarsan bizə tələ.

(*Divə*)

Ay div baba, çox sağ ol!
Heç yormayıb bizi yol.
Sən çıx get, rahat-rahat
Öz yerində uzan, yat!
Bu gecəni bir təhər
Burda qalarıq, səhər
Durub düşərik yola.

Div

Yox, yox, heç olmaz, bala!
Borcum sizə hörmətdir,
Mənimçin nə zəhmətdir?
Ay gözümün işığı,
Evimin yaraşığı,
Bu gözəl otaq sizin,
Çəmən sizin, bağ sizin.
Beş-on gün qalın burda,
Tapşırmışam boz qurda
Gətirsin yağlı toğlu.
Sizinçin çoxlu-oxlu
Kabab bişirim gərək,
Yeyək burda duz-çörək.
Olaq yaxın dost-qardaş,
Olaq mehriban sirdaş.

Uşaqlar küncdə ifritə qadını görürlər.



Cırtdan

O küncdə oturan qarı kimdir, div?

Div

Nənəmdir, onundur gördüyün bu ev.
Yazıq qocalmışdır, əldən düşmüşdür,
Qulağı eşitmir, dildən düşmüşdür.
Bir küncdə uzanıb səssiz-səmirsiz,
Ondan əsla zərər görməzsiniz siz.

(*Div uşaqlar üçün yer salır*)

Narahat olmayın, uzanın yatın,
Mən sizə saz çalım, yuxuya batın!

Uşaqlar əlacsız qalıb divin dediklərinə razı olurlar, yatağa uzanırlar. Div başlayır saz çalmağa. Lələşlə Qayanı yuxu tutur. Cırtdan oyaq qalır. Bir az sonra div soruşur

Div

Kim yatıb, kim oyaqdır?

Cırtdan

Hamı yatıb, mən oyağam!

Div

Saz çalıram şirin-şirin,
Yuxuya dal dərin-dərin.

Cırtdan

Ay div baba, bir Cırtdanam,
Pis öyrədib məni anam.
Mən qayğanaq yeməyincə
Yuxu tutmaz məni gecə.

Div qalxıb o biri otaqdan qayğanaq gətirir, verir.

D i v

Al qayğanağı ye, yat!

C ı r t d a n

Bu qayğanaq olub boyat,
Qızdırmasan onu əgər,
Cırtdan yeyər xəstələnər.

D i v

Yaxşı. Yaxşı, bir az dayan,
Xörək qızar gələr... Cırtdan,
Görək sonra sözün nədir.

(*ətrafa*)

Cırtdan deyil bu fitnədir,

D i v qayğanağı qızdırmağa gedir

C ı r t d a n

Div deyil, gəlsə də fələk
Qura bilməz mənə kələk.
Qoy oyadım uşaqları.
Qalx ayağa, Lələş, Qaya!
Zəhmətimiz gedər zaya.
Şişə çəkib ətimizi
Bu zalım div yeyər bizi.

D i v içəri girir.

D i v

(*Cırtdana*)

Al, qayğanaq qızdı, qoçaq,
Ye, yat, oyaq qalma ancaq.

C ı r t d a n qayğanağı alır. Yatağına uzanır. D i v saz çalır, C ı r t d a n yatmır.



D i v

Kim yatıb, kim oyaqdır?

C ı r t d a n

Hamı yatıb, mən oyağam!

D i v

Qayğanaq da verdim sənə,
İndi sözün nədir mənə?
Qarnın toxdur, yerin rahat,
Div babanı incitmə, yat!
Saz çalıram şirin-şirin,
Yuxuya dal dərin-dərin.

C ı r t d a n

Ay div baba, mən Cırtdanam,
Pis öyrədib məni anam.
Gətirməsən xəlbirlə su,
Gözlərimə getməz yuxu.

D i v

Su da gətirərəm xəlbirlə, qoçaq,
Təki sən yuxuya batasan ancaq.

C ı r t d a n

Suyu içən kimi yatacağam mən!

D i v çıxır.

C ı r t d a n

Gör heç ağıl ummaq olur bu Divdən,
Xəlbirdə su qalar... keyin biri key.

Xəlbiri bulaqda dolduracaq hey
Su axıb gedəcək… ay yaramaz div,
Başına uçaydı bu sehirli ev.
Gedim uşaqları oyadım, qaçaq,
Yoxsa tutar bizi yeyər bu alçaq.

(*Cırtdan gəlir, uşaqları oyadır*)

Uşaqlar oyanmırlar. Cırtdanın gözü saza sataşır. Cırtdan sazı yerdən alır, diqqətlə baxır.

Cırtdan

Hər halda bu sazda gizli bir sirr var,
Div bunu çalınca uşaqlar yatır,
Dərin və dəhşətli yuxuya batır.
Qoy mən başqa hava çalım bu sazla,
Bir nəğmə oxuyum incə avazla.
Səsimdən uşaqlar bəlkə oyansın,
Əkilək… Div gəlsin, hirsindən yansın.

(*Oxuyur*)

Səsləyir bizi dağlar,
Durna gözlü bulaqlar,
Oyanın, ay uşaqlar!
Səsləyir bizi çəmən,
Lalə, nərgiz, yasəmən.
Oyanın, ay uşaqlar!
Səsləyir bizi quşlar,
Durnalar, qaranquşlar,
Oyanın, ay uşaqlar!

(*uşaqlar oyanır*)

Axır ki, yuxudan oyatdım sizi,
Qalxın, tez götürün öz şələnizi.



Qara div gəlməmiş əkilək burdan,
Yoxsa gəlsə bizə o verməz aman.

Uşaqlar şələsini götürəndə Cırtdan onlara kömək edir. Uşaqlar evdən çıxırlar. Cırtdan bir neçə addım gedir, qayıdır ki, dovşan dərisini ötürsün, evdən çıxmaq istərkən Div içəri girir. Cırtdanı tutub çuvala salır. Çuvalın ağzını bağlayır.

Div

Cırtdan kələk gəlir divə, ha-ha-ha!
Qurtara bilməzsən əlimdən daha.
Burda qal, əvvəlcə bir ocaq qurum.
Sonra sac içində səni qovurum,
Aşırım ləzzətlə bu gün naharda.

Div odun yığmaq üçün çölə çıxır. Cırtdan bıçağı ilə çuvalı yırtıb çıxır. Divin nənəsini çuvala basır, özü isə evin yanındakı yüksək qalaya dırmaşır.

Cırtdan

Sən bir iştahaya bax bu yasarda,
Qudurğan, naharda yeyəcək məni.
Sənə yedirərəm qarı nənəni.

Div gəlir, ocaq yandırır, sacı ocağın üstünə qoyur. Çuvalı sacın içinə atır. Sonra götürüb taxtın üstünə qoyur, dişləyib yeməyə başlayır.

Div

Nə qədər şirindir Cırtdanın əti,
Heç getməz ağzımdan onun ləzzəti.

Cırtdan

Bu azğın, qudurğan qara divə bax,
Yeyir nənəsinin ətini axmaq.

Div əti yeyib qurtarır, başını yuxarı qaldırır, Cırtdanı görüncə heyrət edir.

Div

Ay Cırtdan, sən ora necə dırmaşdın?
Çuvalın ağzını nə təhər açdın?

Cırtdan

Əvvəlcə bıçaqla çuvalı açdım,
Bir şişi qızdırıb qarnıma sancdım.
Dəyirman daşını boynuma taxdım,
Sonra sərçə kimi yuxarı qalxdım.

Div Cırtdanın sözünə inanır, dəyirman daşını boynuna taxır. Şişi qızdırır, qarnına sancır. Qalaya dırmaşırkən yıxılıb ölür. Cırtdan qaladan aşağı enir, öz şələsini götürüb yola düzəlir.

Öz cəzana çatdın, div?
Artıq bu sehirli ev
Olmaz insan məhbəsi,
Qorxutmaz heç bir kəsi.
Burda əsər küləklər,
Ətir saçar çiçəklər.
Keçər gözəl ceyranlar,
Uçar cəsur tərlanlar.
Bu səfalı çəmən, dağ
Olar ellərə yaylaq.

*1942*

*Pərdə*



# FİTNƏ

İŞTİRAK EDƏNLƏR:

Bəhram
Fitnə
Qəhrəman
Təlxək
Nökərlər

## BİRİNİC ŞƏKİL

Ovlaq. Bahar, Qəhrəman və iki nökər at qova-qova gəlir. Gözəl bir yerdə dayanırlar.

Bəhram

Əcəb gözəl ovlaqdır,
Hər yan çəməndir, bağdır.
Uçur göydə tərlanlar,
Bax, vaz atır ceyranlar.
Gəlin burda ov vuraq,
Çiçəklikdə oturaq.
Gözləyək fitnə gəlsin,
Çalsın, bir kef düzəlsin.

Qəhrəman

Düzdür, gəlin ov vuraq,
Sonra burda oturaq.

Bir ceyran gəlir.

Bəhram

(*onu görüncə*)

Bax, Qəhrəman pəhləvan,
Gəlir gözəl bir ceyran.
Qoy onu alım nişan,
Qəlbini edim şan-şan,

Bəhram nişan alır, ovu vurur.

Qəhrəman

Şah! Sənə yüz afərin!
Var çox böyük hünərin!
Qəhrəmanlıq göstərdin,
Maralı yerə sərdin.

(*İkinci nökərə*)

Qaç, onu gətir, Qurban!

Qurban qaçır, maralı gətirir. Hamı diqqətlə marala baxır.

Ey şah, əlinə qurban,
Heç belə maral olmaz,
Yeyən ətindən doymaz.

Bəhram

Gəlin burda oturaq,
İndi bir kabab vuraq.

Atdan enib gözəl bir yerdə otururlar. Ocaq qalayıb ceyran ətindən kabab çəkirlər. Bu halda Fitnə və Təlxək gəlib şaha baş əyirlər.

Təlxək

Şah, ovun yağlı olsun,
Düşmənin bağlı olsun.

Bəhram

Sağ ol, sağ ol, otur, Təlxək,
Bir az bizi güldür görək.

Təlxək

(*Dümbək çalır, oynaya-oynaya oxuyur*)



Hamam-hamam içində,
Xəlbir saman içində,
Dəvə dəlləklik edər
Köhnə hamam içində.
Milçək mindik, Kürü keçdik,
Yaba ilə dovğa içdik,
Biz olmuşuq ömrümüzdə
Belə yalan deməmişdik.

Bəhram və yanındakılar gülür.

Sığmasa da bu ağıla
Başlanğıcdır bir nağıla.
İndi qulaq asın təzə
Nağıl deyim, şahım, sizə..

(*Dümbək çala-çala*)

Keçmişdə bir şah yaşarmış,
Çox qan içən canavarmış.
Bu dediyim azğın şahın,
Bu əxlaqı pozğun şahın
Bığı varmış şalban kimi,
Qulaqları qalxan kimi.
İncidirmiş yoxsulları,
Məzlumları, ac qulları.
Ova çıxır bu hökmran,
Onu çöldə sancır ilan –
Cəzasına çatır zalım.
Dümbəyimi mən də çalım,
Hər tərəfə səs yayılsın,
Yatanlar da bir ayılsın.

(*Təlxək dümbək çalır*)

Bəhram

İynəlidir sözün, Təlxək,
Gərək sənə dəysin kötək!

Təlxək

Şah sağ olsun, nağıldır bu,
Gəlmə mənə qara-qorxu.

Şah və yanındakılar gülür.

Şah

Bağışladım səni bu gün,
Gicikməsin sür-sümüyün.
Bir də qələt eyləmə ha!..
Çərən-pərən söyləmə ha!..

*Təlxək*

Gözüm üstə!

Bəhram

(*Təlxəyə*)

Mayallaq aş!

Təlxək mayallaq aşır. Nökərlər tütək çalır.
Təlxək oynayır.

Qəhrəman

Şah sağ olsun, qoy bu gözəl
Oxusun bir zərif qəzəl.
Nəşə versin qəlbimizə...

Bəhram

(*Fitnəyə*)

Ay qız, bir az oxu bizə,

Fitnə kamança çala-çala oxuyur.



Fitnə

Könül, oxşayırsan şirə, pələngə,
Gündə girişirsən mənimlə cəngə.
Qanını tökərəm əlimə düşsən,
Görüm boyanmısan sən neçə rəngə.
Hanı mənim kimi yanmış pərvanə,
Hanı könlüm kimi dəli-divanə,
Hər qurdun, hər quşun yuvası vardır,
Tapa bilməyirəm mən bir viranə.

Mahnı bitir.

*Bəhram*

Doğrudan da gözəl oxuyur Fitnə.

Qəhrəman

Onun mahnıları ruh verir mənə.
Oxumaqda tayı yoxdur, yalqızdır,
Hünərli, sevimli, incə bir qızdır.

Fitnə

Mənə xoş gəlməyir yersiz təriflər,
Mən göstərməmişəm böyük bir hünər.
Gözəl səs vermişdir mənə təbiət,
Mən də oxumağı etmişəm sənət.
Burda hünər yoxdur, bu bir vərdişdir,
Oxumaq olduqca sadə bir işdir.

(*Təlxək saqqalına əl atır*)

Təlxək

Bax bunun canıyçün düz danışırsan!

Hamı gülür. Bu halda bir ceyran görünür.

Qəhrəman

Şahım, bax, şamlıqdan çıxıb bir ceyran!
Ox at, elə onu torpağla yeksan.

Bəhram ceyrana tərəf baxır, oxu kamana qoyur.

Bəhram

Bu saat göstərim elə bir hünər,
Fələklər də mənə əhsən desinlər.

Bunu deyib oxu ceyranın qulağına vurur. Ceyran ayağı ilə qulağını qaşıyır. Bəhram fürsət vermədən oxu atıb ceyranın ayağını qulağına tikir.

Qəhrəman

Ey şah, bu hünərin ağıla sığmaz,
Qələmlə yazılıb nağıla sığmaz.
Olmaz bir igiddə bu qüvvət, bu əl...

Bəhram

(*Fitnədən soruşur*)

Sənin fikrin nədir buna, ay gözəl?

Fitnə

Şahım, göstərmədin böyük bir hünər.
Mənə qalsa boşdur bu afərinlər.
Burda hünər yoxdur, bu bir vərdişdir.
Ovçuluq olduqca sadə bir işdir.
İşi çox görəndə öyrənir insan.
Sənət sənətkara görünər asan.



Bəhram

(*acıqla*)

Sənin sözlərinin yoxdur mənası,
Mənə xor baxırsan, günahkar, asi.
Bu saat başını kəsdirərəm mən.

Birinci nökər

(*ətrafa*)

Nə görsə insanlar görür dilindən.

Bəhram

Mən burdan gedirəm, igid Qəhrəman,
Bu qudurğan qıza verməzsən aman,
Onun dik başını kəsib bədəndən
Vəhşi heyvanlara atarsan həmən.
Sonra köynəyini batırıb qana
Gətirib verəsən sarayda mana.

Fitnə

Padşahım, rəhm elə,
Vermə ömrümü yelə.

Bəhram

Dəyişməz heç zaman verdiyim qərar,
Gərək cəzasına çatsın günahkar.

Bəhram və nökərlər çıxır.

Qəhrəman

(*Fitnəyə*)

Gözəl qız, dilindən çəkirsən bəla.

Fitnə

Ömrümdə yaltaqlıq bilmərəm əsla.
Bəhramın cəzası olsa da kəskin,
Yaltaq insanlara bəsləyirəm kin.

Qəhrəman

Odur ki, kəsilir başın bədəndən,
Bir gül ayrılacaq indi çəməndən.

Fitnə

Yox, məni öldürə bilməzsən, inan,
Nə qədər canımda can var, pəhləvan,
Onu bilginən ki, təslim olmaram,
Səninlə döyüşə, vuruşa varam.

Qəhrəman

İndi ki, elədir tut, gəldi xəncər.

Xəncərini çəkib Fitnəni vurmaq istəyir. Fitnə xəncəri onun əlindən alıb bir tərəfə atır. Güləşirlər. Xeyli güləşdikdən sonra fitnə Qəhrəmanı yıxır, onun başını kəsmək istəyir.

Qəhrəman

Gəl məni öldürmə, ay gözəl dilbər,
Qələt eyləmişəm, günahımdan keç,
Bir də belə işi eyləmərəm heç.

Fitnə

Səni bircə şərtlə bağışlaram mən,
And iç ki, nə desəm mənim sözümdən
Çıxmazsan, dünyada ömrün olduqca
Mənim hər əmrimi sanarsan uca.



Qəhrəman

And olsun günəşə, and olsun aya,
And olsun bu gözəl işıq dünyaya,
And olsun göylərə, ömrüm olduqca
Sənin hər əmrini sanaram uca.

Fitnə

Azadsan!

(*Köynəyini çıxarıb ona verir*)

Al bunu bulaşdır qana!
Şah səni gözləyir apar ver ona.
Söylə ki, əmriniz yerinə yetdi,
Fitnə bu dünyanı tərk edib getdi.
Ancaq sözü elə de ki, inansın.
Qoy məni Bəhram şah məhv olmuş sansın.

Qəhrəman

Baş üstə, dünyada nə qədər varam,
Sənin hər əmrini uca sanaram.

***Pərdə***

**İKİNCİ ŞƏKİL**

Qırxpilləli bir qəsr. Qəsrin qarşısında bir bağça var. Bahar zamanıdır. Fitnə bağçanın qarşısında dayanmışdır.

Fitnə

Bəhram məni ölmüş sandı,
Qəhrəmana o inandı.
Gəldim burda dörd il qaldım,
Qəsr tikdim, buzov aldım.

Hər gün onu çiynimdə mən
Çıxartdım bu pillələrdən.
Buzov indi olub inək,
Bax, yenə də əvvəlki tək
Onu buzov sanıram mən,
Çıxardıram pillələrdən...

Gəlir xalını toxumağa başlayır. Xalının üstündə bir qadın böyük bir inəyi çiyninə alıb, qırx pillədən yuxarı çıxarır. Qadın iyirminci pillədədir. Fitnə xalını toxuyub qurtarmaq üzrədir. O, xalı toxuya-toxuya nəğmə oxuyur.

Fitnə

Gözəl, bahar, gözəl bahar,
Sevincisən könüllərin.
Səhər-səhər ətir yayar
Sevimli incə güllərin.
Gözəl bahar, gəlincə sən,
Açar bənövşə, yasəmən.
Axar sular şırıl-şırıl,
Yaşıl geyər çayır, çəmən.

Bu halda Qəhrəman içəri girir.

Qəhrəman

(*Fitnəyə*)

Deyəsən, xalını qurtarırsan sən?
Mahnı oxuyursan yenə də şən-şən.

Fitnə

Hər iş görülübdür, bir şey qalıb bax:
Gedib Bəhram şahı qonaq çağırmaq.
Sənin boynundadır o da, Qəhrəman.



Qəhrəman

Hazıram yolunda keçməyə candan,
Bu saat gedərəm.

Fitnə

Tez get, boş gəlmə,
Başqa söz danışma orda bir kəlmə!

Fitnə

Qoy çağırım ceyranı,
Tülkünü, ağ dovşanı,
Dəcəl oynaq meymunu,
Gəlsin yesin yemini.

(*Çağırır*)

Tülkü, gəl,
Ceyran, gəl,
Meymun, gəl,
Dovşan, gəl.

Heyvanlar gəlir. Fitnə onlara yem verir. Heyvanlar yem yeyir. Bu halda Bəhram, Qəhrəman, Qurban və bir qız içəri girir. Fitnə işarə edir, heyvanlar yerlərinə gedir.

Bəhram

Nə səfalı yerdir bu,
Axır gümüş kimi su.
Açılıb zərif, göyçək,
Yaraşıqlı gül, çiçək.
Çalınsın sədəfli saz,
Burda əylənək bir az.

Qurban saz çalır, qız oynayır. Oyun bir az davam etdikdən sonra

F i t n ə

İzin versə şah əgər,
Mənim dostlarım gələr,
Saz çalaram, oynayar.

B ə h r a m

Çağır gəlsin, izin var.

F i t n ə

(*Oxuya-oxuya heyvanları çağırır*)

Dovşan, dovşan, a dovşan,
Gəl bir az oyna, dovşan.

(*Dovşan gəlib oynayır*)

Tülkü, tülkü, a tülkü,
Gəl bir az oyna, tülkü.

(*Tülkü gəlib oynayır*)

Ceyran, ceyran, a ceyran,
Gəl bir az oyna, ceyran.

(*Ceyran gəlib* oynayır)

Meymun, meymun, a meymun,
Gəl çıxar bir az oyun.

Meymun gəlir oyun çıxarır. Hamını güldürür. B ə h r a m şahın gözü inək çəkilmiş xalçaya sataşır.

B ə h r a m

Xalçanın üstündə əcəb şəkil var!
Nə gözəl yaratmış onu sənətkar.
Çiyninə alıbdır bir qadın inək,



Çıxır pillələrdən o, bir aslan tək,
Şəksiz bu xəyaldır, deyil həqiqət,
Heç vaxt qadınlarda olmaz bu qüvvət.

F i t n ə

Xeyr, xəyal deyil, bu olan işdir,
Burda çətinlik yox, bu bir vərdişdir.
Hər işi çox görsə insan öyrənər,
Burda mən görmürəm çox böyük hünər,
İstəsəm bu işi görərəm mən də…

B ə h r a m

(*Gülür*)

Olmaz belə qüvvət, belə güc səndə,
Lovğalıq eləmə bunca, ay gözəl!

F i t n ə

Mən lovğa deyiləm!

(*Üzünü sağa tərəf tutur*)

İnəyim, gəl, gəl!

Sarı bir inək gəlir. F i t n ə inəyi çiyninə alır. Qırx pillədən yuxarı qalxır. Sonra aşağı enib inəyi yerə qoyur. B ə h r a m və yanındakılar bu işə heyran qalırlar.

B ə h r a m

Ey gözəl, göstərdin çox böyük hünər,
Məncə, qadın deyil, sən bir nərsən, nər!

F i t n ə

Bu hünər deyildir, çox asan işdir,
Bunda çətinlik yox, bu bir vərdişdir,
Sənət sənətkara görünər asan.

B ə h r a m

Fitnə də demişdi bunu bir zaman.
Onun sözlərinə inanmadım mən,
Başını kəsdirdim dərhal bədəndən.
Yəqin qaldıraram inəyi mən də.

F i t n ə

Öylə bir hünəri görmürəm səndə.

B ə h r a m inəyi qaldırmaq istəyir, gücü çatmır, yıxılıb qalır.

B ə h r a m

Əzildim, əzildim, öldüm, ay aman,
Yetiş köməyimə, igid Qəhrəman.

F i t n ə

Şahım, sən də ki var çox böyük hünər,
Özünü xilas et, gücünü göstər.

B ə h r a m

Güc işi deyildir, halım müdhişdir.

F i t n ə

Görürsən lovğalıq nə yaman işdir!

***P ə r d ə***

*1941*



# QORXMAZ

## İŞTİRAK EDƏNLƏR:

K o s a
B ə y i m – Kosanın arvadı
Q o r x m a z – igid bir oğlan
B a l t a d i ş
C e y r a n
P ə r i q ı z ı

### BİRİNCİ ŞƏKİL

Kosanın evi. K o s a fikrə dalıb çubuq çəkir. Arvadı cəhrə əyirir.

B ə y i m

Kosa, nə olub sənə,
Nə fikirdəsən, yenə,
Dəryada gəmin batıb?

K o s a

Arvad, il başa çatıb,
İndi qorxmaz gələcək,
Haqqını verim gərək,
Düşünürəm kələklə
Qurum elə bir tələ –
Haqqını yeyim.

B ə y i m

Kişi!
Burax bu cəncəl işi.
Qorxmaza dişin batmaz,
O heç bir ipə yatmaz,
Başı getsə bədənindən,
Haqqını alar səndən.

Kosa

Nə danışdın, necə, nə?
Kosa deyərlər mənə!
Məndən pul ala bilməz,
Axı bu ola bilməz…
Nökərə mən haqq verim?
Gərək bir tədbir görüm –
Onun haqqını yeyim.
İş başqadır, ay Bəyim!

Bəyim

Baxarsan bu ərinə!
Qoy fikirləşim bir az…
Tapdım…

Ayaq səsi. Qorxmaz görünür.

Kosa

Bax, gəlir Qorxmaz,
Dinib danışma, arvad,
İşi edərsən bərbad.

Qorxmaz

Kosa, bir ildir ki, mən
Düşmüşəm əldən-dildən.
Səhərdən axşamadək
İşləyib zəmidə tək
Alın təri tökmüşəm.
Səninçin yer əkmişəm.
Başa yetişib ilim,
Gözləyir məni elim,
Haqqımı ver!



Kosa

Əzizim!
Sözümüz sözdür bizim,
Bircə iş qalıb ancaq,
Onu da görsən, qoçaq,
Öz haqqını alarsan,
Sən çox razı qalarsan.

Qorxmaz

O iş nədir, ay Kosa!
Bir kələyin var yoxsa?!

Kosa

Əziz övladım Qorxmaz,
Mənim kələyim olmaz!
Haqsevən bir insanam.

Qorxmaz

Kosa, öymə özünü,
Söylə görək sözünü.

Kosa

Mənim külək yerişli,
İti şimşək yerişli
Gözəl bir atım vardı,
At ceyrana oxşardı.
Deyil eldə, obada,
İnan bütün dünyada
Ona tapılmazdı tay,
Verilmişdi mənə pay.
Dövlətimdən, malımdan,
Öküzümdən, kəlimdən
Onu çox sevərdim mən.
Uzaq getsə gözümdən –
Bağrım olardı şan-şan,
Bir yaramaz qudurğan
İlyarım bundan qabaq

Ürəyimə çəkdi dağ, –
Zorla aldı atımı!
Qırdı qol-qanadımı.
Gedib atı gətirsən,
Bilərəm qoçaqsan sən.
Haqqını da verərəm,
Yolunu da görərəm.

Qorxmaz

Ay Kosa, atını aparan kimdir?
Bəydir, xandır, yoxsa böyük hakimdir?
Onun adı nədir, yurdu hardadır?
Yaxında yaşayır, uzaqlardadır?

Kosa

Adı Baltadişdir o qudurğanın.
Qanını tökmüşdür o, çox insanın.
Dağların qoynunda salıb yurd-məskən
Dərələr titrəyir nəriltisindən.
Baltadiş məhv olsa əgər əlində,
Sən ad qazanarsan doğma elində.
Çünki çox insanlar qırıb o alçaq,
Onun öhdəsindən gələn yox ancaq.

Qorxmaz

İndi ki, öldürür o, insanları,
Mən yerdə qoymaram haqsız qanları,
Ağır cəza verrəm o yaramaza,
Qoymaram elləri mən batsın yasa!

Kosa

Durma daha, yaxşı yol,
Öz işində mahir ol.
Atı gətir, əzizim,
Sözümüz sözdür bizim!

Qorxmaz çıxır.



Kosa

Qorxmazı saldım felə,
Ömrünü verdim yelə.

Bəyim

Doğrudan da, ay kişi,
Yaxşı başladın işi,
Əgər Qorxmaz məhv olsa
Kosasan, elə kosa!..

## İKİNCİ ŞƏKİL

Gözəl bir çəmən. Qorxmaz görünür.

Qorxmaz

Nə qədər gözəl çəmən!
Nərgiz, lalə, yasəmən
Oxşayır könülləri.
Bu al-əlvan gülləri
Gördükcə coşur ürək.
Əsdikcə sərin külək
Sanki incə ney çalır,
Dağlardan səs ucalır.
Quşların xoş nəğməsi,
Bulaqların şən səsi
Edir insanı heyran.
Odur qaçır bir ceyran…
Bir pələng onu qovur,
Qorxmaz, tez pələngi vur,
Yazıq ceyranı qurtar,
Onun da anası var,
Gözləyir balasını, –
Gözünün qarasını.

Qorxmaz oxla pələngi gözündən vurur, pələng yerə sərilib çırpınır. Qorxmaz onun başının üstünü alır, qılıncı boynundan endirir. Ceyran sevinclə başını Qorxmazın ayaqlarına sürtür.

Ceyran

Sən ey qəhrəman Qorxmaz!
Yaxşılıq yerdə qalmaz.
Pələngin pəncəsindən
Xilas etdin məni sən.
Odur bu gündən belə
Dost oluram səninlə.
Bərkə düşsən bir yerdə,
Batsan qüssəyə, dərdə.
Desən düşmüşəm dara,
Tapmıram heç bir çarə.
"Gəl, ey vəfalı Ceyran!"
İnan keçməz bircə an
Dağlar, daşlar aşaram.
Mən sənə qovuşaram.

Sözünü qurtarıb Ceyran gedir. Bu zaman Baltadiş yelqanadlı atın üstündə gəlir.

Baltadiş

(*Qorxmaza*)

Söylə kimsən, ay insan?
Baltadişdən qorxmursan –
Keçirsən ovlağımdan,
Səfalı yaylağımdan?
Yaxşı bax, tanı məni,
İndi böyük tikəni
Edərəm qulağınca.

Qorxmaz

Gəl lovğalanma bunca.
Mən Qorxmaz bir insanam,
Mərd doğub məni anam.
Baltadiş, aslan, pələng,
Qurd, əjdaha, div, nəhəng
Məni qorxuda bilməz!
Mərd olanlar əyilməz!..



Baltadiş

İndi ki, belədir, bu mərd, bu meydan,
Gəl çarpış, gücünü göstər, pəhləvan!

Qorxmaz

Göstərrəm!.. Atından yerə en əvvəl,
Sonra igidlərə qara-qorxu gəl!
Meydanda güləşək, görək kim basar,
Qorxutmaz tərlanı hər sar, hər yassar.

Baltadiş qəzəblənib atdan yerə enir. Qorxmazın yaxısından yapışır. Qorxmaz da onun balta dişindən tutur. Güləşirlər. Xeyli güləşdikdən sonra Qorxmaz Baltadişi yıxır, onu bir ağaca sarıyır, sonra onun döşündən bir ox vurur.

Qorxmaz

Sən az tökməmisən yer üzündə qan,
Axır öz cəzana çatdın, qudurğan.

Qorxmaz gedib ata minir.

Qorxmaz

Kəhəri çaparam, gedərəm bu an,
Haqqımı alaram xəsis Kosadan.

***Pərdə***

**ÜÇÜNCÜ ŞƏKİL**

Kosa gözünü bağlayıb yol kənarında oturub; Qorxmaz at üstündə gəlir. Kosaya yaxınlaşanda Kosa ağlayır.

Qorxmaz

Kimdir belə ağlayır,
Yeri-göyü dağlayır?

K o s a

Mənəm, köçdən düşüb burda qalmışam.
Qolumdan, qıçımdan yaralanmışam.

Q o r x m a z

Ağlamaqdan şey çıxmaz,
Dərd-qəm igidi yıxmaz.

K o s a

Bu, düz, lakin əzizim,
Neyləyim, kordur gözüm.
Nə yol görürəm, nə iz, –
Naləm deyil səbəbsiz.
Gecəni qalsam burda
Yem olaram boz qurda.
Gəl yaxşılıq elə sən –
Məni qurtar ölümdən.

Q o r x m a z

İndi ki, belədir, dərd çəkmə, ata!
Gəl səni mindirim bu kəhər ata.
Get kəndinizə.

K o s a

Sağ ol, ay bala!
Görüm çəkməyəsən dünyada bəla.

Q o r x m a z  K o s a y a tərəf gedəndə üstüörtülü quyuya düşür.

K o s a

*(atı minib deyir)*

Sən Qorxmazsan əgər, Kosayam mən də,
Mahir bir ustayam, hiylədə, fənddə
Mən səni aldadıb quyuya saldım



Bu gözəl kəhəri əlindən aldım.
Haqqını da yedim, bu gündən belə
Həsrət qalacaqsan obaya, elə.

K o s a atı sürüb gedir.

Q o r x m a z

Bir alçağa inandım,
Yaman yerdə aldandım,
Gül kimi solacağam,
Burda məhv olacağam.
Yaxşı düşdü yadıma,
Ceyran çatar dadıma.
Qoy çağırım ceyranı,
O vəfalı heyvanı…
Gəl, əziz dostum Ceyran,
Məni qurtar bəladan.

Q o r x m a z bu sözləri deyib bitirincə bir p ə r i at üstündə görünür, kəhər at da onun yedəyindədir. Qız kəməndini Q o r x m a z a atır.

P ə r i  q ı z ı

Yapış bu kəmənddən, Qorxmaz pəhləvan!..

Q o r x m a z kəmənddən yapışır, P ə r i  q ı z ı onu quyudan çəkir.

Q o r x m a z

Sağ ol, mərhəmətli, igid qəhrəman!
Məni fəlakətdən eylədin xilas.
Sən kimsən?

P ə r i  q ı z ı

Ən yaxın dostunam, Qorxmaz!
Bir pəri qızıyam, çöldən ötərkən

Yırtıcı pələngə rast gəlmişdim mən.
Artıq son günümdü. Çatdın bu zaman,
Azğın düşmənimə vermədin aman,
Məni xilas etdin, o gündən bəri
Borcluyam mən sənə…

Qorxmaz

Ey gözəl pəri!
Sən çöldə gördüyüm həmən ceyransan?!

Pəri qızı

Bəli, o ceyranım, istəsəm hər an
Bir cildə girərəm… gah quş oluram,
Yaşıl budaqlara qonmuş oluram.
Gah ceyran oluram, gəzirəm çöldə,
Gah yaşılbaş olub üzürəm göldə.
Bir az undan əvvəl aşıb dağları,
Yaşıl çəmənləri, göy yaylaqları,
Bir qartal cildində qanad çalırdım,
Gah qalxıb göylərə, gah alçalırdım.
Səsini eşitdim, köməyə gəldim,
Bir oxla Kosanın bağrını dəldim,
Atını gətirdim, durma min, Qorxmaz!
Dünyada yaxşılıq, heç unudulmaz!

Qorxmaz

Sağ ol, şanlı qəhrəman!
Kosa kimi qudurğan
Öldü sənin əlində.
Bütün xalqın dilində
Dastan olar hünərin,
İgidliyin, zəfərin!

*Pərdə*

*1944*



# Təmsillər

## TİKAN VƏ QIZILGÜL

Tikan çox təəccüblə
Söylədi Qızılgülə:
Bir kolda, bir budaqda
Yetişirik biz bağda.
Bəs səbəb nədir ki, sən
Hamıya sevimlisən,
Məni sevməyir heç kəs?
Gül dedi: – Deyil əbəs,
Bir yerdə olsaq da biz,
Ayrıdır xislətimiz.
Sən hər ələ batırsan,
İncidib qanadırsan.
Mən könül oxşayıram
Qəlblərdə yaşayıram.

*1967*

## DARGÖZ YAPALAQ

Bağda dargöz Yapalaq
Əldən, ayaqdan uzaq
Yuva qurdu özünə.
İstəmədi gözünə
Görünsün bir göyərçin,
Durna, bülbül, bildirçin.
Gəldi bir bülbül, səhər
Oxudu şən nəğmələr.
Qəlbi od tutub yandı,
Yuvasından boylandı,
Yapalaq dedi: – Bülbül,
Səni coşdurubdu gül.

Oxuyursan həvəslə,
Səhər-səhər zil səslə.
Ancaq bilmirsən ki, mən
Xoşlanmıram nəğməndən.
Hər nəğmən yüz rəng olur,
Qulaqlarım dəng olur.
Bülbül dedi: – Yapalaq,
Dördgözlərin deyil bağ.
Burda hər cürə quş var,
Torağay, qaranquş var.
Hamı sevir nəğməni.
Gözəl səs yalnız səni
Narahat edirsə gəl,
Olma quşlara əngəl.
Get xaraba küncünə,
Nəğməkardan incimə.

*1967*

## DOLÇA VƏ PİYALƏ

Piyalə dedi: – Dolça
Olsa da məndən uca,
Qabağımda əyilir,
Özünü kiçik bilir.
Baxsalar ona gendən
Deyərlər: – Qorxur məndən.
Dolça dedi – Piyalə!
Uyma bu xam xəyalə.
Boşlar göstərər qürur,
Dolular olmaz məğrur.
Sən boşsan, mən doluyam,
Əyilsəm də uluyam.
Əksilməyir hörmətim.
Yaxşılıqdır niyyətim.

*1967*



## NAR YEYƏN UZUNQULAQ

Bir dəfə Uzunqulaq
Gördü meyvəli bir bağ.
İtirmədi fürsəti
Bağa girdi xəlvəti.
Bir ağacda vardı bar,
Alma, armud, heyva, nar.
Tez ağzını uzatdı,
Ulaq budağı dartdı,
Qabığıyla çeynədi,
Bütün bir narı yedi.
Gördü acıdır yaman,
Dedi: – Bilmirəm insan
Bu narı necə yeyir,
Hər yerdə tərifləyir,
Belə acı meyvəni?
Dəhşət götürüb məni.
Dilləndi nar ağacı,
Dedi: – Nar deyil acı.
Qabığıyla yeyirsən,
Nara acı deyirsən.
Ulaq nədir, bağ nədir,
Nar nədir, ulaq nədir?!

*1967*

## OVÇU VƏ QUZU

Bir dəfə gecəyarı
Ovçu bir canavarı
Tutub gətirdi kəndə,
Bağlayıb saldı bəndə.
Bu ovçu bir ağappaq
Tükü ipəkdən yumşaq,
Kök quzu saxlamışdı.
Həyətdə bağlamışdı.

Quzu qurdla üz-üzə
Durub baxdı göz-gözə.
Qəlbinə qorxu çökdü,
Gündə ətini tökdü,
Bir quru sümük oldu,
Dəri ona yük oldu.
Quzunu görüb ovçu
Yandı qəlbinin içi.
Söylədi: – Ay Quzum, sən
Vaxtında yemlənirsən.
Çoxdur otun, ələfin.
Əvvəllər sazdı kefin.
Səbəb nədir bu hala, –
Ömrün gedir zavala.
Ovçuya dedi Quzu:
– Bilmək istəsən düzü,
Canavarı görəndə
Taqət qalmayır məndə,
Yaman qorxub hürkürəm,
Mən ətimi tökürəm.

*1967*

## KƏPƏNƏK VƏ BAL ARISI

Arıya bir Kəpənək
Söylədi: – Bu gül-çiçək
Mənə yaraşır ancaq.
Seyr elə, hüsnümə bax,
Gör necə rəngbərəngəm,
Güllər kimi qəşəngəm.
Rəngin sənin sapsarı
Bu sir-sifətlə, arı,
Dolanırsan gülşəni,
Çəmənləri, meşəni.
Arı dedi: – Kəpənək,
Düzdür, deyiləm göyçək.



Lakin qonduğum güldən
Bal hazırlayıram mən.
Hamı yeyir balımdan,
Xoşlanır bu halımdan.
Sən öz zövqünə görə
Qonursan çiçəklərə,
Bənzəsən də güllərə,
Faydan yoxdur ellərə.

*1967*

## DARĞA – QARĞA

Quşların şahı Tərlan,
Adlı-sanlı hökmran
Əmr edib dedi: – Qarğa,
Edirəm səni darğa!
Yaşıl meşədə, bağda,
Çəmənlikdə, yaylaqda,
İradənlə, hökmünlə
Nə istəyirsən elə.
Qarğa yaman sevindi,
Düşünüb dedi: – İndi
Var məndə böyük qüdrət,
Əlimə keçib fürsət
Gərək nəğməkar quşlar,
Bülbüllər, qaranquşlar
Gəlib yaşıl bağlarda
Oxumasın baharda.
Hər tərəfdə qarğalar
Qışqırıb desin qar, qar.
El zövq alsın səsindən.
Qarğa vəzifəsindən
Olub elə bədgüman,
Lap çıxmışdı yadından
Onun miskin qarğalıq.
Edən zaman darğalıq,

Oldu başqa həvəsdə...
Qondu bir gün leş üstə.
Elə göydən bu zaman
Şığıyıb gəldi Tərlan.
Qarğa saymadı onu,
Pis oldu işin sonu.
Tərlan bərk acıqlandı.
Qəzəbdən qəlbi yandı,
Elə vurdu Qarğanı,
Çıxdı lovğanın canı.

## QARANQUŞ VƏ BAYQUŞ

Yetişdi bahar çağı,
Bəzədi güllər bağı.
Qaranquş bir budaqda
Oxuyan zaman bağda,
Bayquş dedi: – Qaranquş!
Bu gün qurtarıbdır qış.
Xəbər tutub bahardan
Gəlib çıxmısan hardan?
Mən bağdayam hər səhər,
Tutmuram yazdan xəbər.
Qaranquş dedi: – Bayquş,
Birdir sənə bahar, qış.
Ulamaqdır sənətin,
Yazı duyarsan çətin.
Vurulmuşam mən yaza
Xoş nəğməyə, şən saza.

*1963*



# KİTABIN İÇİNDƏKİLƏR

## ŞEİRLƏR

Xatırlayarsan məni .......... 7
Ürək sözləri .......... 8
Qoruqda .......... 8
Qız bənövşə .......... 9
Gözəlsən .......... 10
Sən ömür bağımda açan çiçəksən .......... 10
Rəssam dostuma .......... 11
Bənzətmə .......... 12
Maral əfsanəsi .......... 12
Vüqarlı dağlar .......... 14
Eynək .......... 15
Övlad məhəbbəti .......... 15
Tər çiçəklər .......... 16
Yoldaşlıq köməyi .......... 17
Sahildə iki uşaq .......... 18
İki dəfə iki .......... 19
Nənə və nəvə .......... 20
Özündən razı .......... 21
Belə uşaqlar da var .......... 23
Bahar nəğməsi .......... 24
Fərhadın etirafı .......... 25
Dağın qəlbi .......... 26
Ürək .......... 26
İynə, sap .......... 27
Zəhmətin barı .......... 27
Yersiz səxavət .......... 28
El gücü .......... 28
Tənbəl olma .......... 28
Yarasa və pərvanə .......... 29
Tülkü və cücə .......... 29
Qaranquş və bayquş .......... 30
Aslan və ceyran .......... 31
Ədabaz meymun .......... 32
Kirpi və ilan .......... 33
Tamahkar qarğa .......... 33
Canavar və tülkü .......... 34
Əqrəb və çanaqlı bağa .......... 35

Bülbül və çalağan ....36
Qış baba ....37
Quzum ....37

**RÜBAİLƏR** ....39


**QƏZƏLLƏR**

Elindir ....51
Acı olmaz ....51
Bənzədirəm ....52
Yadə gəldi ....52
Naz eyləyir ....53
Uçdu bülbül ....53
Dodağından ....54
Güllər içində ....54
Vətəndə ....55
Sirdaşı olsam ....55
Sevdi könül ....56
Söz ....56
Sənsiz ....57
Əmr etsə vətən ....57
Əhdi olmaz ....58
Dildən-dilə düşdü ....58
Ürəyimsən ....59
Səndən ....59
Yaxşı olur ....60
Böyüdüb aşiyan məni ....60
Qara gözlər ....61
Gözəlim yar ....61
Hər günün hökmü var ....62
Sevda dəmidir ....62
Yarım ....63
Gənclik ömrün yazıdır ....63
Məhəbbət ....64
Xoşdur ....64
Şairanədir ....65
Adət belədir ....65
Gəlin kimdir ....66
Xəzərim var ....66
Etmə şikayət ....67




Kamalından danış ....67
Nazı gözəldir ....68
Hansı baharın gülüsən? ....68
Canana dedi ....69
Canan ....69
Muğan ....70
Bir gözəl sevdim ....70
Eşqimi isbatə nə hacət! ....71
Canan əlindən ....71
Deyirlər ....72
Dedim dedi ....72
Gül fəsli ola ....73
Olmur mənim qərarım ....73
Nəzər etmir ....74
Gözəl ....74
Kamanımla tarım var ....75
Rəna pəri ....75
Qardaş kimi ellərdə ....76
Hər könül ....76
Hikmətə bax! ....77
Zəhmətimizlə ....77
Düşmə sevdayə ....78
Bir gözələ yüz qəzəl ....78
Səninlə ....79
Zəhmət böyük şərəfdir ....79
Yar sındı ....80
Pərizadə deyin ....81
Nazlı yarımız ....81
Öyrən ....82
Vətənimdə ....82
Qəlbim səni izlər ....83
Hicrində dönüb ....83
Əsrarını duysan ....84
Şairanə ola ....84
Şöhrəti vardır ....85
Vəsl istədi ....85
Sevgili dildar ....86
Eşq atəşinə düşdü ....86
Görünür ....87
Gülüşündən ....87
Könlümün nəğmələri ....88

Gülzarı yetər ........................................88
Fəraqın atəşinə ........................................89
Gələ gül bağda tapılmaz ........................................89
Oldu hüsnün gülşənim ........................................90
Qəmə dəyməz ........................................90
Qartal kimi ........................................91
Ay gözəllər gözəli ........................................91
Vətənimsən ........................................92
Könlüm səni yad eyləyir ........................................92
Naz ilə bir baxmağı yarın ........................................93
Həyat aləmini ........................................93
Görəndə saçlarını ........................................94
Salar yada səni ........................................94
Mənə baxdın ........................................95
Şirin görünür ........................................95
Vətən lövhələri ........................................96
Heyran oldu ........................................96
Gün gələr torpaq olarsan ........................................97
Eyləmə inkar ........................................97
Yüz gözəl görsə ........................................98
Zəhmət və həvəsdir ........................................98
Görüb sənəmləri ........................................99
Həmdəm idin, yar ........................................99
Hər yanan şam bir ürəkdir ........................................100
Yar güldü, danışdı ........................................100
Demə ........................................101
Məlahəti var ........................................101
Geri dönməz ........................................102
Qəlbi daşdan yaranıb ........................................102
Gülzarə gətirdi ........................................103
Bu əhdi peymandır ........................................103
Gənclik və gözəllik ........................................104
Gülümsən ........................................104
Yüz gül açar məhəbbət ........................................105
Torpaqda yavaş gəz ........................................105
Hər sözün candır sənin ........................................106
Qənimət bil vüsalı ........................................106
Olsun ........................................107
Qoyma xəzanə dönsün ........................................107
Bu ellərdə ........................................108
Sən qədəm qoydun bağa ........................................108



Torpaqların altında nə var ........................................109
Qısqanıram mən ........................................109
Mənə asan olar ........................................110
Sahildə ........................................110
Canan gəlir ........................................111
Asudə idin ........................................111
Vüsalınə ........................................112
Bu gün ........................................112
Səba yeli ........................................113
Eşqin həvəsi ........................................113
Könül otağında ........................................114
Bahara dönüb ........................................114
Mehribansan ........................................115
Canan üzünə gülmədi ........................................115
Ola bilməz ........................................116
Qanadlanan bülbül ........................................116
Həmdəmim olsa ........................................117
Qəzəlimdə ........................................117
Ürək ........................................118
Toxundu ........................................118

**PYESLƏR**

Şairin gəncliyi ........................................121
Sevgi ........................................199
**Uşaqlar üçün**
Cırtdan ........................................272
Fitnə ........................................283
Qorxmaz ........................................297

**TƏMSİLLƏR**

Tikan və qızılgül ........................................309
Dargöz yapalaq ........................................309
Dolça və piyalə ........................................310
Nar yeyən uzunqulaq ........................................311
Ovçu və quzu ........................................311
Kəpənək və bal arısı ........................................312
Darğa – qarğa ........................................313
Qaranquş və bayquş ........................................314

Buraxılışa məsul: *Umud Rəhimoğlu*

Texniki redaktor: *Zahid Sarıtorpaq*

Operator: *Asifə Əfəndi*

Kompyuter səhifələyicisi: *Ceyhun Şahniyaroğlu*

Korrektor: *Tofiq Qaraqaya*

Yığılmağa verilmişdir 16.08.2006. Çapa imzalanmışdır 15.09.2006.
Formatı 60x90 $^1/_{16}$. Fiziki çap vərəqi 20. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 158.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küçəsi, 17.